AZƏRBAYCAN RESPUBLİKASI

“GƏLƏCƏYİN KİTABXANASI”
İCTİMAİ BİRLİYİ

ISSN (ISSN-L): 2959-1694
ISSN (Online): 2959-1708

KİTABXANA.AZ

ELMİ-NƏZƏRİ VƏ TƏCRÜBİ JURNAL

Jurnal 2008-ci ildən nəşr olunur.
İllik dövriyyəsi ildə iki dəfədir (aprel-oktyabr).

№1(38) * Aprel

Jurnalın bu sayı ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilir.

Seriyanın istiqamətləri:
- Tarix elmi
- Humanitar və sosial elmlər tarixi
- Kitabxana işinin tarixi
- İnformasiya və sənəd menecmenti
- Kitabşünaslıq və nəşriyyat işinin tarixi

Bakı – 2023

Təsisçi və baş redaktor: **Şəfəq İSLAMOVA**
tarix üzrə fəlsəfə doktoru

Redaktor: **Eldəniz MƏMMƏDOV**
tarix üzrə fəlsəfə doktoru

Redaksiya heyəti:
Xəlil İSMAYILOV, tarix elmlər doktoru, professor
İkram AĞASİYEV, tarix elmlər doktoru, professor
Tahirə ALLAHYAROVA, fəlsəfə elmləri doktoru, professor
Cəbi BƏHRAMOV, tarix üzrə fəlsəfə doktoru, dosent
Sevda XƏLƏFOVA, tarix üzrə fəlsəfə doktoru, dosent
Pərviz KAZIMİ, tarix üzrə fəlsəfə doktoru, dosent
Ələmdar BAYRAMOV, filologiya üzrə fəlsəfə doktoru, dosent
Elçin ƏHMƏDOV, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Knyaz ASLAN, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Hasan KESEROĞLU, İnformasiya ve sənəd menecmenti professoru (Kastamonu Universiteti, Türkiyə)
Gülər DƏMİR, İnformasiya ve sənəd menecmenti dosenti (Kastamonu Universiteti, Türkiyə)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə **№ 2492**. Qeydiyyat tarixi **16.01.2008**.

Redaksiyanın ünvanı: AZ 1096, Bakı şəhəri, K.Balakişiyev küçəsi 43/15
Telefonlar: (+994 12) 323 49 39; (+994 50) 558 98 59; (+994 77) 742 35 42
E-mail: shafaq.ace@gmail.com
Jurnal **"Füyuzat MMC"** Nəşriyyat və Poliqrafiya Mərkəzində nəşr olunur.

© "Gələcəyin kitabxanası" İctimai Birliyi
© Kitabxana.az, 2023

REPUBLIC OF AZERBAIJAN
АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА

"THE LIBRARY OF FUTURE" PUBLIC UNION

«БИБЛИОТЕКА БУДУЩЕГО» ОБЩЕСТВЕННОЕ ОБЪЕДИНЕНИЕ

ISSN (ISSN-L): 2959-1694
ISSN (Online): 2959-1708

KİTABXANA.AZ

SCIENTIFIC - THEORETICAL AND PRACTICAL JOURNAL

The journal has been published since 2008. Annual turnover is twice a year (april-october).

This issue of the journal is dedicated to the 100th anniversary of the birth of the great leader Heydar Aliyev.

KİTABXANA.AZ

НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

Журнал издается с 2008 года. Годовой оборот два раза в год (апрель-октябрь).

Этот номер журнала посвящен 100-летию со дня рождения великого лидера Гейдара Алиева.

April * №1(38) * Апрель

Series directions:

- History science
- History of humanities and social sciences
- History of librarianship
- Information and document management
- History of bibliology and publishing

Направления серии:

- Историческая наука
- История гуманитарных и социальных наук
- История библиотечного дела
- Информационный и документный менеджмент
- История книговедения и издательского дела

Baku – 2023

Баку - 2023

FOUNDER AND EDITOR-IN-CHIEF:
Shafaq ISLAMOVA
PhD in history

Editor:
Eldaniz MAMMADOV
PhD in history

Editorial staff:

Khalil ISMAILOV, doctor of science in history, professor
Ikram AGHASIYEV, doctor of science in history, professor
Tahira ALLAHYAROVA, doctor of science in Philosophy, professor
Jabi BAHRAMOV, PhD in history, docent
Sevda KHALAFOVA, PhD in history, docent
Parviz KAZIMI, PhD in history, docent
Alamdar BAYRAMOV, PhD in philology, docent
Elchin AHMEDOV, PhD in pedagogy, docent
Hasan KESEROĞLU, Professor of Information and Document Management (Kastamonu University, Turkey)
Güler DİMİR, Docent of Information and Document Management (Kastamonu University, Turkey)

УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:
Шафаг ИСЛАМОВА
доктор философии по истории

РЕДАКТОР:
Эльданиз Мамедов
доктор философии по истории

Редакционная коллегия:

Халил ИСМАИЛОВ, доктор исторических наук, профессор
Икрам АГАСИЕВ, доктор исторических наук, профессор
Тахира АЛЛАХЯРОВА, доктор философских наук, профессор
Джаби БАХРАМОВ, доктор философии по истории, доцент
Севда ХАЛАФОВА, доктор философии по истории, доцент
Парвиз КАЗИМИ, доктор философии по истории, доцент
Аламдар БАЙРАМОВ, доктор философии по филологии, доцент
Эльчин АХМЕДОВ, доктор философии по педагогике, доцент
Хасан КЕСЕРОГЛУ, профессор менеджмента информации и документа (Университет Кастамону, Турция)
Гюлер Демир, доцент менеджмента информации и документа (Университет Кастамону, Турция

The journal is registered with the Ministry of Justice of the Republic of Azerbaijan. Certificate **No. 2492**. Registration date **16.01.2008**.
- -
Editorial address: AZ1096, Baku city, K.Balakishiyev street 43/15
Phones: (+994 12) 323 49 39; (+994 50) 558 98 59; (+994 77) 742 35 42
Email: shafaq.ace@gmail.com
The magazine is published in the Publishing and Printing Center "Fuyuzat LLC".

Журнал зарегистрирован в Министерстве Юстиции Азербайджанской Республики. Свидетельство **№ 2492.**. Дата регистрации **16.01.2008**.
- -
Адрес редакции: AZ1096, город Баку, улица К.Балакишиева 43/15
Телефоны: (+994 12) 323 49 39; (+994 50) 558 98 59; (+994 77) 742 35 42
Электронная почта: shafaq.ace@gmail.com
Журнал издается в Издательско-полиграфическом центре «Фуюзат ООО».

© Public Union "The Library of Future"
© Kitabxana.az, 2023

© Общественное объединение «Библиотека будущего»
© Kitabxana.az, 2023

==========

UOT/UDC/УДК 82.0:001.92

Knyaz İlyas oğlu Aslan
Bakı Dövlət Universiteti
Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: knyazaslan@bsu.edu.az
https://orcid.org/0000-0003-2710-3758

NİZAMİ GƏNCƏVİ İRSİNİN TƏBLİĞİNƏ HEYDƏR ƏLİYEV TÖHFƏSİ

Xülasə: *Məqalədə Nizami Gəncəvinin həyat və yaradıcılığı, Nizamişünaslıq istiqamətində görülən işlər, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi, nəşri və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında verilən qərarlar, yubiley tədbirlərinin keçirilməsi ilə bağlı məsələlər şərh edilir və dünya ədəbiyyatında onun əvəzsiz rolundan bəhs edilir.*

Açar sözlər: *Heydər Əliyev, Nizamişünaslıq, Azərbaycan mədəniyyəti, dünya ədəbiyyatı.*

Dünya elmi-ədəbi fikrinin diqqət mərkəzində olan mütəfəkkir sənətkar Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında orta yüzilliklərdən bəri müəyyən qədər söz açılsa da, şairin ədəbi irsi əsasən XX əsrdən geniş araşdırılaraq tədqiq olunmağa başlamışdır. Onun əsərləri dəfələrlə yüksək tirajlarla nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində xeyli iş görülmüş, çoxsaylı tədqiqatlar aparılmış, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi tənqidi mətni hazırlanmışdır.

Mütəxəssislərin fikrincə, ötən dövr ərzində Nizamişünaslıq istiqamətində xeyli iş görülməsinə baxmayaraq, bu, dahi şairimizin şöhrətinə uyğun səviyyədə olmamışdı. Belə ki, 1920-ci illərə qədər Nizaminin dolğun tərcümeyi-halı yazılmamış, olum və ölüm tarixləri ilə bağlı olan bəzi mülahizələrə tam aydınlıq gətirilməmişdi. Dünyanın ayrı-ayrı kitabxana, arxiv və muzeylərində saxlanılan əlyazma nüsxələrinin müqayisəli ədəbi-tənqidi mətnləri yaradılmamış, əsərlərinin orijinala daha yaxın filoloji və ədəbi tərcümələri hazırlanmamışdı. Eyni zamanda sənətkarın dünya ədəbiyyatındakı mövqeyi

layiqincə açılıb göstərilməmiş, müxtəlif ölkələrdə ona həsr olunan elmi tədqiqat əsərləri kütləvi tirajla nəşr edilməmişdi.

Tarixi mənbələrə görə, Nizaminin vəfatından xeyli sonra, yəni təxminən XIII-XIV əsrlərdə Gəncə şəhərinin yaxınlığındakı Əhmədli kəndində şairin dəfn olunduğu yerdə ağ əhəng daşından qəbirüstü türbə tikilmiş, bununla da onun xatirəsi əbədiləşdirilmişdir.

XIX əsrin 70-80-ci illərinə qədər gəlib çatmış həmin türbənin dağılmaq təhlükəsi ilə üzləşdiyi barədə o dövrün tanınmış ziyalıları məlumat vermişlər. Məsələn, o vaxtlar Tiflisdən Şamaxıya qayıdarkən yolüstü Gəncədə Nizaminin məqbərəsini ziyarət edən görkəmli maarifçi şairimiz Seyid Əzim Şirvani ürəkağrısı ilə məşhur rübahisini söyləmişdir:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan,
Olmuşmu sənin lə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan?!.

Nizaminin anadan olmasının 750-ci ildönümü ərəfəsində – 1891-ci ildə isə həmin türbənin yerində məqbərə ucaldılmışdır.

Sənətkarın məqbərəsi üzərinə müvəqqəti abidə isə 1932-ci ildə qoyulmuşdur. Qədim məqbərə dağıldığına görə 1947-ci ildə onun yerində daş məqbərə ucaldılmışdır.

Şairin yubileyinin dövlət səviyyəsində keçirilməsi baxımından ilk təşəbbüs 1930-cu illərin sonlarında qaldırılmışdır. 25 iyul 1938-ci ildə Azərbaycan KP MK "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyinin bayram edilməsi haqqında" qərar qəbul etmişdir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olması gününün 800 illiyinə həsr edilən daimi sərgi (ev-muzeyi) təşkil etmək haqqında" Qərar isə 1 noyabr 1939-cu ildə verilmişdir. Lakin İkinci Dünya müharibəsinin başlanması şairin yubileyinin ali məqamda qeyd olunmasına imkan verməmişdir.

Bununla belə, 1940-cı ildə Moskvada Nizamiyə həsr edilmiş elmi sessiya və iclas keçirilmiş, Nizami əsərlərinin tərcüməsi üzrə Bakıda ümümittifaq müşavirə təşkil edilmiş, Azərbayçan XKS qərarına görə Nizaminin epoxası, həyatı və yaradıcılığı haqqında müsabiqə elan olunmuşdur.

1941-ci ildə blokada şəraitində olan Leninqrad şəhərindəki Dövlət Ermitajında Nizaminin 800 illiyinə həsr olunmuş mühüm tədbir keçirilmişdir.

Ustad sənətkarın təntənəli yubileyinin geniş miqyasda təşkili yalnız müharibədən sonra mümkün olmuşdur. 1947-ci ildə Rusiya, Gürcüstan, Özbə-

kistan, Türkmənistan, Litva, Latviya, Dağıstan və başqa yerlərdə Nizaminin anadan olmasının 800 illiyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmişdir. Şairin yubileyi münasibətilə SSRİ Elmlər Akademiyası və Sovet Yazıçıları İttifaqı Moskva şəhərində birgə təntənəli iclas keçirmişlər.

SSRİ Nazirlər Sovetinin 24 mart 1947-ci il tarixli qərarına əsasən Bakı şəhərində Nizami Gəncəvinin möhtəşəm abidəsi qoyulmuşdur.

1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə xalqımızın klassik mədəni irsinin öyrənilməsi sahəsində respublikamızda yeni mərhələ başlamışdır. Bu baxımdan Azərbaycan KP MK-nın "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 6 yanvar 1979-cu il tarixli qərarı mühüm əhəmiyyət daşıyır. Həmin sənəd həmin istiqamətdə kompleks vəzifələr müəyyənləşdirmiş, ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin, o cümlədən Nizami irsinin sistemli şəkildə araşdırılması üçün geniş perspektivlər açmışdır. Bu qərardan sonra Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılmış, şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir.

1981-ci ilin avqust ayında Azərbaycan KP MK-nın "Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında" qərarı isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həmin il şairin yubileyi geniş qeyd olunmuş, Bakıda, Moskvada, eləcə də Sovet İttifaqının digər respublikalarında Nizami təntənəsi nümayiş etdirilmişdir.

Dəyərli bir xatırlatma: Azərbaycanın unudulmaz rəhbəri Heydər Əliyev 1981-ci ildə Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı Moskva ilə razılaşdırarkən o vaxtlar Sovet İttifaqı Kommunist Partiyasının ikinci katibi olan, partiyanın ən mühüm ideoloqu hesab edilən Mixail Suslov bu təşəbbüsə etiraz etmək istəmişdi. Heydər Əliyev onun sözünə cavab olaraq qətiyyətlə demişdi: "Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər".

Heydər Əliyevin özü həmin hadisəni 2000-ci il mayın 24-də Gəncəyə səfəri zamanı dahi şairimizin məqbərəsi önündə söylədiyi nitqdə belə təsvir edir:

"Tariximizin böyük səhifələrini, intibah dövrünü – IX-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Parti-

yası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda - çünki onlarsız bu işi görə bilməzdik - dedilər ki, "840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847". Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi - Suslov, Brejnevin dövründə ikinci katib idi - mənə dedi ki, bu, mümkün deyildir. Mən isə dedim ki, siz Nizami Gəncəvini tanıyırsınızmı? Dedi ki, tanıyıram, yaxşı tanıyıram - Suslov keçmiş işçi idi, Stalinin yanında da işləmişdi, 1948-ci ildə onun yubileyinin keçirilməsindən də xəbərim var. Dedim, yəqin ki, tamam xəbəriniz yoxdur. Nizami Gəncəvi elə dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır. Beləliklə, biz buna nail olduq, o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik.

Demək istəyirəm ki, bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq".

Beləliklə, 1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi Moskvanın İttifaqlar Evinin Sütunlu salonunda, Bakının Respublika Sarayında təntənəli şəkildə qeyd edilmişdir. Azərbaycan paytaxtında keçirilən mərasimlərə SSRİ-də yaşayan xalqların təmsilçilərindən ibarət böyük nümayəndə heyəti də qatılmışdı. Heyətə Sovetlər Birliyində mədəniyyət məsələlərinə kuratorluq edən məşhur rus alimi və tarixçisi akademik Dmitri Lixaçov rəhbərlik edirdi.

Xatırladırıq ki, ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə bir çox şəhər və rayonlarda böyük mütəfəkkirin adını əbədiləşdirən heykəllər ucaldılmışdır. Bundan başqa, yüzlərlə məktəb, şəhər, qəsəbə, kənd, prospekt, küçə, mədəniyyət sarayı, kinoteatr Nizami Gəncəvinin adını daşımış, söz ustadı haqqında bədii və sənədli filmlər, musiqi əsərləri, romanlar yaradılmışdır.

Hələ 1982-ci ildə Heydər Əliyev “Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsinin hər vasitə ilə gücləndirməli” adlı məruzəsində vurğulayırdı:

"Azərbaycan adları dünya ədəbiyyatı xəzinəsinə daxil olan Nizami, Xaqani, Tusi, Füzuli, Nəsimi, Natəvan, Vaqif, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə, M.S.Ordubadi, C.Cabbarlı, Üzeyir Hacıbəyov, S.Vurğun və bir çox başqa yazıçıların, şairlərin, bəstəkarların, alimlərin vətənidir. Gənclərimiz də korifeylərin yaradıcılığına, Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində yaradılan bütün mənəvi sərvətlərə yaxşı bələd olmalıdırlar".

1990-cı ildə Azərbaycan KP MK “Nizami Gəncəvinin anadan olmasının 850 illiyi haqqında” qərar qəbul etmiş, Bakıda Nizami Gəncəvinin adına Beynəlxalq Elm və Mədəniyyət Mərkəzi açılmışdır.

UNESCO 1991-ci ili mütəfəkkir şairin 850 illik yubileyi şərəfinə "Nizami ili" elan etmişdir.

Həmin vaxt SSRİ Mədəniyyət Nazirliyi "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi qarşısında yubiley tədbirləri keçirilməsi haqqında" əmr vermişdir. Bundan sonra Moskvada Nizami abidəsinin açılışı olmuş, şairin 850 illiyi münasibəti ilə SSRİ-nin 1 rublluq yubiley monetası buraxılmış, Rusiyada, Belarusda geniş tədbirlər təşkil olunuşdur. Eyni zamanda İranda, İraqda və digər ölkələrdə Nizamiyə həsr olunmuş Beynəlxalq elmi konfranslar keçirilmişdir.

Ulu öndər Heydər Əliyev hələ 1990-cı illərdə demişdir:

"Bizim xalqımız çoxəsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik.

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar".

Prezident İlham Əliyevin 23 dekabr 2011-ci ildə imzaladığı "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam böyük söz ustadının zəngin ədəbi irsinə verilən yüksək qiymət kimi diqqəti cəlb edir. Sərəncamda deyilir ki, "Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq, hazırkı mərhələdə respublikamızda gənc nəslə mənsub nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində bu gün xüsusilə mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi problemləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir".

Həmin dövrdə UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Xəmsə" nəfis tərtibatla işıq üzü görmüşdür.

Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Prezident İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamın isə Nizamişünaslıqda yeni mərhələnin başlanğıcını qoyur.

Sərəncamda deyilir: "Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır".

Dövlət başçısının Azərbaycan ədəbiyyatının dühası, poeziyamızın günəşi qüdrətli klassiklərindən biri olan Nizami Gəncəvinin yubileyinin keçirilməsi haqqında imzaladığı bu Sərəncam dövlətimizin milli irsə verdiyi dəyərin parlaq ifadəsi olmaqla yanaşı, həm də xalqımızın möhtəşəm ədəbi sərvətlərinin zənginliyini bütün dünyaya bir daha nümayiş etdirmək məqsədi daşıyır.

Sərəncamda qeyd olunduğu kimi: "Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir".

Dünyanın görkəmli Nizamişünas alimlərinin vurğuladıqları məqamları söykənərək qürurla söyləyə bilərik ki, Şərqi Qərbə və bütövlükdə bütün dünyaya tanıdan, başqa sözlə, Məğribdən Məşriqə məşhur olan Nizami ümumbəşəri şairdir və dünya ədəbiyyatında onun yeri əvəzsizdir. Bu mənada Nizami Gəncəvinin 880 illik yubileyinin də respublikamızda və dost xarici ölkələrdə möhtəşəm keçirilmiş, xalqımızın ulu dühasının misilsiz yaradıcılığının böyük türk dünyası ilə yanaşı, həm də bütün bəşəriyyətin mədəni sərvəti olduğunu bir daha təsdiqləmişdir.

Vaxtilə ulu öndər Heydər Əliyev iftixarla bəyan edirdi:

"Nizami Gəncəvi bütün bəşər sivilizasiyasına məxsusdur. Onun dünya sivilizasiyasına, dünya mədəniyyətinə, dünya ədəbiyyatına verdiyi töhfə hamıya məlumdur. Lakin bununla bərabər, o, azərbaycanlıdır. Azərbaycan şairidir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il martın 9-

da Bakıda işə başlayan “Dünya bu gün: Çağırışlar və ümidlər” mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında dediyi bu fikirlər ulu öndərin sözlərinin davamı kimi qürurla səslənir: “Nizami Gəncəvi doğma Gəncə şəhərində dünyaya gəlib, orada yazıb-yaradıb və orada da dəfn olunub. Onun müdrikliyi və istedadı Azərbaycan xalqının müdrikliyinin və istedadının təzahürüdür”.

ƏDƏBİYYAT

1. Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 30 mart 1998-ci il, № 769 / URL: https://e-qanun.az/framework/4707

2. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 23 dekabr 2011 / URL: https://president.az/az/articles-/view/3896/print

3. Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 05 yanvar 2021 / URL: https://president.az/az/articles/view/49904

Knyaz İlyas oglu Aslan
Baku State University
Head of the Library and Publishing Department,
Ph.D in pedagogy sciences, associate professor
E-mail: knyazaslan@bsu.edu.az
https://orcid.org/0000-0003-2710-3758

HEYDAR ALİYEV'S CONTRİBUTİON TO THE PROMOTİON OF NİZAMİ GANJAVİ HERİTAGE

Annotation: *İn the article, the life and creativity of Nizami Ganjavi, the works carried out in the direction of Nizami Studies, study of the heritage of the great poet and thinker of Azerbaijan Nizami Ganjavi on the initiative of the great leader Heydar Aliyev, decisions made on measures to further improve publication and promotion, issues related to jubilee events are explained and its indispensable role in world literature is discussed.*

Key words: *Heydar Aliyev, systematic studies, literary heritage, culture, event, world literature.*

Князь Ильяс оглы Аслан
Бакинский Государственный Университет
Заведующая кафедры Книговедения и издательского дела,
доктор философии по педагогике, доцент

ВКЛАД ГЕЙДАРА АЛИЕВА В ПРОПАГАНДУ НАСЛЕДИЯ НИЗАМИ ГЯНДЖЕВИ

Резюме: *В статье жизнь и творчество Низами Гянджеви, работы, проведенные в направлении низамиведения, изучение наследия великого поэта и мыслителя Азербайджана Низами Гянджеви по инициативе великого лидера Гейдара Алиева, решения делается о мерах по дальнейшему совершенствованию издания и пропаганды, разъясняются вопросы, связанные с юбилейными мероприятиями, и обсуждается его незаменимая роль в мировой литературе.*

Ключевые слова: *Гейдар Алиев, Низамиведение, Азербайджанская культура, мировая литература.*



==========

UOT/UDC/УДК 808.2

Sevda Feyruz qızı Quliyeva
Bakı Dövlət Universiteti
"Kitabşünaslıq və nəşriyyat işi" kafedrası,
Filologiya üzrə fəlsəfə doktor,
E-mail: sevda.bdu @gmail.com
https://orcid.org/0000-0003-1161-6110

HEYDƏR ƏLİYEVİN "MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR" ƏSƏRLƏR KÜLLİYATININ NƏŞRİ VƏ İCTİMAİ-SİYASİ ƏHƏMİYYƏTİ

Xülasə: *Ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyəti və müdrik dövlətçilik siyasəti, məharətli idarəetmə təcrübəsi, zəngin siyasi irsi və gələcək nəsillərə ötürdüyü siyasətin varisliyi ənənəsi təkcə bizim ölkəmizdə deyil, yaxın və uzaq xarici ölkələrdə də politoloji tədqiqatlar üçün aktual mövzulardandır. Bu məqalədə də "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin kompleks şəkildə təhlili verilmişdir.*

Açar sözlər: *Ümumilli lider, Azərbaycan Dövlət Nəşriyyatı, kitab nəşri, çoxcildli əsər.*

Müstəqilliyimiz əbədidir çoxcildliyinin bədii və polioqrafik tərtibatı dövrün tələblərinə cavab verən külliyyatın nəfis tərtibatda nəşri xronoloji ardıcıllıqla 1997-ci ildən 2013- cü ilədək Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən çap edilmişdir. 1997-ci ildən Azərbaycan Dövlət Nəşriyyatı - "Azərnəşr" tərəfindən çap edilən "Müstəqilliyimiz əbədidir" adlı əsərlər külliyyatı ictimai-siyasi kitabın tiplogiyasında mühüm əhəmiyyət kəsb edir. Bu əsərlər külliyyatına (hazırda 46-ci cildi nəşr olunub) Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, məktubları, müsahibələri, məruzələri, müraciətləri, fərmanları daxildir. Zəngin və dərin tarixi biliyə malik olan Heydər Əliyevin əsərlərini tədqiq etdikdə, müasir Azərbaycan tarixinin - XX əsrin 70-80 illik tarixinin hər səhifəsinə aid dəqiq, rəsmi və ətraflı məlumatlar əldə edirik. AzərTAc-ın materialları əsasında hazırlanmış bu əsərlər külliyyatında materiallar tarixi ardıcıllıqla təqdim olunur və yalnız bir dildə - Azərbaycan dilin-

də nəşr olunur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin birinci cildinə bu dahi şəxsiyyətin xalqın istəyi və xahişi ilə yenidən ölkə rəhbərliyinə gəldiyi 1993-cü ilin iyunundan 1994-cü ilin may ayına qədər dövrdəki çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və s. toplanmışdır. Bu materiallarda ölkəmizin həmin dövrünün ictimai- siyasi həyatında baş vermiş mürəkkəb proseslər müdrikliklə, obyektiv şəkildə təhlil olunur. Böyük siyasi-tarixi və elmi- nəzəri əhəmiyyət kəsb edən kitabda müstəqilliyin qorunub saxlanılmasının, inkişaf etdirilməsinin dahiyanə praktiki təcrübəsi əksini tapmış, milli dövlət quruculuğu prosesinin başlıca istiqamətləri dəqiqliklə və uzaqgörənliklə müəyyənləşdirilmişdir [1, s.612].

Ulu öndərin 1994-cü il dekabr ayının əvvəllərindən 1995-ci il iyunun əvvəllərinə qədərki dövrü əhatə edən çıxış və nitqləri, müraciət və bəyanatları, müsahibə və məktubları üçüncü cildə daxil edilmişdir. Materiallarda Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, milli dövlət quruculuğu prosesi, uğurlu daxili və xarici siyasət xətti, eyni zamanda ölkə rəhbərinin Azərbaycan xalqının tərəqqisi və aydın sabahı naminə yorulmaz siyasi fəaliyyətinin, zəngin və mənalı həyatının tarixi məqamları əks olunmuşdur [3, s.488].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktublarından ibarət dördüncü cild 1995-ci il iyunun əvvəllərindən 1995- ci il noyabrın ortalarına qədərki dövrü əhatə edir. Kitaba zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının müstəqil dövlət quruculuğu yolunda ardıcıl və əzmkar mübarizəsini, gərgin və mürəkkəb siyasi hadisələrlə zəngin çağdaş tariximizin obyektiv mənzərəsini əks etdirən böyük ictimai-siyasi əhəmiyyətə malik əsərləri daxil edilmişdi [4, s.528].

Heydər Əliyevin 1995-ci il noyabrın sonlarından 1995-ci il martın ortalarına qədər olan dövrdəki çıxışları, nitqləri, müraciətləri, bəyanatları, müsahibələri, məktubları və s. beşinci cilddə toplanmışdır. Azərbaycanın tərəqqi və inkişafının əsas istiqamətləri, uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması, dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh və danışıqlar yolu ilə ədalətli həlli xəttinin prioritetliyi, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün və sərhədlərİnin toxunulmazlığının təmin edilməsi uğrunda ardıcıl və məqsədyönlü mübarizənin siyasi, diplomatik və nəzəri əsasları bu kitabda özünün parlaq əksini tapmışdır [5, s.500].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin

nitqlərindən, müraciətlərindən, bəyanatlarından, müsahibələrindən, məktublarından və s. ibarət çoxcildlik əsərlərinin altıncı cildi 1996-cı il martın ortalarından iyunun sonlarına qədər olan dövrü əhatə edir. Bu əsərlərdə respublikamızda dönməz xarakter almış demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi, iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi və səmərəliliyinin artırılması, Dünya Birliyində Azərbaycanın mövqelərinin gücləndirilməsi, beynəlxalq sıx əlaqələr yaradılması, milli ordumuzun müdafiə qüdrətinin möhkəmləndirilməsi, daxili və xarici siyasət kursunun başlıca istiqamətləri və ictimai-siyasi həyatın digər aktual məsələləri əks olunmuşdur [6, s.512].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1996-cı il iyunun sonundan noyabrın əvvəllərinədək olan dövrdəki çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktubları yeddinci cilddə toplanmışdır. Cildə daxil edilmiş materiallarda Azərbaycan Prezidentinin Dünya Birliyi ölkələri və beynəlxalq təşkilatlarla Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi, xarici dövlətlərə rəsmi səfərləri, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi, həmçinin respublikada elm, təhsil, mədəniyyət və idmanın inkişafına qayğı və sosial iqtisadi həyatın digər vacib məsələləri öz parlaq əksini tapmışdır [7, s.520].

Doqquzuncu cildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1997- ci il martın 5-dən mayın 26-dək olan dövrdəki nitqləri, məruzələri, müsahibələri, məktubları, müraciətləri, bəyanatları, fərmanları və s. daxil edilmişdir. Bu əsərlərdə iqtisadi islahatları sürətləndirmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq, regionda və bütün dünyada sülhü və sabitliyi möhkəmləndirmək, müstəqil dövlətimizin beynəlxalq nüfuzunu durmadan yüksəltmək, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə ədalətli həllinə nail olmaqla Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, doğma xalqın ədəbiyyat və incəsənətinə yorulmadan qayğı göstərmək istiqamətlərində və digər sahələrdə Azərbaycan Prezidentinin gündəlik fəaliyyəti xronikası parlaq əks olunmuşdur [9, s. 466].

Böyük tarixi şəxsiyyət görkəmli siyasi xadim və nüfuzlu liderlərdən biri, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1997-ci il mayın sonundan iyulun sonunadək çıxış, nitq, bəyanat, məktub və müsahibələri onuncu cilddə nəşr edilmişdir. Kitabda Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dövlətçilik ənənələrinin inkişafı, dünya dövlətləri, o cümlədən Rusiya Federasiyası, Türkiyə, Qazaxıstan, Özbəkistanla siyasi-iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, xarici ölkələrdəki Azərbaycan diasporunun mövqelərinin gücləndirilməsi və mütə-

şəkkilliyinin artırılması, respublikamızda iqtisadi islahatların həyata keçirilməsi və digər sahələrdə Azərbaycan Prezidentinin yorulmaz və məqsədyönlü fəaliyyəti parlaq əks olunur [10, s.472] Kitabda Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dövlətçilik ənənələrinin inkişafı, dünya dövlətləri, o cümlədən Rusiya Federasiyası, Türkiyə, Qazaxıstan, Özbəkistanla siyasi-iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, xarici ölkələrdəki Azərbaycan diasporunun mövqelərinin gücləndirilməsi və mütəşəkkilliyinin artırılması, respublikamızda iqtisadi islahatların həyata keçirilməsi və digər sahələrdə Azərbaycan Prezidentinin yorulmaz və məqsədəuyğun fəaliyyəti parlaq əks olunur.

Çoxcildliyin on birinci cildində Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin ABŞ prezidenti Bill Klintonun dəvəti ilə ABŞ-a ilk rəsmi səfərinin materialları dərc olunur. Burada Bill Klinton ilə, digər yüksək vəzifəli şəxslərlə görüş və aparılmış danışıqlardan, imzalanmış önəmli dövlətlərarası sazişlərdən, ABŞ Konqresində konqresmen və senatorların böyük bir qrupu ilə, o cümlədən ayrıayrılıqda keçirilmiş görüşlərdə Azərbaycanın milli mənafelərini əks etdirən dərin məzmunlu söhbətlərdən, bir çox şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlərdən, ABŞ Konqresinin 1992-ci ilin oktyabrında «Azadlığı müdafiə aktı»na əlavə etdiyi Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişin ləğv olunmasının zəruriliyindən, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Ermənistan- Azərbaycan münaqişəsinin aradan qaldırılmasında Azərbaycan dövlətinin tutduğu qəti mövqedən, məsələnin sülh yolu ilə nizama salınmasında beynəlxalq təşkilatların rol və məsuliyyətinin artmasından, ABŞ-da yaşayan soydaşlarımızla görüş və söhbətlərdən və s. ətraflı bəhs edilir. Kitaba daxil edilmiş materiallar Azərbaycan Rrezidentinin ABŞ-a rəsmi səfərinin parlaq nəticələrinin iki ölkə arasında münasibətlərdə həqiqətən yeni mərhələ açdığı barədə aydın təsəvvür oyadır [11, s.452].

Azərbaycan Respublikasının Prezidenti,xalqın sevimli oğlu və ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çıxışları, nitqləri, müxtəlif səviyyəli görüşlərdə söhbətləri, bəyanatları, həmçinin təbrik teleqramları və müsahibələrindən ibarət “Müstəqilliyimiz əbədidir” çoxcildliyin növbəti on ikinci kitabi 1997-ci il avqustun 17-dən oktyabrın 29-dək olan dövrü əhatə edir. Kitabda dahi rəhbərin Polşaya, İtaliyaya, Vatikana rəsmi səfərlərində bu ölkələrin dövlət və hökümət başçıları ilə apardığı dərin məzmunlu danışıqların, imzalanmış yeni saziş və müqavilələrin əhəmiyyətindən, müxtəlif mətbuat orqanlarında verdiyi müsahibələrindən, Avropa Şurasının üzvü olan ölkələrin görüşündə Strasburq görüşündə Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin fəal iştirakından, GUAM təşkilatının ya-

radılması prosesindən, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həll uğrunda böyük öndərin əzmlə irəli sürdüyü yeni sülh təşəbbüslərindən ətraflı bəhs olunur [12, s.432].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çoxcildlik əsərlərinin on üçüncü cildi 1997-ci ilin oktyabrından dekabr ayına qədər olan dövrdəki çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, müraciətləri, fərmanları daxil edilmişdir. Cildə daxil edilmiş materiallarda həmçinin Azərbaycan ilə MDB ölkələri arasındakı ənənəvi dostluq Ordusuna ümumxalq qayğısı və diqqətinin artırılması, respublikamızın içtimai-siyasi və iqtisadi-mədəni həyatının vacib məsələləri, daxili və xarici siyasətinin başlıca istiqamətləri əks edilir [13, s.520].

Zəmanəmizin qüdrətli siyasətçisi və müdrik dövlət xadimi Heydər Əliyevin oxuculara təqdim olunan on dördüncü cilddə ölkəmizdə hüquqi, demokratik, dünyəvi, dövlət quruculuğu prosesindən, ictimai-siyasi iqtisadi mədəni həyatın bir çox sahələrindən xarici ölkələrlə əlaqələrin genişlənməsindən bəhs olunur. 1997-ci ilin dekabrından 1998-ci ilin fevralına qədər olan dövru əhatə edir. Kitabda prezident H.Əliyevin Türkiyə Rusiya, Gürcüstan və Yaponiyaya rəsmi səfərləri zamanı və Azərbaycana gələn dövlət və hökümət başçıları ilə apardığı danışıqlar imzalanmış sənədlər keçirilmiş çoxsaylı görüşlərin söhbətlərin materialları dərc olunmuşdur. Bu və digər görüşlərdə Heydər Əliyev dünya ölkələri ilə əlaqələrin daha da inkişaf etdirilməsi zəruriliyini, Azərbaycanın siyasi strategiyasının xalqımızın milli mənafelərinə xidmət etdiyini, iqtisadi siyasətimizin şəffaf olduğunu, dünya iqtisadiyyatına bəyan etmişdir [14, s.520].

Heydər Əlirza oğlu Əliyevin əsərlərinin oxuculara təqdim olunan on beşinci cildində dahi şəxsiyyətin anadan olmasının 75 illiyi münasibətilə Bakıya gəlmiş Türkiyə prezidenti Süleyman Dəmirəl, Gürcüstan prezidenti Eduard Şevardnadze və başqa dövlət xadimləri ilə keçirilən görüşlərdəki materiallar, dövlət səviyyəsində yübileyi ilk dəfə qeyd olunan Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş təntənəli gecədə söylədiyi dərin məzmunlu nitqi, Moskvada MDB ölkələrinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin, başçıları ilə etdiyi söhbətlər, Prezidentimizin çıxışları, informasiya vasitələrinə verdiyi müsahibələri toplanmışdır. Bu cild 1998-ilin martından iyuna qədər olan dövrü əhatə edir. Kitaba daxil edilmiş materiallarda həmçinin ölkəmizin daxili və xarici siyasətinin, milli dövlət quruculuğu prosesinin başlıca istiqamətləri, görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə çoxsaylı görüşləri, eləcə də ictimai-siyasi həyatın digər mühüm məsələləri öz əksini tapmışdır[15, s.528].

Əsrimizin böyük dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər

Əlirza oğlu Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin on altıncı kitabında apardığı danışıqlar, keçirdiyi görüşlər, etdiyi çıxışlar müstəqil, suveren Azərbaycan dövlətinin möhkəmləndirilib inkişaf etdirilməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun, onun haqq işinin dünya miqyasına yüksəldilməsinə, respublikamızın işıqlı gələcəyi, xalqımızın rifahı və tərəqqisi naminə aparılan geniş iqtisadi və siyasi islahatlara həsr olunmuş materiallar toplanmışdır. 1998-ci il iyundan iyula qədər olan dövrü əhatə edir. Kitabda unudulmaz rəhbərin Böyük Britaniya və Şimali İrlandiya

Birləşmiş Krallığına rəsmi səfəri zamanı keçirdiyi yüksək səviyyəli görüşləri, dərin məzmunlu danışıqları, imzalanmış sənədlər, dünyanın nüfuzlu mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələr Azərbaycan ilə Birləşmiş Krallıq arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində yeni mərhələnin təzahürüdür. Kitabda, həmçinin görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüşlər, qaçqın və məcburi köçkünlərə böyük diqqət və qayğı, tarixi adət-ənənələrə yüksək qiymət və dəyərli tövsiyələr də öz əksini tapmışdır [16, s.552].

Əsərin on yeddinci cildində Azərbaycanın ictimai-siyasi həyatına, iqtisadiyyatda müsbət dəyişikliklərin əsasının qoyulmasına, dövlət idarəçiliyinin təkmilləşdirilməsi strategiyasının başlıca parametrlərinin müəyyən edilməsinə, bu müddət ərzində görülən tədbirlərin, hazırlanan proqramların ictimai-tarixi dəyərinə həsr olunmuş materiallar toplanmışdır[17, s. 258].

Böyük dahi şəxsiyyət Heydər Əliyevin əsərlərinin oxuculara təqdim olunan on səkkizinci cildi 1998-ci il oktabrdan dekabradək olan dövrü əhatə edir. Kitabda müdrik dövlət xadiminin ölkəmizin ictimai-siyasi həyatına, iqtisadi-maliyyə sisteminə, dövlət idarəçiliyinin inkişafına, özəl sektorun genişlənməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun, onun haqq işinin dünya miqyasına yüksəldilməsinə, tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Bakı Konfrasına, Azərbaycanda insan hüquqları ilə əlaqədar tədbirlərin müəyyən edilməsinə aid materiallar, həmçinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümü münasibətilə yubiley mərasimindəki çıxışı, yüksək səviyyəli görüşləri, danışıqları, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin çəkilməsi ilə əlaqədar imzalanmış Ankara bəyannaməsi və s. öz əksini tapmışdır. Kitabda, həmçinin, Azərbaycanın şəhid olmuş döyüşçülərinin valideynlərinə, ailə üzvlərinə, qaçqın və məcburi köçkünlərə, elm, ədəbiyyat, mədəniyyət xadimlərinə və idmançılara böyük diqqət və qayğı, onlara Azərbaycanın dövlət mükafatlarının təqdim olunması, milli-mənəvi dəyərlərə, islam sivilizasiyasına yüksək qiymət də öz əksini tapmışdır [18, s.552]

Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan on doqquzuncu cildində apardığı danışıqlar, keçirdiyi görüş-

lər, etdiyi nitq və çıxışlarında müstəqil Azərbaycan dövlətinin möhkəmləndirib inkişaf etdirilməsinə, respuklikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, xalqımızın rifahı naminə dövlət idarəetmə sistemində dövlət nəzarətinin qaydaya salınması və sahibkarlığın inkişafı, istehsal, xidmət, maliyyə, kredit, səhiyyə, təhsil sahəsində aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır [19, s.528].

Müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əlirza oğlu Əliyevin əsərlərinin oxuculara təqdim olunan iyirminci cildində Azərbaycanın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, demokratik dövlət quruculuğu sahəsində strateji xəttin reallaşması ilə əlaqədar irəli sürdüyü mülahizələr, eləcə də Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksldilməsinə, dünya dövlətləri arasında özünəlayiq yer tutmasına yönəldilmiş siyasi xətti parlaq əksini tapmışdır. Kitabda Heydər Əliyevin NATO-nun 50 illik yubileyinə həsr olunmuş Zirvə görüşündə ABŞ prezidenti Bill Klintonla, ABŞ Konqresinin, hökümətinin, Dövlət Departamentinin, nüfuzlu dairələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri ilə görüşləri, dərin məzmunlu danışıqları, dünyanın aparıcı mətbuat orqanlarına və televiziya şirkətlərinə verdiyi dolğun bəyanət və müsahibələri, həmçinin Azərbaycan xalqına müraciətləri, Antalyada qısamüddətli istirahəti zamanı Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə görüşləri, söhbətləri geniş yer tutmuşdur.

Bütün cildlərdə olduğu kimi bu cilddə də ulu öndərin Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə aid ATƏT, Avropa Şurası, NATO rəhbərləri ilə görüşləri, bu münaqişə ilə əlaqədar onun prinsipial mövqeyi öz parlaq təzahürünü tapmışdır [20, s.536].

Bu məqalədə xalqımızına ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çox cildlik əsərlərinin 20 cildi haqqında oxuculara məlumat verilmişdir. Qeyd edək ki, 2003-cü ildən bu günədək keçilən yola nəzər salsaq Ümummilli Liderin siyasi kursunun uğurla davam etdiyini görərik. Dövlət başçısı İlham Əliyev bütün çıxışlarında bu çağırışı edir ki, Azərbaycan gəncliyi milli ruhda tərbiyə olunmalıdır. Təbii ki, 44 günlük Vətən müharibəsi gənclərin nə qədər vətənpərvər, ölkəsini, xalqını sevən olduğunu bir daha təsdiqlədi.

ƏDƏBİYYAT

1. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 1: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr, - 1997. - 612 s.*

2. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 2: may, 1994 - dekabr, 1994. Bakı: "Azərnəşr", 1997, 604 s.*

3. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 3: dekabr, 1994 - iyun, 1995. Bakı: Azərnəşr, -1997. - 488 s.*

4. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 4: iyun, 1995 - noyabr, 1995. Bakı: Azərnəşr,- 1997. - 528 s.*

5. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 5: noyabr, 1995 - mart, 1996. Bakı: Azərnəşr, -1998. - 500 s.*

6. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 6: mart, 1996 - iyun, 1996. Bakı: Azərnəşr, - 1998. - 512 s.*

7. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 7: iyun, 1996 - noyabr, 1996. Bakı: Azərnəşr, -1998. - 520 s.*

8. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 8: noyabr, 1996 - mart, 1997. Bakı: Azərnəşr, - 1998. - 488 s.*

9. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 9: mart, 1997 - may, 1997. Bakı: Azərnəşr, - 2000. - 466 s.*

10. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 10: may, 1997 - iyul, 1997.Bakı: Azərnəşr, - 2002. - 472 s.*

11. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 11: iyul, 1997 - avqust, 1997. Bakı: Azərnəşr, - 2003. - 452 s.*

12. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 12: avqust, 1997 - oktyabr, 1997. Bakı: Azərnəşr,- 2004. - 432 s.*

13. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 13: oktyabr, 1997 - dekabr,1997. Bakı: "Azərnəşr", 2004, 520 s.*

14. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 14: dekabr 1997 - fevral 1998. Bakı: "Azərnəşr", 2005, 520 s.*

15. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 15: mart, 1998 - iyun, 1998. Bakı: Azərnəşr, -2005. - 528 s.*

16. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 16: iyun, 1998 - iyul, 1998. Bakı: Azərnəşr, - 2005. - 552 s.*

17. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 17: iyul, 1998 - oktyabr, 1998. Bakı: Azərnəşr, - 2006. - 258 s.*

18. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 18: oktyabr, 1998 -dekabr, 1998. Bakı: Azərnəşr, -2006. - 552 s.*

19. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 19: yanvar, 1999 - aprel, 1999. Bakı: Azərnəşr, - 2006. - 528 s.*

20. *Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 20: aprel, 1999 - iyul, 1999. Bakı: Azərnəşr, - 2007. - 536 s.*

Sevda Feyruz gizi Guliyeva
Baku State University
PhD in philology
E-mail: sevda.bdu @gmail.com
https://orcid.org/0000-0003-1161-6110

PUBLİCATİON AND SOCİO-POLİTİCAL SİGNİFİCANCE OF THE ANTHOLOGY OF HAYDER ALİYEV'S WORKS "OUR İNDEPENDENCE FOREVER"

Annotation: *The national leader Heydar Aliyev's bright personality and wise state policy, skillful management experience, rich political heritage and the tradition of policy succession passed on to future generations are relevant topics for political science research not only in our country, but also in near and far foreign countries. İn this article, a comprehensive analysis of the multivolume "Heydar Aliyev-Our independence is forever" is given.*

Keywords: *national leader, Azerbaijan State Publishing House, book publication, multivolume work.*

Севда Фейруз кызы Кулиева
Бакинский Государственный Университет
доктор философии по филологии

ИЗДАНИЕ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКОЕ ЗНАЧЕНИЕ АНТОЛОГИИ ПРОИЗВЕДЕНИЙ ГАЙДЕРА АЛИЕВА «НАША НЕЗАВИСИМОСТЬ НАВСЕГДА»

Резюме: *Яркая личность общенациональный лидер Гейдара Алиева и мудрая государственная политика, умелый управленческий опыт, богатое политическое наследие и традиции преемственности политики, передаваемые будущим поколениям, являются актуальными темами для политологических исследований не только в нашей стране, но и в ближнем и дальнем зарубежье. страны. В этой статье дается всесторонний анализ многотомника «Гейдар Алиев - Наша независимость вечна».*

Ключевые слова: *общенациональный лидер, Азербайджанское Государственное издательство, издание книги, многотомник.*



KİTABXANA İŞİNİN TARİXİ
HISTORY OF LIBRARIANSHIP
ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА

==========

UOT/UDC/УДК 02

Elçin Yusif oğlu Əhmədov
Bakı Dövlət Universiteti
Kitabxanaşünaslıq kafedrasının müdiri,
pedoqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: ahmadov.elçin.yusif@bsu.edu.az
https://orcid.org/0000-0001-8485-2152

KİTABXANAŞÜNASLIĞIN FUNKSIONAL MODELİ

Xülasə: *Məqalədə qeyd edilir ki, kitabxanaşünaslığın funksional modeli onun tədqiqat obyektini daxili və xarici təzahürü kimi meydana çıxır. Kitabxanaşünaslığın funksiyalarının tədqiq edilib öyrənilməsi özünə məxsus cəhətlərin ortaya çıxarılması həm dünya kitabxanaşünaslığının, həm də milli kitabxanaşünaslığın nəzəri əsaslarının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.*

Açar sözlər: *funksiya, kitabxanaşünaslıq, model, tədqiqat, milli, dünya.*

Müasir dünya kitabxanaşünaslığının inkişaf tendensiyası struktur və funksional modellərin formalaşması və vahid konseptual meyillərin nəticəsində baş verir. Azərbaycan Milli kitabxanaşünaslığının elmi nəzəri məsələlərinin formalaşmasında da dünya kitabxanaşünaslığının nəzəri konseptual modelləri əsas rol oynayır. Azərbaycan Milli kitabxanaşünaslıq elminin banisi Abuzər Xələfovun Amerika kitabxanaşünası Ceys Xoyk Şiranın Rus kitabxanaşünası Yuri Stolyarovun kitabxanaşünaslığın nəzəri məsələlərinin həll edilməsi sahəsindəki əlaqəli fəaliyyətləri dünya kitabxanaşünslığının vahid konseptual funksional modelinə əsaslanır.

Məlumdur ki kitabxanaşünaslıq-elmdir biliklər sistemidir idrak prosesidir sosial instutdur. Kitabxana işi isə təcrübədir əməyin ictimai bölgü sahəsidir. Həmçinin cəmiyyətin informasiya təminatı sisteminin sahələrindən biridir. Bunlar bir-birindən fərqli anlayışlar olsalar da aralarında sıx əlaqə mövcuddur. Kitabxanaşünaslıq kitabxana işini öyrənir və əldə etdiyi elmi nəticələri kitabxana işinə tətbiq edir. Onun daha da inkişafı və təkmilləşməsi üçün

şərait yaradır. Bunların arasında baş verən qarşılıqlı zənginləşmə prosesi zəncirvari davam etdiyindən daim ciddi elmi nəticələr əldə edilir.

Beləliklə, kitabxanaşünaslıq və kitabxana işinin funksiyaları bir-birindən köklü sürətdə fərqlənir və müxtəlif mahiyyət daşıyırlar. Başqa elmlərdə olduğu kimi kitabxanaşünaslıqda da iki tip funksiya vardır:

1.Xüsusi elmi funksiya;

2.Sosial funksiya.

Kitabxanaşünaslığın xüsusi elmi funksiyaları içərisində idrak funksiyası önəmli yer tutur. İdrak nəzəriyyəsi idrakın mənşəyi və mahiyyəti, biliyin strukturu və inkişaf qanunlarının əsası və meyarı, idrakın pillələri və əsas formaları, elmi tədqiqatın prinsipləri, metod və üsulları haqqında bütöv bir fəlsəfi təlimdir. Əgər kitabxanaşünaslıq idrak funksiyasına malik olmasaydı, öz tədqiqatlarında idrak funksiyasına əsaslanmasaydı elm və tədris fənni kimi formalaşa bilməzdi. Bütün başqa sahələrdə olduğu kimi kitabxana işində də insan fəaliyyətinin elə problemləri mövcuddur ki onları nəzəri cəhətdən həll etmədən, nəzəri ümumiləşdirmələr aparmadan həll etmək mümkün deyildir. Məsələn, cəmiyyət və kitabxana cəmiyyət və mütaliə cəmiyyət üzvlərinin informasiya təminatı və s.

Məhz kitabxanaşünaslığın idrak funksiyası bu böyük problemlərin həllində kitabxanaşünasları nəzəriyyələr, qanunlar, prinsiplər, elmi biliklərlə silahlandırır, kitabxana fəaliyyətini səmərəli elmi cəhətdən əsaslandırılmış müddəalarla təmin edir. İdrak funksiyası müstəqil əhəmiyyətə malik olsa da nəticə etibarilə kitabxana praktikası ilə sıx əlaqədə təzahür edir. Buna görə də o, ikili istiqamətə malikdir. Birinci və əsas istiqamət kitabxana işi problemlərini həll etmək üçün onu öyrənmək, dərk etmək, tədqiq etməkdir. O, eyni zamanda başqa obyekti - kitabxanaşünaslığı da tədqiq edib öyrənir. Birinci halda kitabxana işinin öyrənilməsi ümumiləşdirirlməsi prosesində elmi nəticələr edilir. İkinci halda isə kitabxanaşünaslığın elmi fənn kimi özünütəhlil, özünümüşahidə, özünüdərketmə əsasında daxili və xarici tədqiqat prosesi gedir. Hər iki istiqamət kitabxana işinin məqsədinin səmərəli yerinə yetirilməsi prosesində birləşir və bilavasitə kitabxana işi problemlərinin müvəffəqiyyətli həllinə xidmət edir.

İdrak funksiyası - kitabxanaşünaslığın universal, baş funksiyasıdır və bunun əsasında kitabxanaşünaslığın digər ikinci dərəcəli funksiyaları da meydana gəlir. Bunlara izahetmə, öncə görmə (proqnozvermə) və sistemləşdirmə funksiyaları daxildir. Kitabxanaşünaslıqda izahetmə funksiyası mühüm elmi və praktik əhımiyyət kəsb etməklə yanaşı, elmi tədqiqatın, öyrənilən obyektin mahiyyətini aşkara çıxarmaqla yaxından iştirak edir. İzah təs-

virlə sıx bağlı olduğundan bir qayda olaraq təsvirə əsaslanır və öz növbəsində elmi öncə görmə üçün zəmin hazırlayır.

Beləliklə, kitabxana işi hadisələrinin idrak mahiyyəti kitabxanaşünaslığa özü haqqında ancaq yeni biliklər gətirməklə kifayətlənmir, eyni zamanda hadisənin mahiyyətinin nədən ibarət olduğunu izah edir.

Bütün digər rejmlərdə olduğu kimi, bu funksiya kitabxanaşünaslıqda da mühüm əhəmiyyət kəsb etməklə yanaşı, onun digər funksiyaları ilə qarşılıqlı fəaliyyət göstərir, öz araşdırmalarında onların nəticələrindən istifadə edir. Elmi öncəgörmə hər hansı bir hadisənin perspektivlərinin xüsusi tədqiqi nəticəsində kitabxanaşünaslıq hadisələrinin mahiyyətini açır, hadisələr arasındakı əlaqələrin inkişafı perspektivlərini müəyyənləşdirir və onu cəmiyyətin inkişaf istiqamətinə yönəldir. Bu mühüm yaradıcı prosesdə hər hansı bir hadisənin gələcək inkişafı və vəziyyəti haqqında proqnoz vermək imkanı əldə edilir. Əlbəttə, belə tədqiqatlar keçmişin və müasirliyin qarşılıqlı öyrənilməsinə diqqət yetirməklə gələcək haqqında fikir söyləmək imkanı verir. Məhz müasir dünya kitabxanaşünaslığı özünün öncəgörmə funksiyasına istinad edərək bir sıra qiymətli proqnozlar verməyə, kitabxana işinin və kitabxanaşünaslığın inkişaf istiqamətini müəyyənləşdirməyə, kitabxana işinin yaşamağa qadir ənənələrini qoruyub saxlamaqla yeni iş forma və metodlarının yaranmasına, yeni prinsiplərin meydana çıxmasına nail olmuşdur. Artıq müasir dünya kitabxanaşünaslığında proqnozlaşdırma mühüm elmi tədqiqat metodlarından biri kimi formalaşmış, kitabxanaşünaslıq tədqiqatlarında geniş tətbiq edilməyə başlamışdır.

Kitabxanaşünaslığın funksiyalarından biri də sistemləşdirmədir. Başqa elmlərlə müqayisədə sistemləşdirmə kitabxanaşünaslıqda daha geniş tətbiq olunmaqla böyük elmi-metodik əhəmiyyət kəsb edir. Heç bir elm kitabxanaşünaslığa qədər informasiyanı, xüsusilə nəşr formasında informasiyanı təsnifləşdirməmişdir. Kitabxanaşünaslıq informasiyanın təsnifləşdirilməsinə, sistemləşdirilməsinə, qaydaya salınmasına və verilməsinə xüsusi diqqət yetirən və əhəmiyyətli tədqiqatlar aparan ən qədim elmlərdən biridir. Kitabxanaşünaslıq tarixən təsnifləşdirmə problemi ilə qarşılaşan bir elm sahəsi kimi bu sahənin öyrənilməsinə, kitabxana təsnifatlarının yaradılmasına böyük diqqət yetirmişdir.

M.Düi tərəfindən 1876-cı ildə Onluq təsnifatın yaradılması və bu təsnifatın dünya kitabxanaları və informasiya müəssisələri üçün ən ciddi elmi nəşr kimi qəbul edilməsi kitabxanaşünaslığın nailiyyətlərindəndir. Hindistanın görkəmli kitabxanaşünası Ranqanatanın XX əsrdə faset təsnifatını yaratması kitabxana və informasiya işində ciddi elmi nailiyyət kimi qeydə alınmışdır. Həmçinin kitabxana təsnifatlarının yaranması elmlər təsnifatı kimi

dünya elmlərinin yaranmasında, elmi biliklərin strukturunun müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, sistemləşdirmə kitabxana işinin sahələrində tətbiq edilir. Kitabxana işinin elə bir sahəsi yoxdur ki, orada sistemləşmədən söz getməsin. Kitabxana işində sistemləşmə ilə bağlı olan bəzi istilalara diqqət yetirək. Məsələn, kitabxana sistemləri, ədəbiyyatın sistemləşdirilməsi, kitabxanaların təsnifi, sistemli mütaliə, xidmət sistemi, kitabxana işi prosesləri sistemi, metodik xidmət sistemi, oxucu mütaliəsinin istiqamətləndirilməsi sistemi və s. Məhz buna görədir ki, sistemləşdirmə funksiya kimi kitabxanaşünaslıq tədqiqatlarında aparıcı yerlərdən birini tutur.

Beləliklə, kitabxanaşünaslığın funksional modelində sistemləşdirmə prosesi də mahiyyət kəsb edir. Fəaliyyət prosesində sistemləşdirmə daim həyata keçirilir, abstraktlaşdırma kateqoriyasına uyğun olaraq öz profilini tənzimləyir və funksional modelin formalaşmasında zəmin yaradır.

ƏDƏBİYYAT

1. Əhmədov E.Y. Dövlətin kitabxana siyasəti //Respublika.-2002. 10 mart, №52(7234).

2. Xələfov A.A XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri.- Bakı,2006. -106s.

3. Xələfov A.A Kitabxanaşünaslığın tarixi və metodologiyası.-Bakı, 2014. -551s.

Elchin Yusif oglu Ahmadov
Baku State University
head of the library and science department,
Ph.D in pedagogy sciences, associate professor
E-mail: ahmadov.elçin.yusif@bsu.edu.az
https://orcid.org/0000-0001-8485-2152

FUNCTİONAL MODEL OF LİBRARY SCİENCE

Annotation: *The article notes that the functional model of librarianship emerges as an internal and external manifestation of its research object. Researching and studying the functions of librarianship, revealing its own aspects is important in studying the theoretical foundations of both world librarianship and national librarianship.*

Keywords: *function, librarianship, model, research, national, world.*

Эльчин Юсиф оглы Ахмедов
Бакинский государственный университет
заведующая отделом библиотеки и науки,
кандидат педагогических наук, доцент

ФУНКЦИОНАЛЬНАЯ МОДЕЛЬ БИБЛИОТЕЧНОГО ДЕЛА

Резюме: *В статье отмечается, что функциональная модель библиотечного дела возникает как внутреннее и внешнее проявление своего объекта исследования. Исследование и изучение функций библиотечного дела, выявление его собственных аспектов имеет большое значение в изучении теоретических основ как мирового, так и отечественного библиотечного дела.*

Ключевые слова: *функция, библиотечное дело, модель, исследование, национальное, мировое.*



KİTABXANA İŞİNİN TARİXİ
HISTORY OF LIBRARIANSHIP
ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА
==========

UOT/UDC/УДК 02

Azadə Əsəd qızı Orucova
Əqli Mülkiyyət Agentliyinin
tabeliyində olan Respublika Elmi-
Texniki Kitabxanasının əməkdaşı
E-mail:aorucova50@gmail.com
https://orcid.org/0009-0008-2877-5103

AZƏRBAYCANDA KİTABXANA İŞİNİN İNKIŞAFINA HEYDƏR ƏLİYEV QAYĞISI

Xülasə: *Məqalədə Azərbaycanda kitabxana işinin inkişafında dahi şəxsiyyət Heydər Əliyevin 1969-1982-ci illərdə elmin və mədəniyyətin yüksələn xətlə inkişafında əvəz olunmaz xidmətərindən və kitabxanaların bu günkü hərtərəfli inkişafından bəhs edilmişdir.*

Açar sözlər: *Dövlət, kitabxana, qanun, cəmiyyət, sərgilər, tədbirlər.*

Mədəniyyətimizin inkişafında Heydər Əliyev mərhələsi XX əsrin 70-ci illərinin əvvəllərindən başlamış və bu gün də davam etməkdədir. Həmin illərdə geniş mədəniyyət müəssisələri şəbəkəsinin yaranıb formalaşması mədəniyyət sarayları, mədəniyyət evləri, rayon kitabxanaları muzeylər və musiqi məktəbləri üçün çoxlu sayda möhtəşəm binaların tikilməsi ənənəsi də məhz ulu öndərimiz Heydər Əliyevə məxsusdur.

Kitabxana işi tarixən mədəniyyətin inkişafı ilə bağlı olmuş, mədəni quruculuğun tərkib hissəsi kimi inkişaf etmişdir. Heydər Əliyevin bilavasitə rəhbərliyi sayəsində həyata keçirilən mədəni quruculuq tədbirləri içərisində kitabxana işi mühüm yer tutmuş və prioritet əhəmiyyət kəsb edən, cəmiyyətin mədəni həyatına təsir edən bir amilə çevrilmişdir.

Dahi şəxsiyyət Heydər Əliyev bu illər (1969-1982) ərzində Azərbaycanda elmin və mədəniyyətin yüksələn xətlə inkişafında əvəz olunmaz yeniliklərə nail olmuşdur.

70-80-cı illərdə mədəniyyətimizin mühüm sahəsi olan kitabxana işinin yenidən qurulması və inkişafı sahəsində də çox böyük işlər görülmüşdür.

Əhaliyə xidmət etmək üçün böyük elmi, elmi-texniki, xüsusi, təhsil və kütləvi kitabxanalar şəbəkəsi yaranmışdır. Kitabxanaların yenidən qurulması, kitabxana binalarının layihələşdirilməsi məqsədilə bir sıra şəhər və rayon mərkəzlərində eləcə də, Bakı şəhərində kitabxana binaları inşa edilmişdir. Yeni kitabxana binalarının tikilməsi məhz kitabxana şəbəkəsinin sürətli inkişafına səbəb olmuşdur. Belə ki, kitabxanaların inkişafı ilə yanaşı, ölkədə kitabxanaçı kadrların hazırlanması sahəsində də müvafiq təbdirlər həyata keçirilmişdir. Həmin dövrdə kitabxana şəbəkəsinin inkişaf etdirilməsi üçün onların maddi-texniki bazasının yaradılması əsasında görülən işlər kitabxana quruculuğu sahəsində böyük sıçrayışa səbəb olmuşdur.

Pərakəndə fəaliyyət göstərən və həm də dağılmaq üzrə olan kitabxanalar Ulu öndərin rəhbərliyi dövründə 1974-cü ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərarına əsasən mərkəzləşdirilmiş kitabxana sistemləri yenidən canlanmış və vətəndaşlarımızın elmi-texniki hazırlığında əhəmiyyətli rol oynamışdır.

O dövrdə, həyata keçirilən mərkəzləşmə siyasəti kitabxanaların inkişafına önəmli təkan vermişdir. Məhz o zaman yaradılmış kitabxana sistemləri bu gün mövcud olan ayrı-ayrı nazirlik, təşkilat və şəhər kitabxanalarının əsasını qoymuşdur.

Ulu öndərimizin kitabxanaların sonrakı inkişafında da xüsusi rolu olmuşdur. Sovetlər İttifaqının dağılması və MDB məkanlarında başlayan qarışıq siyasi vəziyyət, hər sahədə olduğu kimi kitabxanaları da məhvə aparırdı. Bu dövrdə Ulu öndərin yenidən Respublikamıza rəhbərliyə gəlməsi bütün iqtisadiyyatı, o cümlədən elm, mədəniyyət ocaqları kimi kitabxana şəbəkələrini də xilas etdi.

Ulu öndər 1995-ci ildə respublikada kitabxana işinin inkişafını ətraflı şəkildə təhlil etməyi Nazirlər Kabinetinə tapşırdı. 1996-cı ildə Nazirlər Kabinetində keçirilən kitabxana işçilərinin Respublika müşavirəsində kitabxana işinin inkişaf istiqamətləri müəyyən olundu.

Azərbaycan Respublikasının 1998-ci ildə qəbul etdiyi "Kitabxana işi haqqında" Qanun ölkəmizdə kitabxana işinin inkişafının yeni səviyyəyə qaldırılmasının dönüş mərhələsində böyük rol oynamışdır. Bu qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətinin əsasıdır.

Kitabxanaların inkişafına dövlət qayğısı Azərbaycan kitabxanaçılıq tarixində böyük dönüş yaratdı.Kitabxanaçılığın inkişafı sonrakı illərdə də yüksələn xətt üzrə inkişaf etmişdir.

Respublika Elmi-Texniki Kitabxanası kitabxanalara dövlət qayğısından bəhrələnərək ölkəmizdə elm və texnika sahəsində fəaliyyət göstərdiyi illər

ərzində çoxminli alimlər ordusunun yetişməsində öz töhfələrini vermişdir. Bu işdə müasir inkişaf tendensiyaları və onların tətbiqi sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Digər respublika əhəmiyyətli kitabxanalar kimi Respublika Elmi-Texniki Kitabxanası da istifadəçilərə informasiya xidmətini təkmilləşdirilmiş forma və üsullardan istifadə etməklə həyata keçirir.

Kitabxanada Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi İRBİS 64+(AKİS) proqramında tətbiq edilir. Proqram təminatında 6 (altı) verilənlər bazası yaradılmışdır. Kitabxananın Retro verilənlər bazasına fondda olan ədəbiyyatın çox hissəsi daxil edilmişdir. Bundan əlavə kitabxanaya daxil olan dövri mətbuat materialları da öz növbəsində lokal şəbəkədə oxucuların istifadəsinə verilmişdir.

Əsasən neftə dair ədəbiyyat fonduna malik olan kitabxananın Proqram təminatında "Nadir Kitablar" adlı yeni verilənlər bazası yaradılıb ki, bu bazada 1860-cı illərdə nəşr olunmuş kitablar da vardır. Kitabxanada dövlət siyasətini, elm və texnikanın yeni naliyyətlərini əks etdirən e-resursların və portalların yaradılması işi davam etdirilir.

Ulu öndərin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir" fikri bu gün də kitabxana işçilərinin fəaliyyətinə verilən və aktuallığını itirməyən bir qiymət kimi dəyərləndirilir.

Bəllidir ki, hər bir xalqın qarşısında qərinələr boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərini, milli məfkurəsini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya durur.

Azərbaycanda bu məsuliyyətli missiyanı məhz ulu öndər Heydər Əliyev həyata keçirmiş, xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşatmış, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimin qoruyaraq, onun əbədiyaşarlığını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan olunması ilə əlaqədar olaraq Azərbaycan Respublikası Əqli-Mülkiyyət Agentliyi tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında xüsusi tədbirlər planı hazırlanmışdır. Sənəddə silsilə tədbirlər və layihələrin həyata keçirilməsi ilə yanaşı ulu öndərin yüz (100) illik yubleyi münasibətilə onun əsərlərinin və haqqında yazılan kitabların tammətinli e-bazasının yaradılması da nəzərdə tutulmuşdur.

Respublika Elmi-Texniki Kitabxanasında mütəmadi olaraq dövlət bay-

ramlarına, əlamətdar günlərə, elm və texnikanın müxtəlif sahələrinə həsr olunmuş maraqlı tədbirlər keçirilir. Buna misal olaraq 2022-ci ilin aprelində 23 və 26 aprel Ümumdünya müəllif Hüquqları və Ümumdünya Əqli Mülkiyyət günü ilə əlaqədar təşkil edilmiş "Kitab, müəllif və Əqli Mülkiyyət" adlı tədbiri göstərmək olar. Tədbirdı mövzunu əhatə edən videotəqdimat nümayiş etdirilmişdir.

2022-ci ilin İyun ayının 14-də "Milli Qurtuluş" gününə həsr edilmiş "Heydər Əliyev müasir müstəqil Azərbaycanın banisidir" mövzusunda tədbir sərgi hazırlanmışdır.

16 sentyabr "Beynəlxalq Ozon təbəqəsinin qorunması günü" ilə əlaqədar, ümumlikdə ekologiya və Qarabağda erməni vandalizminin törətdiyi ekosidin bərpa olunmasına, Qarabağın dirçəlişinə həsr edilən " Welcome to Karabakh adlı tədbirin xüsusilə vurğulamaq lazımdır.

Belə ki, tədbir 13 qurumdan 15 nəfər qonaq iştirak etmişdir, "Ekologiya mövzusunda müasir kitablardan və kitabxananın "Qızıl fondu" na daxil olan nadir ədəbiyyatdan ibarət iki sərgi təşkil edilmişdir. Olduqca maraqlı videoçarx nümayiş etdirmişdir.

Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyində Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin və tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının əməkdaşları ilə birlikdə "Aerokosmik informatika, ekoloji monitorinq və Yerin kosmosdan tətbiqi" mövzusunda konfrans dəyirmi masa keçirilmişdir. MAKA və RETK-nın təşəbbüsü əsasında "Ekologiya və Aerokosmik" mövzusunda sərgi təşkil edilmişdir.

27 sentyabr Azərbaycan ərazi bütövlüyü uğrunda mübarizədə həlak olan qəhrəman şəhidlərimizin "Anım günü" keçirilmişdir. Tədbirdə Ali Baş komandan İlham Əliyev və rəşadətli Azərbaycan ordusu haqqında çıxışlar edilmiş, qəhrəman döyüşçülərə həsr olunmuş videomateriallar göstərilmişdir.

İlk azərbaycanlı kimyaçı alim Şıxbala Əliyev haqqında sərgi təşkil edildi.

8 noyabr Zəfər bayramı təntənəli şəkildə qeyd edildi. Tədbirdə ailə üzvləri və yaxınları döyüş iştirakçıları olan RETK əməkdaşları çıxış etdilər və şanlı qələbəmizə həsr olunmuş videomaterial təqdim olundu.

Bakı Ekspo mərkəzdə keçirilən VIII Bakı Beynəlxalq Kitab sərgisində kitabxanamızın "Nadir Kitablar" daxil olan ədəbiyyat nümayiş olundu. Bu sərgidə RETK haqqında mədəniyyət qəzetində "kitabın 140 yaşı" adlı geniş məqalə nəşr edildi. ARB və İTV televiziya kanalları haqqımızda maraqlı sujetlər hazırladı.

12 dekabr Ulu öndər Heydər Əliyevin anım günü keçirildi. Tədbirdə Umummilli liderin həyat və fəaliyyətindən danışıldı, onun dünya siyasi arenasında tutduğu mövqeyindən söhbət açıldı.

RETK-nın gənc əməkdaşları və könüllü gənclərdən ibarət Kitabxananın İnkişafı naminə (KİNQ) qrupu yaradılmışdır.

Görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin doğum günü ilə əlaqədar kimya sərgisi təşkil edilmişdir.

31 dekabr "Dünya Azərbaycanlılarının həmrəyliyi günü" münasibəti ilə "Əbədi həmrəylik" adlı tədbir keçirildi. Tədbirdə dəvət olunmuş 8 qurumdan 12 nəfər qonaq iştirak etmişdir. Tədbirdən əvvəl "Heydər Əliyev" guşəsinin təntənəli açılışı təşkil edilmişdir.

Bundan başqa RETK-da "20 yanvar" faciəsi və "Xocalı soyqırımına" həsr edilmiş tədbirlər keçirildi və hər bir mövzu ilə bağlı videotəqdimatlar göstərildi.

2 fevral- Gənclər günü ilə əlaqədar "Uğurlu Gənclik uğurlu gələcək" adlı konfrans keçirilmişdir. Burada 9 qurumdan 13 qonaq dəvət olunmuşdular. Tədbirdə Ümumilli Lider Heydər Əliyevin gənclərə olan diqqət və qayğısı və ölkə başçısı İlham Əliyevin bu yolu layiqincə davam etdirilməsindən danışıldı.

21 fevral Beynəlxalq ana dili Gününə həsr edilmiş "Dilimiz qürur mənbəyimizdir" adlı tədbir keçirildi.

Azərbaycan Respublika Elmi-Texniki Kitabxanasında 2023-cü ilin Yanvar ayında Ulu öndərə həsr olunmuş tədbirdə alimlər, elm adamları, ölkənin kitabxanalarından mütəxəsislər iştirak etmişdir.

Millətimizin fəxri, türk dünyasının böyük oğlu Heydər Əliyevin 100 illik yubleyinin təntənə ilə qeyd olunması xalq və rəhbər birliyinə, dahi vətən oğlunun həmişəyaşar əməllərinə, Azərbaycanın şərəfli dünəninə, bugünkü qaynar,işgüzar həyatına və daha parlaq gələcəyinə ehtiram nümunəsidir.

2023-cü il Heydər Əliyev ili olduğuna görə Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası tərəfindən təşkil ediləcək silsilə tədbirlər planının yüksək səviyyədə həyata keçirilməsi məqsədilə Kitabxananın hər bir əməkdaşının üzərinə böyük məsuliyyət və peşəkarlıq payı düşməlidir.

Bəllidir ki, hər bir xalqın qarşısında qərinələr boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərini, milli məfkurəsini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya durur.

Azərbaycanda bu məsuliyyətli missiyanı məhz Ulu öndər Heydər Əli-

yev həyata keçirmiş, xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşatmış, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimin qoruyaraq, onun əbədiyaşarlığını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili " elan olunması ilə əlaqədar olaraq Azərbaycan Respublikası Əqli-Mülkiyyət Agentliyi tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında xüsusi tədbirlər planı hazırlanmışdır. Sənəddə silsilə tədbirlər və layihələrin həyata Keçirilməsi ilə yanaşı Ulu öndərin yüz (100) illik yubleyi münasibətilə onun əsərlərinin və haqqında yazılan kitabların tammətinli e-bazasının yaradılması da nəzərdə tutulmuşdur.

Azərbaycan Respublika Elmi-Texniki Kitabxanasında 2023-cü ilin Yanvar ayında Ulu öndərə həsr olunmuş tədbirdə alimlər, elm adamları, ölkənin kitabxanalarından mütəxəsislər iştirak etmişdir.

Millətimizin fəxri, türk dünyasının böyük oğlu Heydər Əliyevin 100 illik yubleyinin təntənə ilə qeyd olunması xalq və rəhbər birliyinə, dahi vətən oğlunun həmişəyaşar əməllərinə, Azərbaycanın şərəfli dünəninə, bugünkü qaynar,işgüzar həyatına və daha parlaq gələcəyinə ehtiram nümunəsidir.

2023-cü il Heydər Əliyev ili olduğuna görə Əqli Mülliyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası tərəfindən hazırlanmış tədbirlər planı əsasında bu və ya digər tədbirlərin yüksək səviyyədə həyata keçirilməsi böyük məsuliyyət tələb edir və hər bir işçinin vəzifə borcudur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - 29 sentyabr 2022-ci il : [Elektron resurs]. - https://president.az › view

2. A.A.Xələfov. Respublika Elmi-Texniki Kitabxanası (1930-2000): Kitabxananın 70 illiyinə həsr edilmiş qısa oçerk. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2001. – 37s.

3. Respublika Elmi-Texniki Kitabxanası. – Bakı, 2000.

4. Respublika Elmi-Texniki Kitabxanasının 2022-2023-cü illər(yanvar - fevral) üzrə hesabatları.

5. Xalq qəzeti. - 2010. - 7 may.

Azade Asad gizi Orujeva
Employee of the Republican Scientific and Technical Library under the Intellectual Property Agency of the Republic of Azerbaijan
E-mail:aorucova50@gmail.com
https://orcid.org/0009-0008-2877-5103

HEYDAR ALİYEV'S CARE FOR THE DEVELOPMENT OF LİBRARY BUSİNESS İN AZERBAİJAN

Annotation: *In the article, in the development of library work in Azerbaijan, the irreplaceable services of Heydar Aliyev, a genius in the progressive development of science and culture in Azerbaijan in 1969-1982, and the comprehensive development of libraries today have been discussed.*

Keywords: *state, library, law, society, exhibitions, events.*

Азаде Асад кызы Оруджева
Сотрудник Республиканской научно-технической библиотеки при Агентстве по Интеллектуальной Собственности Азербайджанской Республики

ЗАБОТА ГЕЙДАР АЛИЕВА О РАЗВИТИИ БИБЛИОТЕЧНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ

Резюме: *В статье показаны незаменимые заслуги гениальной личности Гейдара Алиева в развитии библиотечного дела в Азербайджане в 1969-1982 годах, в поступательном развитии науки и культуры в Азербайджане и всестороннем развитии библиотек в наши дни.*

Ключевые слова: *государство, библиотека, право, общество, выставки, мероприятия.*



KİTABXANA İŞİNİN TARİXİ
HISTORY OF LIBRARIANSHIP
ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА
==========

UOT/UDC/УДК 023

Orxan Fəxrəddin oğlu Ağamirzəyev
Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu, tarix üzrə fəlsəfə doktoru
E-mail: orkhan767@mail.ru
https://orcid.org/0009-0008-3128-2764

KİTABXANALARDA İNNOVASİYA PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

Xülasə: *Məqalədə innovasiya prosesinin xüsusiyyətləri, idarə olunmasında kadr məsələlərinə toxunulmuş, innovasiya proseslərinə təsir edən amillər araşdırılmış, həmin proseslərin təkmilləşdirilməsi üzrə tövsiyələr verilmişdir. Eyni zamanda İKT-nın informasiya emalında rolu, kitabxanalarda tətbiqinin üstünlükləri, dünya səviyyəsilə uyğunlaşması üçün hazırlanmış layihələr haqqında məsələlərdən bəhs edilmişdir.*

Açar sözlər: *innovasiya, kitabxana, menecment, innovasiya prosesi, idarəetmə, kadr, sənəd resursları, innovativ texnologiyalar.*

XX əsrin son onilliklərindən hal-hazıradək insan cəmiyyətində çox sürətli dəyişikliklər getmişdir. Bütün bu dəyişikliklər əsaslı innovasiya ilə əlaqədardır. Mədəniyyətin bir qolu kimi kitabxanaçılığın da iqtisadi və sosial inkişafının mühüm mənbələrindən biri innovasiyadır. Müasir şəraitdə fəaliyyət göstərən hər bir təşkilat kimi kitabxana da öz fəaliyyətini yeniləmək və təkmilləşdirmək üçün innovasiyalardan fəal istifadə etməyə çalışır. İnnovativ proseslər kifayət qədər mürəkkəb və çoxşaxəli idarəetmə obyektidir ki, effektiv inkişaf üçün idarəetmə təsirinin xüsusi forma və üsullarından istifadə etməyi tələb edir. Ona görə də müasir şəraitdə innovasiyaların idarə edilməsi, istehlakçıya təqdim edilməsi və peşəkar mühitin idarə edilməsi mexanizmi böyük əhəmiyyət kəsb edir[6].

Hazırda kitabxana-informasiya fəaliyyəti texnoloji yeniliklərin yaratdığı dəyişikliklərə məruz qalır. Sosial innovasiyaların idarə olunması informasi-

ya-kommunikasiya texnologiyaları və virtual ünsiyyət yolları əldə etmək ehtiyaclarını ödəmək üçün yeni imkanlar açır.

Kitabxanalar bu gün digər qabaqcıl təşkilat və müəssisələrlə ayaqlaşmağa çalışır və fəal şəkildə yeni texnologiyalar tətbiq edərək innovativ fəallıqlarını artırmağa çalışırlar.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi

İnformasiya bəşəriyyətin bütün tarixi inkişaf mərhələlərində, xüsusilə XXI əsrdə elmi-texniki və sosial tərəqqinin mühüm vasitələrindən biri olmuş, hazırda isə cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar olaraq aparıcı qüvvəyə çevrilmişdir. Müasir texnologiyalar vasitəsi ilə qlobal informasiya mühiti formalaşmışdır. Kitabxanalar da öz fəaliyyətini cəmiyyətdə baş verən informasiya - kommunikasiya sahəsində gedən dinamik dəyişiklikləri nəzərə almaqla qurur. İndi kitabxanaçılıq fəaliyyəti cəmiyyətdə getdikcə genişlənən və dərinləşən informasiya prosesləri ilə əlaqədar daha mürəkkəb şəkil almış, daha çətin vəzifələri yerinə yetirməyə başlamışdır.

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) və onların proqram-texniki təminatı əsaslı şəkildə kitabxanaların innovativ inkişafının əsası kimi tanınır və nəticədə kitabxananın yaratdığı məhsulların və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Kitabxana fəaliyyətində innovasiyalar, innovasiyaların tətbiqi və onların idarə olunması məsələsi təəssüf ki, hələ də qənaətbəxş həllini tapmayıb, lakin böhrandan çıxmaq üçün kitabxanalar innovativ effektiv idarəetmənin təşkilati mexanizmini tətbiq edə bilər, bu da öz növbəsində kitabxana fəaliyyətinə çevrilə bilər[6].

Yeni informarsiya texnologiyalarına keçid bir sıra vacib və mürəkkəb problemlərin həllini qarşıya qoyur. İnformasiya menecmeti prizmasında bu problemləri 5 qrupa ayırmaq olar:

- ❖ maliyyə problemləri;
- ❖ normativ-hüquqi təminat problemləri;
- ❖ proqram və texniki təminat problemləri;
- ❖ dil təminati problemləri;
- ❖ ixtisasli kadr problemləri.

Bu gün innovasiya məkanında uğur əldə etmək informasiya-kommunikasiya texnologiyaları ilə ayaqlaşmaq və ondan kitabxananın innovativ potensialının inkişaf etdirilməsində istifadə etmək deməkdir. Heç kimə sirr deyil ki, kitabxanaların innovativ fəaliyyətinə yalnız İKT-nin gəlişi ilə baxılmağa başlandı, çünki bu müxtəlif kitabxanaların tədricən praktikaya tətbiq etdiyi yeniliklərlə birbaşa bağlıdır. Nəticə etibarilə, İKT-dən ən optimal istifadə və innovativ potensialın inkişafı üçün bütün bunlar daimi səriştəli və səmərəli idarə olunmalıdır, əks halda xərclər gözləntiləri doğrultmayacaq,

yeni texnologiyalar isə kənarda qalacaqdır.

İnnovasiya proseslərinin xüsusiyyətləri və idarə olunması

İnnovasiyaların idarə edilməsinin aktuallığı qlobal (sənaye) və yerli (təşkilati) səviyyələrdə texnologiyanın yenidən qurulması, kitabxana fəaliyyətinin təşkili və idarə edilməsi ilə əlaqədardır [5]. Bununla belə, indiki modernləşmə prosesləri çoxsaylı problemlər, ziddiyyətlər və mənfi nəticələrlə müşayiət olunur: onların əksəriyyətinin üstünlük təşkil etməsi köhnəlmiş avadanlıq və texnologiyaların kitabxanalardan axını, nəticədə kitabxana mütəxəssislərinin kifayət qədər iş yükünün olmaması, məhsul və xidmətlərin çeşidi arasında, informasiya ehtiyacları ilə xidmət keyfiyyətinin uyğunsuzluğu və s.-dir. Bu, kitabxananın sosial-kommunikasiya institutu kimi dəyərinin azalmasına və regional informasiya xidməti bazarlarında onun bazar mövqelərinin güzəştə getməsinə səbəb olur.

Mütəxəssislər innovasiyaların idarə edilməsinin vəzifəsini kitabxananın rəqabətqabiliyyətini formalaşdıran innovasiyaların məqsədyönlü axtarışı, dizaynı, hazırlanması və kommersiyalaşdırılması və ya həyata keçirildiyi innovasiya mühitinin formalaşdırılması hesab edirlər[2].

Aydındır ki, kitabxanaların əksəriyyətinin xarici informasiya qurumlarından texnoloji cəhətdən geri qalması, xüsusən də onların aşağı innovativ fəallığı innovasiyalara zəif həssaslığı ilə bağlıdır. Kitabxana fəaliyyətinin həssas yeri innovasiyaların idarə edilməsi mexanizmidir. Yerli kitabxanaların rəhbərləri və mütəxəssisləri kitabxananın inkişafında innovasiyanın rolunu yetərincə tam başa düşmür, innovasiya proseslərinin idarə olunmasının müasir metodlarından istifadə etmirlər. Müasir mərhələdə bazar iqtisadiyyatı strukturlarında innovasiyaların idarə edilməsi mikro və makro səviyyələrdə böhran və durğunluq ziddiyyətlərini və problemləri aradan qaldırmağın bir yolu kimi tələb olunur.

İnnovativ fəaliyyətin inkişafı işçilər üçün əsas ideallar kimi yaradıcılığı və yeniliyi gücləndirən, innovativ fəaliyyətin artması üçün "atmosfer" yaradan xüsusi innovativ mədəniyyətin formalaşmasını tələb edir.

Kitabxananın idarə olunması prosesində çətinliklər

İnnovasiyaların idarə edilməsinin ən çətin prosesi planlaşdırma prosesidir, çünki innovasiyalar tətbiq prosesində yüksək dərəcədə qeyri-müəyyənlik və risklilik ilə xarakterizə olunur. Planlaşdırma mərhələsində innovasiyanın həyata keçirilməsinin bütün mümkün nəticələrini müəyyən etmək, sosial innovasiyaların idarə edilməsində kitabxananın innovasiya prosesində qarşılaşa biləcəyi bütün çətinlikləri və maneələri qabaqcadan görmək olduqca çətindir.

Dizayna layihələrin yaradılması üçün lazım olan bütün texniki əməliy-

yatlar, o cümlədən problemin təhlili, layihə sənədlərinin hazırlanması və innovasiya prosesinin həyata keçirilməsinin planlaşdırılması daxildir. Kitabxana layihəsinin inkişafı, kitabxana prosesləri və xidmətləri ilə bağlı optimal texnologiya və ya innovasiyaya nail olmaq üçün həllərin tapılması prosesidir.

İnnovativ dizayna innovasiyanın həyata keçirilməsinin müxtəlif variantlarının müqayisəli təhlili və kitabxana təcrübəsində tətbiqi üçün ən həyati əhəmiyyət kəsb edən və kitabxana resursları baxımından optimal olanın seçimi daxildir. Seçilmiş optimal variant dizayn obyektinə çevrilir və layihənin müəllifləri məqsədləri müəyyən edir, yeniliyin həyata keçirilməsi üçün plan hazırlayır, onun həyata keçirilməsindən arzu olunan nəticəni təsvir edir, innovasiya prosesinin təşkilinin xüsusiyyətləri üzərində düşünür və layihənin icraçılarını seçir.

İnnovasiya layihəsi müəyyən bir kitabxana üçün əsasən yeni olan hər hansı bir texnologiya ola bilər. Bu gün kitabxanalarda elektronlaşmanın tətbiqi, virtual sərgilərin yaradılması innovativ layihəyə misal ola bilər. Bu yeniliyin həyata keçirilməsi üçün bir qayda olaraq digər kitabxanaların təcrübəsindən istifadə edilir, müxtəlif avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin (AİS) müqayisəli xarakteristikası verilir, icra planı hazırlanır, məqsəd və vəzifələri, bu yeniliyin gözlənilən nəticələri və üstünlükləri, kadr hazırlığı, yeniliyin tətbiqinə cavabdeh şəxslər müəyyən edilir.

İnnovativ layihələr

İnnovativ layihə sosial-mədəni, iqtisadi, siyasi və digər əhəmiyyət kəsb edən kitabxana təcrübəsinin aktual problemlərinin həllinə yönəldilməlidir. İnnovativ layihələrin problemlərinin siyahısı kitabxananın xarici və daxili mühitinin şəraitindən asılıdır. Onlar sosioloji tədqiqatlar, monitorinqlər, sorğular, müşahidələr, kitabxana sənədlərinin təhlili nəzərə alınmaqla tərtib edilir[3].

İctimai istehsalın hər hansı bir sahəsində olduğu kimi, kitabxananın innovativ fəaliyyətinə effektiv nəzarət sisteminin qurulması üçün aşağıdakılar əsas prinsiplər hesab edilə bilər: aydın planların olması; kitabxana fəaliyyətinin inkişaf prosesini əks etdirən hesabat sisteminin olması; mövcud vəziyyətin planlaşdırılan vəziyyətə uyğun olması, kitabxanaların inkişafı üçün effektiv sistemin mövcudluğu; innovasiyaların həyata keçirilməsindəki maneələrin və mənfi tendensiyaların aradan qaldırılmasına yönəlmiş effektiv cavab sisteminin mövcudluğu.

Kitabxanaların innovativ fəaliyyəti bazar rəqabətinin istiqamətləri və xarakteri ilə müəyyən edilməlidir. Kitabxana rəhbərləri bilməlidirlər ki, innovasiyalara diqqətin olmaması onların davamlı mövcudluğunun perspektivlərini şübhə altına alır.

Kitabxanaların əsas fəaliyyət istiqamətləri

Kitabxanaların əsas fəaliyyət istiqamətlərindən biri işlərinin sistemli qurulması, oxucular arasında qarşılıqlı maraqlı əməkdaşlıqdır. Kitabxananın uğurlu və tələbatlı olması üçün "Şəbəkə nəsli"nin tələblərini nəzərə almaq və onların real ehtiyaclarının ödənilməsidir.

Qeyd etməliyik ki, tarix boyu kitabxanalar cəmiyyətin informasiya resurslarını toplayan, sistemləşdirib mühafizə edən, məsafəyə və zamana ötürən ən mötəbər informasiya xidməti müəssisələri olmuşdur. Hazırda kitabxanalar xalqın və dövlətin elmi, mədəni-mənəvi inkişafının çox mühüm atributu kimi yeni inkişaf mərhələsinə qədəm qoymaqla, cəmiyyətin informasiyalaşdırılmasının ən mühüm vasitələrindən biri kimi getdikcə mürəkkəbləşən, müasir texnika və texnologiyaya əsaslanan fəaliyyət növünə çevrilməkdədir.

Məhz buna görə də bu gün kitabxananın sosial institut kimi fəaliyyət göstərməsində kadrların peşəkar yüksəlişi ən mühüm məsələdir. Müasir kitabxanaçı öz işində özünü daha dolğun şəkildə dərk etmək üçün daim bir mütəxəssis kimi yetişməli, biliklərini genişləndirməli, yeni texnologiyalara yiyələnməlidir.

Müntəzəm olaraq aparılan sorğular kitabxanaların müəyyən sahələrdə metodik yardıma ehtiyacları olduğunu müəyyən etməyə imkan verir. Bu əsasən ümumi xarakterli məsələlərdir. Bəzi kitabxanalarda narahatlıq doğuran əsas məsələlər bunlardır:

- fondlarin yeni təhsil standartının tələblərinə, oxucularıln tələbatına cavab verməməsi;
- internet resurslarilna girişin əksər kitabxanalarda mövcud olmaması;
- maddi-texniki bazalarının zəifliyi;
- oxucular üçün rahat və estetik cəhətdən cəlbedici zalların olmaması;
- kitabxanalara sosial dəstəklərin olmaması;
- kadrlarin qeyri-profilli olması [4].

Nəzərə alsaq ki, yeni dövrün kitabxanaçısı öz peşəsi ilə əlaqəli bilik və fəaliyyət sahələrinə - pedaqogika, psixologiya, sosiologiya, hüquq, mədəniyyətşünaslıq kimi elm sahələrinə malik mütəxəssis olmalıdır. Lakin real vəziyyətdə kitabxanaçıların tələbləri və peşəkar səriştələri arasında uçurum var və bu getdikcə artır.

Müasir kitabxanaçı öz işində özünü daha dolğun şəkildə dərk etmək üçün daim bir mütəxəssis kimi yetişməli, biliklərini genişləndirməlidir. Müasir dövrdə həyata keçirilən kitabxanaçılıq fəaliyyətində də menecmentə olan tələbat obyektiv olaraq getdikcə artmaqdadır. Bu ilk növbədə kitabxana-informasiya proseslərinin son dərəcədə mürəkkəbləşməsi, yeni texnologiya ilə zənginləşməsi ilə əlaqədardır.

Bir çox yeni son texnologiyaların tətbiqi heç də kitabxanaların vacib misssyalarından olan gücünü lazımi dərəcədə göstərmir. Dünya kitabxanaçılıq təcrübəsi sübut edir ki, hər bir ölkədə kitabxana işinin, əhaliyə kitabxana xidmətinin tərəqqisi həlledici dərəcədə bu mürəkkəb prosesin idarə olunmasının səviyyəsindən asılıdır. Bu baxımdan kitabxana işinin idarə olunmasının daha ali, daha mütərəqqi vasitəsi olan kitabxana menecmentinin formalaşması xüsusi aktuallıq kəsb edir.

Kitabxana işinin idarə edilməsində menecmentin tətbiqi

Müasir dövrdə informasiya kütləsinin çoxalması və getdikcə daha da böyük sürətlə artma tendensiyaları informasiyanın idarə olunması məsələlərini göndəmə gətirir və aktual edir. Kitabxana menecmentinin uğurla həyata keçirilməsi köklü şəkildə menecerlərin fəaliyyətindən asılıdır. Kitabxana menecmentinin ən başlıca məqsəd və vəzifəsi kitabxanalarda mühafizə edilən informasiya daşıyıcılarından, kitabxanaların imkanlarına əsaslanmaqla bəşəriyyətin informasiya potensialından səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir.

Professor A.A.Xələfovun yazdığı kimi, müasir şəraitdə cəmiyyətimizdə bazar iqtisadiyyatının tətbiqi bütün sahələrdə olduğu kimi, kitabxana işinin idarə edilməsi sahəsində də menecmentin tətbiqinə böyük ehtiyac meydana çıxarmışdır. Çünki kitabxana işinin idarə edilməsində elə sahələr var ki, bunlar menecmenti öyrənmədən, onun müddəalarından istifadə etmədən keçinə bilməz. Menecment ilk növbədə kitabxana işçilərinə, xüsusən kitabxana işinin müxtəlif sahələrinə rəhbərlik edən mütəxəssislərdə müasir iqtisadi təfəkkürün formalaşmasına köməklik edir, kitabxana işində mövcud təsərrüfat və maliyyə işlərinin, kitabxanalarda marketinq fəaliyyətinin təşkilində səriştəli iş üslubu aşılayır [7].

Eyni zamanda kitabxana menecmenti cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin idarə olunmasında demokratik iş üslubunun formalaşmasında, kitabxana - informasiya müəssisələrinin düzgün inkişaf strategiyasının müəyyənləşdirilməsində, kadrların seçilməsi və yerləşdirilməsi onlardan səmərəli istifadə edilməsi, habelə kitabxanaların qonşu sahələrlə işgüzar sosialiqtisadi əlaqələrinin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Kitabxana menecmentində idarəetmə metodlarının üç təsir növü mövcuddur ki, bunlar təşkilati - sərəncam, iqtisadi və sosial-psixoloji metodlardır.

Deməli, kitabxana işinin idarəedilməsi metodları dedikdə onların fəaliyyətində optimal nəticələr əldə etmək üçün təşkilati-sərəncam, iqtisadi və sosial-psixoloji vasitələrin köməyi ilə həyata keçirilən proseslər sistemi başa düşülür [1].

Kitabxana-informasiya fəaliyyətinə yeni texnologiyaların tətbiqi keyfiy-

yətcə yeni informasiya tutumlu istiqamətlərin meydana gəlməsinə səbəb oldu. Kitabxana təcrübəsində bu istiqamətlərdən biri də elektron-elm hesab edilir. Bibliometriya, informetriya, vebmetriya kimi e-elm də (elmmetriya) ilk mənbəyini kitabxana-informasiya fəaliyyətindən alır, zənginləşir və informasiya cəmiyyətində öz yerini tutur. Bu istiqamətdə Avropa və Amerika kitabxanalarının təcrübəsi diqqətəlayiqdir. Eləcə də Türkiyə kitabxanaçılarının bu mövzuda tədqiqatları son dövrlərdə sahəvi mətbuatda tez-tez çap olunur. Bu qabaqcıl təcrübənin öyrənilməsi və Azərbaycan Kitabxanalarının konkret fəaliyyətinə tətbiq olunması mühüm əhəmiyyət kəsb edir.

Müasir kitabxana-informasiya xidmətinə yeni imkanlar yaradan e-elmin(elektron elm) tətbiqi məsələləri də kitabxana mütəxəssislərindən yüksək peşəkarlıq tələb edir. Yüksək peşəkarlıq anlayışı mütəxəssisdən bir neçə dildən istifadə edə bilmək, kompüter bacarıqlarına malik olmaq, kommunikasiya vasitələrindən istifadə edə bilməklə yanaşı, məlumat axtarış sistemlərindən, elmi istiqamətlərdən xəbərdar olmaq və analitik qabiliyyətlərə malik olmaq tələb edir. Bütün bunlar informasiya mühəndisliyi kontekstində daha geniş məzmun daşıyır və informasiya cəmiyyəti şəraitində xüsusi əhəmiyyət kəsb edir [6].

Bu baxımdan müasir menecmentin informasiya təminatı aktual problem kimi qarşıya çıxır və öz spesifikliyi ilə fərqlənir. Eləcə də Mərkəzi Elmi Kitabxanada informasiya menecmenti sahəsində gündəmə gələn problemlər bilavasitə kitabxana-informasiya fəaliyyətinin qarşısına qoyulan müasir tələblər çərçivəsində öyrənilməlidir.

Ölkənin iqtisadi və sosial inkişafı ənənəvi kitabxana proseslərinin sürətlə avtomatlaşdırılmasını tələb edir. Kitabxana proseslərinin avtomatlaşdırılması isə öz növbəsində müasir kitabxana-informasiya texnologiyalarının tətbiqi ilə sıx əlaqədar. Ölkənin informasiya infrastrukturunu sistemində elmi kitabxanalar xüsusi çəkiyə malik olmalıdır.

XX əsrin sonlarında CD-ROM texnologiyaları informasiya istehlakçılarının həyatını bir çox istiqamətlərdə dəyişdirdi. İstifadəçilər böyük informasiya və xidmət sərbəstliyi qazandılar. Az bir müddətdə böyük informasiya kütləsini toplamaq, emal etmək, ötürmək və mühafizə etmək imkanları yarandı. Bu gün dünyada çoxlu sayda Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemləri (AKİS) mövcuddur. VTLS, İRBİS, Millenium, Follet, Aleph, Ruslan və s. Lakin bu AKİS-lərin hamısı qiymətinə, təyinatına, istifadə edilmə məkanına, işçi yerlərinin sayına, İnternet şəbəkəsinə çıxma imkanına, tammətnli informasiyaları əks etdirməsinə, davamlılığına, yeniləşmə tezliyinə, mükəmməlliyinə, müxtəlif dildə olan informasiyaların daxil edilməsinə, yəni müxtəlif əlifbalarda yazmaq imkanına, müxtəlif məlumat baza-

larının yaradılması və çoxaldılması sayına və s. xüsusiyyətlərinə görə bir-birlərindən fərqlənirlər.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda kıtabxana-informasiya fəaliyyətinin menecmenti bir neçə istiqamətin idarə olunma problemlərini öyrənməlidir:

1.İnstitutun personalına informasiya xidmətinin təşkili informasiya təminatının relevantlıgı məsələlərinin mütəmadi öyrənilməsi və təhlili;

2.İnstitutun elmmetrik məlumatlarının toplanması, sistemləşdirilməsi və təhlili;

3.İnstitutun kitabxana-informasiya strukturunun bibliometrik məlumatlarının təhlili və mütəmadi təkmilləşdirilməsi;

4.Kitabxananın informasiya fəaliyyətinin idarə olunması və menecmentinin təşəkkülü, inkişafının meyl və ənənələrinin ilk dəfə elmi araşdırılması;

5.İnformasiyanın idarə olunması və menecmentinin mahiyyəti və məzmununun metodiki - hüquqi əsaslarının elmi şərhinin verilməsi;

6.Kitabxanada informasiya menecmentinin kadr təminatı məsələlərinin tədqiqi;

7.Kitabxananın idarə olunmasında informasiya texnologiyalarının tədbiqi prosesinin vəziyyəti və təkmilləşdirilməsi yollarının araşdırılması;

8.Kitabxananın informasiyalaşdırılmasında menecmentin yerinin müəyyən edilməsi;

9.Kitabxananın İKT sahəsindəki strategiyasının informasiya menecmentinin vasitəsi kimi əsaslandırılması.

Bu istiqamətdə müxtəlif layihələrin olmasına baxmayaraq hesab edirik ki, akademik müəssisələrin informasiya təminatı tam pulsuz, təmənnasız və mütəxəssisin zamanına maksimum qənaət etməklə həyata keçirilməlidir.

Akademik kitabxanaların informasiya menecmenti sahəsində fəaliyyətini nəzərdən keçirdikdə aşağıdakı qənaətə və nəticəyə gəlmək olar. Kitabxanaşünaslıq şöbəsinin elmi-tədqiqat və elmi-metodiki xidmət sahəsindəki fəaliyyəti yeni mərhələyə - konkret problemlər üzrə elmi araşdırma və metodiki təminat mərhələsinə keçmiş və onun yeni məsafədən məsləhətvermə, kadrların professional hazırlığının yeni tələblərə uyğun yüksəldilməsi və s. perspektiv formaları meydana gəlmişdir.

Bu gün informasiya cəmiyyətinin qurulduğu şəraitdə informasiya menecmentinin də iqtisadi və rasional amilləri ön plana keçir. Bütün növ informasiya xidməti prosesləri iqtisadi kateqoriyalarla qiymətləndirilir və menecerlərin iqtisadi bacarıq və vərdişləri əsas götürülür.

Dünya informasiya bazarının konyukturunun öyrənilməsi göstərir ki, nə qlobal, nə də lokal informasiya şəbəkələrinin yaradılmasında güclü maraqlı

tərəflərin iştirakı olmadan uğur qazanmaq mümkün deyildir. Göründüyü kimi, müasir tələbləri ödəyə biləcək informasiya xidməti müəssisəsini geniş mənada həyata keçirmək son dərəcə çətin və mürəkkəbdir. Bəlkə də elə bu səbəbdəndir ki, dünyada sözün əsl mənasında geniş profilli informasiya xidməti göstərə biləcək müəssisələrin sayı yetərincə çox azdır.

ƏDƏBİYYAT

1. *İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi: Dərslik. - Bakı: "Nurlar" NRM, 2009. – 393s.*
2. *Библиотечный менеджмент: дидактическое пособие /М ГУКИ; Под общ. ред. В.К. Клюева (отв. за выпуск) и И.М. Сусловой. - М.: Профиздат; Изд-во М ГУКИ, 2001.- 208 с.*
3. *Kazimi P. and others. Scientometric analysis of document flow in library science of Azerbaijan (2014-2018) // P.Kazimi, A.Abdullayeva, N.Ismayilov. - 2020. - №2(45), s.66-70: [Elektron resurs].- https://elibrary.ru/item.asp?id=43844956*
4. *Карташов Н.С., Скворцов В.В.Общее библиотековедение. - М.: Изд-во МГУК, 1997.-с.3-5.*
5. *Гусеева Е.Н.Библиотеки и инновации: социальные и управленческие аспекты // Науч.-техн. биб-ки. - 2001.- №6.- с.28-41.*
6. *http://www.libsoub.ru/stati/interesnoe-chtenie/185-innovatsionnye-idyei-i-tehnologii-.pdf*
7. *http://www.anl.az/down/meqale/kitabxanashunasliq-biblioqrafiya/2_2012/154-160.pdf : [Elektron resurs]. - Ağamirzəyev O. Menecment kitabxanalarin yeni idaretmə strategiyasi kimi.*

Orkhan Fakhreddin oglu Agamirzaev
ANAS Institute of Manuscripts
PhD in history
E-mail:orkhan767@mail.ru
https://orcid.org/0009-0008-3128-2764

MANAGEMENT OF İNNOVATİON PROCESSES İN LİBRARİES

Annotation:

İn the article, the characteristics of the innovation process, personnel issues in its management were touched upon, the factors influencing the innovation processes were considered, and recommendations were given for improving those processes. At the same time, the role of ICT in information

processing, the advantages of its application in libraries, and projects designed to keep pace with the world level were touched upon.

At the same time, the role of ICT in information processing, the advantages of their use in libraries, as well as projects designed to adapt to the world level were touched upon.

Key words: *innovation, library, management, innovation process, management, personnel, document resources, innovative technologies.*

Орхан Фахреддин оглы Агамирзоев
Институт Рукописей НАНА
доктор философии по истории

УПРАВЛЕНИЕ ИННОВАЦИОННЫМИ ПРОЦЕССАМИ В БИБЛИОТЕКАХ

Резюме: *В статье затронуты особенности инновационного процесса, кадровые вопросы в его управлении, рассмотрены факторы, влияющие на инновационные процессы, даны рекомендации по совершенствованию этих процессов. При этом были затронуты роль ИКТ в обработке информации, преимущества их применения в библиотеках, а также проекты, призванные адаптироваться к мировому уровню.*

Ключевые слова: *инновации, библиотека, менеджмент, инновационный процесс, управление, персонал, документальные ресурсы, инновационные технологии.*

İNFORMASİYA VƏ SƏNƏD MENECMENTİ
INFORMATION AND DOCUMENT MANAGEMENT
ИНФОРМАЦИОННЫЙ И ДОКУМЕНТНЫЙ МЕНЕДЖМЕНТ
==========

UOT/UDC/УДК 026.06

Азад Иса оглы Курбанов
Бакинский государственный университет,
доктор философии по физико-математических наук, доцент
E-mail: azadbey@mail.ru
https://orcid.org/0009-0008-1212-9633

ОБЗОР НОВЫХ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В SMART БИБЛИОТЕКАХ

Elmi tədqiqatın bir çox sahələrinin özünəməxsus metadata sistemləri var. Onları təşkil edən metaməlumat növləri öyrənilən obyektlərin, hadisələrin, proseslərin müxtəlif xassələrini təsvir etməyə imkan verir. Məsələn, bunlar elmi məlumatları, müxtəlif kompüter və digər modelləri təmin edən ölçmə vasitələrinin xüsusiyyətləridir, bunlara uyğun olaraq istifadə olunan məlumatların dəyərləri hesablanır və ya təxmin edilir, nəşrlərin xüsusiyyətləri, informasiya resursları mənbələri və s. [8].

Metaverilənlərin funksiyaları. Metadata ondan istifadə edən sistemlərdə müxtəlif funksiyaları yerinə yetirir. Onların spesifik funksiyaları və tərkibi mahiyyət etibari ilə sistemin əsaslandığı informasiya texnologiyalarından, onun funksionallığından, orada dəstəklənən informasiya resurslarının xüsusiyyətlərindən, sistemdə təşkili metodlarından, emal tapşırıqlarının xüsusiyyətlərindən asılıdır. Müzakirə olunan funksiyaları yerinə yetirən metaməlumatların ifadə vasitələrinə dair aşağıdakı nümunələr hər hansı konkret mövzu sahəsinə və ya hər hansı peşəkar cəmiyyətin fəaliyyətinə xas olmayan "universal" olanlar sırasındadır.

Mövzu sahəsi modellərinin təsviri. Metaməlumatların ən mühüm funksiyası abstrakt domen modellərinin təsviridir. Bu modellərin inkişafı ilə informasiya sistemlərinin dizaynı başlayır. Bu, ontologiya ilə semantik səviyyəli sistemlərdə əlavə olunan mövzu sahəsinin konseptual sxemidir. Belə modellər işlənmiş informasiya sisteminin həyata keçirilməsi texnologiyalarından asılı deyildir. Konseptual sxemi müəyyən etmək üçün müxtəlif səviyyəli formallıqların konseptual modelləşdirmə dillərindən, məsələn, UML diaqramlarından və ya riyazi məntiqə əsaslanan formal biliyi təmsil edən dillərdən istifadə olunur. Beləliklə, konseptual sxem mövzu sahəsinin semanti-

kasını müxtəlif dərəcələrdə saxlaya bilər. Ontologiyalar həm də təsnifatçılardan formal ontoloji təsvir dillərinə qədər müxtəlif vasitələrlə təmsil oluna bilər. Son illərdə W3C-nin OWL və OWL2 ontoloji təsvir dilləri bəzən bir domenin konseptual sxemini təsvir etmək üçün istifadə edilmişdir.

Məlumat mənbələrinin təsviri. Bu metaməlumat funksiyaları, xüsusən də verilənlər bazası sxemləri, XML sənəd tiplərinin tərifləri, informasiya obyekti depoları üçün XML sxemləri, informasiya mənbələrinin ontologiyası ilə yerinə yetirilir. Bu tip metaməlumatlar müvafiq olaraq verilənlərin təsviri dilləri (məsələn, SQL dilinin təsviri alt dili, obyekt verilənlər bazalarının ODL obyekt təsviri dili), XML dilinin alt dili və XML sxem dili, ontologiyanın təsviri dilləri ilə təmsil olunur. (məsələn, RDFS, OWL2).

İnformasiya obyektlərinin təsviri. Bu funksiya rəqəmsal kitabxanalarda, açıq arxiv sistemlərində və vahid obyekt səviyyəsində onların informasiya ehtiyatlarına çıxış qranularlığı olan informasiya obyektlərinin digər repozitoriyalarında zəruridir. Son zamanlarda bu cür metaməlumatları təmsil etmək üçün tez-tez XML sənədləri, MARC standartının müxtəlif dialektlərinin kitabxana kataloqu qeydləri şəklində təqdim olunan deskriptorlardan istifadə olunur. Bu metadata təsvir olunan informasiya obyektlərinin struktur xüsusiyyətlərini, onların müxtəlif digər xüsusiyyətlərini təsvir edir. "İntellektual" sistemlərdə informasiya obyektlərinin semantikası təsvir olunur.

İnformasiya mənbələrinin, informasiya obyektlərinin və ya onların fraqmentlərinin semantikasının təsviri. Bu məqsədlə istifadə edilən metadata semantik adlanır. Ən sadə hallarda, məlumat mənbələrinin və ya fərdi məlumat obyektlərinin semantikası rubrikatorlardan istifadə etməklə təsvir edilir, məsələn, KBT və ya beynəlxalq UOT və ya JEL (İqtisadi Ədəbiyyat Təsnifat Sistemi Jurnalı). Semantikanı təsvir etmək üçün daha əhatəli, lakin qeyri-rəsmi vasitə Dublin Core (DC) metadata element dəstidir. Elektron kitabxanalardakı mətn sənədləri və elektron kitabxanaların informasiya ehtiyatları kolleksiyaları, verilənlər bazalarının struktur elementləri, veb-səhifələr, o cümlədən elektron kitabxanalar və ya ümumiyyətlə digər informasiya bazaları üçün bəzi məlumatların əlaqələndirilməsindən ibarət olan semantik annotasiya da istifadə olunur. Semantik annotasiya təsvir edilmiş resursda və ya ondan müstəqil olaraq daxil edilə bilər. Veb səhifə fraqmentlərinin semantikasını təsvir etmək üçün istifadə edilən sətirli semantik annotasiyanın ən sadə vasitələrindən biri mikroformatlar adlananlardır. Onlardan bəziləri məşhur veb axtarış motorları tərəfindən dəstəklənir. Məsələn, Yandex mikroformatları dəstəkləyir: hCard - əlaqə məlumatlarını qeyd etmək üçün (ünvanlar, telefon nömrələri və s.); hRecipe - kulinariya reseptlərini təsvir etmək üçün; hReview - işarələmə rəyləri, rəylər üçün; hProduct - məhsul təs-

virlərini qeyd etmək üçün[9, s.6].

İnformasiya arxitekturasının müxtəlif səviyyələrində verilənlərin təqdim edilməsinin təsviri. Verilənlər bazası sistemlərində metadata saxlanılan verilənlərin təsvirini (daxili verilənlər bazası sxemi), tam verilənlər bazasının "məntiqi" təsvirini (konseptual verilənlər bazası sxemi) və verilənlər bazası və ya verilənlər bazası fraqmentlərinin istifadəçilərə və ya tətbiqlərə təqdimatını təsvir edir.

Təsvir edilən resursların müəyyənləşdirilməsi. Metaməlumatlar resurs nümunələrinə daxil edilmiş hansı elementlərin və ya onlarla əlaqəli atributların onların identifikasiyasını təmin etdiyini təsvir edir. Daxili identifikasiya elementlərinə misal olaraq verilənlər bazası sistemlərində cədvəllərin əsas və ikinci dərəcəli açarları göstərilə bilər. Mətn sənədlərinin elektron kitabxanaları onların unikal identifikatorlarından istifadə edə bilər. Onlar tez-tez sistem tərəfindən yaradılır, istifadəçilər üçün açıq şəkildə mövcud deyil və sistem tərəfindən yaradılan kataloqlarda bu sənədlərə keçid kimi xidmət edir. Mətn sənədlərini müəyyən etmək üçün deskriptor və ya açar sözlərdən istifadə edilə bilər. Vebdə URL-lər və ya URI-lər veb səhifələr üçün unikal identifikator kimi istifadə olunur. Bunlardan birincisi səhifəni İnternetdəki yeri ilə müəyyən edir. CİS-də yer səthindəki nöqtələr onların eni və uzunluğu ilə müəyyən edilir. Nəhayət, UOT və İSBN indekslərini, DOI rəqəmsal obyekt identifikatorlarını, Dublin Core metadata elementlərini qeyd etmək lazımdır. İnformasiya resurslarını müəyyən etmək üçün istifadə edilən metaməlumat növlərinin başqa nümunələri də var.

Strukturlaşdırılmış məlumatların idarə edilməsi. Bu, strukturlaşdırılmış məlumatların səmərəli saxlanması və emalı, habelə onlara çıxışın təmin edilməsi ilə bağlı tapşırıqlar toplusudur. Çox vaxt bu problemləri həll etmək üçün verilənlər bazası texnologiyalarından istifadə olunur. Verilənlər bazası sxemi şəklində təqdim olunan metaməlumatlar verilənlər bazasının təşkili, məlumatların bütövlüyünə məhdudiyyətlər və girişə nəzarət haqqında lazımi məlumatlarla VBİS-nin işləmə prosesində mexanizmlərini təmin edir.

Məlumatların yoxlanılması. Strukturlaşdırılmış məlumat metadataları (məsələn, verilənlər bazası sxemi) onların formatlarına və məlumat növlərinə nəzarət etməyə, bütövlüyün məhdudlaşdırılmasının müşahidə edilib-edilmədiyini yoxlamağa imkan verir. Bu vəzifələr VBİS mexanizmləri ilə həll olunur. Verilmiş Document Type Definition olan XML sənədləri üçün istifadə olunan XML prosessoru onların strukturunu təsdiq edə bilər. Ontologiyalar əsasında verilənlərə çıxış sistemlərində SQL verilənlər bazası sisteminin ontologiyası verilənlər bazasında verilənlərin natamamlığını və uyğunsuzluğunu aşkar etməyə imkan verir.

İstifadəçilərə təsvir olunan resurslar haqqında məlumatların verilməsi. Metaməlumatlar təkcə sistem funksiyalarını dəstəkləmək üçün deyil, həm də istifadəçiləri informasiya resurslarının xassələri, onlara çıxışı təmin edən xidmətlər və təsvir olunan digər resurslar haqqında məlumatlandırmaq üçün tərtib edilə bilər. İstifadəçi yönümlü metadata strukturlaşdırılmış və ya strukturlaşdırılmamış məlumatlar ola bilər. Sonuncular təbii dillərdə mətnlər, diaqramlar, çertyojlar, ərazinin xəritələrinin fraqmentləri və s. şəklində təqdim edilə bilər. Nəzərdən keçirilən məqsədin metaməlumatları təsvir olunan resursların genezisi, onlarla bağlı fərziyyələr, giriş üsulları və onlardan istifadə şərtləri, onların semantikası, istifadə olunan terminologiya, habelə digər kəşfiyyat məlumatları. Bu cür metaməlumatlara misal olaraq istifadəçilər üçün sistemlə işləmək üçün təlimatlar, məzmunlar cədvəli və ya kitabın annotasiyası ola bilər.

Giriş nəzarəti. Metadata məlumat resurslarına daxil olmaq və ya istifadə olunan sistemin digər əməliyyatlarını yerinə yetirmək üçün giriş məhdudiyyətlərini və istifadəçi icazələrini təsvir etməyə imkan verir. İstifadəçi qorunan əməliyyatı yerinə yetirməyə cəhd etdikdə bu icazələr və məhdudiyyətlər sistem mexanizmləri tərəfindən yoxlanılır. Verilənlər bazası sistemlərində giriş məhdudiyyətləri verilənlər bazası sxemində təsvir edilir.

İstifadəçilərin xüsusiyyətlərinin və onların informasiya ehtiyaclarının təsviri. Bir çox informasiya sistemlərində istifadəçilər və onların işini qeyd etmək və sistem resurslarından istifadəyə dair statistik məlumat toplamaq üçün zəruri olan informasiya ehtiyacları haqqında məlumatları saxlamaq mümkündür. Belə metaməlumatların toplanması istifadəçi profili adlanır.

İnformasiya resurslarının aşkar edilməsini və axtarışını təmin etmək. Bu, axtarış meyarlarında istifadəni təmin edən metaməlumatların əsas funksiyalarından biridir. Bu zaman təkcə identifikasiyadan deyil, həm də digər metaməlumatlardan istifadə edilə bilər. Tələb olunan informasiya ehtiyatlarının aşkarlanması kataloqlarda, mövzu indekslərində, rubrikatorlarda naviqasiya yolu ilə də həyata keçirilə bilər. Axtarış prosesində semantik metaməlumatlardan istifadə informasiya səs-küyünün səviyyəsini əhəmiyyətli dərəcədə azalda bilər.

İnformasiya resurslarının paylanması. İstifadəçilərin informasiya ehtiyaclarını səciyyələndirən informasiya sistemində dəstəklənən (məsələn, istifadəçi profillərində) metaməlumatlar sistem vasitəsilə informasiyanın seçmə şəkildə yayılmasını təmin etməyə imkan verir.

İnformasiya resurslarının tematik sistemləşdirilməsi. Bu funksiya sistemdə olan informasiya resurslarının kataloqlarının və mövzu indekslərinin formalaşdırılması, rubrikatorların köməyi ilə resursların indeksləşdirilməsi yolu ilə həyata keçirilir.

Məlumatların təhlilinin təmin edilməsi. Bu xüsusiyyət çoxölçülü və ya əlaqəli verilənlər bazası sistemləri və məlumat repozitariyalar üçün səciyyəvidir və OLAP metodlarının istifadəsi ilə əlaqələndirilir. İstifadə olunan metadata verilənlər bazası sxemlərində yer alır.

İnformasiya resurslarının qarşılıqlı fəaliyyətinin və təkrar istifadəsinin təmin edilməsi. Açıq standartlar vasitəsilə metaməlumatların təqdimatının unifikasiyası yolu ilə texniki və/və ya semantik qarşılıqlı fəaliyyət və bu əsasda informasiya ehtiyatlarının təkrar istifadəsi təmin edilə bilər. Məsələn, SQL dilinin təsviri altdilində və ya ODMG standartının ODL obyekt təsviri dilində təmsil olunan sxem ilə təsvir edilən verilənlər bazası SQL standartını və ya müvafiq olaraq ODMG-ni dəstəkləyən başqa VBİS tərəfindən təkrar istifadə edilə bilər.

Bir çox mənbələrdən məlumatların inteqrasiyası. Bu funksiyanı müxtəlif mənbələrdən informasiya resurslarının virtual inteqrasiyası sisteminin yaradılması və istismarı nümunəsində nəzərdən keçirmək lazımdır. Burada aşağıdakıları təsvir edən metadata lazımdır: inteqrasiya olunmuş mənbələrin yerli sxemləri, qlobal sxem, yerli sxemlər və qlobal sxem arasında xəritələr.

Əqli mülkiyyət müəllif hüquqlarının təsviri. Bu funksiya təsvir olunan resurslar üçün müəllif hüquqları məlumatını təmin edən metadata tərəfindən dəstəklənir.

Elmi elektron kitabxanalarda elmmetriya. Rəqəmsal kitabxanalarda metaməlumatların (müəllif, təşkilat, işin adı), təsnifat başlıqlarının təsviri və elmi nəşrlərin təsvirlərində sitat keçidlərinin müəyyən edilməsi ayrı-ayrı müəlliflərin və ya onların işlədikləri təşkilatların əsərlərinə istinadları qiymətləndirməyə, tematik strukturu təhlil etməyə imkan verir. Kitabxananın məzmunu, müəlliflərin əsərlərinə və ayrı-ayrı nəşrlərə tələbat və sitatlar reytinqini formalaşdırır. Nəşrlər, müəlliflər və nəşrlər, təşkilatlar və müəlliflər arasında əlaqələrin təsnifatı və onun əsasında elmi elektron kitabxanaların məzmununun semantik strukturlaşdırılması sayəsində formalaşmış semantik strukturu təsvir edən metaməlumatların dəstəyi ilə çoxölçülü elmmetrik məlumat əldə etmək mümkündür [3, s.5].

Nəticə etibarilə kitabxana-informasiya fəaliyyəti sistemində informasiyanın yaradılması zamanı yeni tələblərə müvafiq olaraq metaverilənlərin xüsusiyyətləri kitabxanalarda informasiya resurslarının yaradılması və saxlanması, eləcə də kitabxana xidməti zamanı hansı metaverilənlərin lazım olduğu öncədən müəyyənləşdirilməli və buna müvafiq olaraq onun funksiyaları seçilməlidir. Araşdırma zamanı məlum olur ki, həmin funksiyalar metaverilənlərin yaradılması zamanı müəllif hüquqlarının, istifadəsi zamanı istifadəçi hüquqlarının qorunmasını da zəruri hal kimi nəzərə çatdırır.

ƏDƏBİYYAT

1. Bradley P. A. Faceted Navigation of User-Generated Metadata, Metadata Tools for Digital Resource Repositories, 2006: [electron resource] .- http://www.ils.unc.edu/mrc/jcdl2006/ abstracts/allen.html.

2. Caplan P. Metadata fundamentals for all librarians. - Chicago: American Library Association, 2003.

3. Europeana (2016). Definition of the Europeana Data Model v 5.2.7, 22 february 2017.

4. Gartner R. Metadata for Digital Libraries: state of the art and future directions. - Bristol: JISC, 2008.

5. Haynes D. Metadata for information management and retrieval. - Londra: Facet Publishing, 2004.

6. Howarth L.C."Metadata and bibliographic control: Soul-mates or two solitudes?" Cataloging & Classification Quarterly 40. №3-4.- 2005.

7. Liu J. Metadata and its applications in the digital age:approaches and practices. - Londra: Libraries Unlimited,2007.

8. Miller S. J. Metadata for digital collections: a how to do it maual. - New York: Neal-Schuman Publishers, 2011.

9. Riley J. Understanding metadata: what is metadata and what is it for.- Baltimore: National Information Standards Organization, 2017.

Aysel Vagif gizi Hasanova
Teacher State University of Culture and Arts Azerbaijan
E-mail: aysel.hasanova@admiu.edu.az
https://orcid.org/0000-0002-4984-0401

CHARACTERİSTİCS AND FUNCTİONS OF METADATA

Annotation. *The article discussed about the characteristics and functions of metadata, which is considered as a new concept in the library-information activity system. Then, the independence of metadata and its dependence on the content of described information resources, the subject area, system and user metadata, structured and unstructured metadata, problems of open and hidden presentation of metadata, description of subject area models such as functions of metadata, provision of information to users about described resources, characteristics of users and issues such as description of their information needs, provision of mutual activity and reuse of information resources were analyzed.*

Keywords: *metadata, function, feature, information, resource.*

Айсель Вагиф кызы Гасанова
Азербайджанский Государственный Университет Культуры и Искусств, преподаватель

ХАРАКТЕРИСТИКИ И ФУНКЦИИ МЕТАДАННЫХ

Резюме: *В статье говорится о характеристиках и функциях метаданных, которые рассматриваются как новое понятие в системе библиотечно-информационной деятельности. Затем самостоятельность метаданных и ее зависимость от содержания описываемых информационных ресурсов, предметная область, системные и пользовательские метаданные, структурированные и неструктурированные метаданные, проблемы открытого и скрытого представления метаданных, описание моделей предметной области, таких как функции метаданных, предоставление информации пользователям об описываемых ресурсах, характеристиках пользователей и таких вопросах, как описание их информационных потребностей, обеспечение совместной деятельности и повторное использование информационных ресурсов.*

Ключевые слова: *метаданные, функция, особенность, информация, ресурс.*



HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК
==========
UOT/UDC/УДК 72:719

Tanrıverdi Əhməd oğlu Paşa
Azərbaycan Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi
E-mail: tpasha_50@mail.ru
https://orcid.org/ 009-0009-7221-3420

MƏDƏNİ İRSIN SAXLANMASI VƏ BƏRPASININ ƏHƏMİYYƏTİ

Xülasə: *Məqalədə mədəni irsin cəmiyyətin davamlı sosial-iqtisadi inkişafında rolu və potensial təsir sahələri açıqlanır, mədəni irsin qorunub saxlanılması, bərpası və ondan istifadəyə dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi əsaslandırılır, müasir şəraitdə mədəni irsin iqtisadi komponentlərinin qiymətləndirilməsi, mədəni irsin idarə edilməsi, müxtəlif idarəetmə qurumları səviyyəsində mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları araşdırılır, dünya təcrübəsinə əsaslanaraq mədəni irsin Azərbaycan Respublikasında xarici və daxili turizmin inkişafına, kreativ iqtisadiyyatın təşəkkülünə verə biləcəyi fayda və töhfələr açıqlanır. Məqalədə həmçinin dünya təcrübəsinə əsaslanaraq, mədəni irs obyektlərinin qorunub saxlanılması və bərpasına maliyyə mənbələrinin cəlb olunması mexanizmləri haqqında da məlumat verilir.*

Açar sözlər*: mədəni irs, mədəniyyət, bərpa, iqtisadiyyat, dünya təctübəsi, YUNESCO.*

Mədəni irsin qorunub saxlanması problemi minillikdən artıqdır ki, aktualdır və öz köklərini bəşəriyyətin tarixindən götürür. Müasir elm, mədəni irsin sosial dəyərinin, istər insan kapitalının inkişafına, istərsə də iqtisadi artıma və əhalinin rifahının artmasına kömək edən mühüm potensialının ölçülməsi ilə bağlı problemi hələ də ağlabatan şəkildə həll edə bilməyib.

Son illərdə mədəni irs mühüm roluna, sosial həyatın bütün səviyyələrini əhatə etməsinə, eləcə də iqtisadi faydalarına görə ölkə iqtisadiyyatında və cəmiyyətində getdikcə daha vacib amil, müxtəlif ənənəvi və yeni sahələrdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul kimi qəbul edilir. Ayn-ayrı ölkələrdə və beynəlxalq ictimaiyyətdə mədəni inkişaf səviyyəsinə xalqla-

rın sosial-iqtisadi inkişafını xarakterizə edən ən vacib göstəricilərdən biri kimi diqqət diqqət yetirilir.

Mədəni irs innovasiyalar, sərvət yığımı və sosial dəyişikliklər üçün də hərəkətverici qüvvədir. Mədəni irsə milli identiklik, sosial birliyi gücləndirən, vətəndaş şüurunu aktivləşdirən, müəyyən əraziyə, yerə aid olma hissini formalaşdıran amil kimi də mühüm rol verilir. Bu baxımdan, mədəni irs yerli özünüidarəetmə və ərazi inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir.

Bu günkü Azərbaycan, daha çox ölçüdə dünyanın müxtəlif ölkələrinə göndərilən neft, qaz və digər xammal axınına xidmət edən bir struktur kimi təqdim edilir. Qlobal sivilizasiyanın təsiri yerli mədəniyyətə, yerli kimliyə və ənənələrə marağın bərpasına gətirib çıxarır. Bu əslində, suverenlik və mühafizəkarlığın da əsasında duran amillərdəndir. Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanılması nəinki daxili turizmin inkişafi üçün əsasdır, həm də ötən əsrdə çox bəlalar çəkmiş, təhrif edilmiş milli kimliyin özünün qismən yenidən qurulması məsələsidir.

Mədəni irsin qorunub saxlanması və bərpasının nəzəri əsasları "Mədəni irsin iqtisadiyyatı" iqtisad elmində və tədris prosesində XX əsrin ***70-ci*** illərində, "Mədəniyyətin iqtisadiyyatının özünün yaranmasından təxminən on il sonra formalaşmışdır. Bu predmetin banilərindən biri - ingilis iqtisadçısı Alan Pikok hesab olunur[9, s.12]. Mədəni irsin iqtisadiyyatının əlli ilə yaxın mövcudluğu ərzində onun iqtisadi aspektlərinə dair çoxlu sayda nəzəri-metodoloji və praktiki elmi əsərlər nəşr edilmişdir.

Ənənəvi iqtisadi nəzəriyyə iqtisadi sistemi ənənə və adətlərin məhdud resurslardan istifadə təcrübəsi kimi müəyyən etdiyindən, fərdi faydalılığa əsaslanan iqtisadi davranış baxımından, "mədəni irs istehlakçı üçün faydalılığın artmasının görünməyən və ya hiss olunmayan komponentidir, onun vasitəsilə tarixi binalar və artefaktlar istehlak obyektidir"[11]. İqtisadi nəzəriyyənin A.Pikok konsepsiyasından sonra mədəni irsin qorunmasını maliyyələşdirən himayədar dövlətdən investor dövlətə çevrilməsini nəzərdə tutan nəzəriyyələr ön plana çıxıb.

Mədəniyyətin iqtisadiyyatının demək olar ki, yarım əsrlik tarixində mədəniyyətə dövlət dəstəyini əsaslandıran bir sıra konsepsiyalar yaranmışdır. Mədəni irsin mühafizəsi sahəsində bunlara aşağıdakı nəzəri konstruksiyalar daxildir:

- ❖ Bazar uğursuzluqları anlayışı;
- ❖ Baumolun "qiymət xəstəliyi";
- ❖ Meritor sərvətlər nəzəriyyəsi;
- ❖ Himayə olunan sərvətlər nəzəriyyəsi.

Standart iqtisadi nəzəriyyədə yanlış bir dilemma vardır. Əgər mədəni irs

cəmiyyət üçün əhəmiyyətlidirsə, o zaman bu, istehlakçılardan gələn tələbdə əksini tapmalı, nəticədə, abidələrdən istifadəyə görə ödəniş onların istismarı ilə bağlı xərcləri ödəməlidir. Həmçinin, məsrəflər abidələrdən istifadədən əldə edilən gəlir hesabına ödənilmirsə, o zaman ya cəmiyyət mədəni irs obyektlərinə kifayət qədər maraq göstərmir, ya da onların istismarı ilə bağlı xərclər bu marağı üstələyir. Belə sadələşdirilmiş şərh mədəni irsin qorunub saxlanması sahəsinə yönəldilən maliyyələşməni səmərəsiz hesab etmək üçün əsas rolunu oynayır və bu, iqtisadiyyatın gəlir gətirən sektorlanndan məhdud vəsaiüərin xaricə çıxmasına səbəb olur. Bu yanlışlığı aradan qaldırmaq mədəni fəaliyyətin iqtisadi nəzəriyyəsinin ən mühüm vəzifələrindən biridir.

Eyni dərəcədə çətin problem, "mədəni irsin qorunması"nın adekvat iqtisadi məzmununun müəyyən edilməsidir. Bu, sadəcə olaraq, mədəniyyət abidələrinin müəyyən edilməsi, konservasiyası və bərpası, təmir-bərpa işlərinin vaxtında və tam yerinə yetirilməsidir, yoxsa daha çox mədəni irs obyektlərinin müasir istifadə və bu abidələrin mövcud zədələnmə riskinin aradan qaldırılması imkanları nəzərə alınmaqla onların özlərinin uyğunlaşdırılmasıdır? "Qızıl orta"nı necə tapmaq olar: abidəni qorumaq və ona yeni nəfəs vermək vacibdir? Azərbaycanın mədəni irsinin ən böyük payı dövlət mülkiyyətində olduğu vəziyyətdə bu problem necə həll olunmalıdır. Ona görə də "uyğunlaşma yolu ilə inkişaf' prinsipi, əslində, abidəyə yeni funksionallıq verən gələcəyə müraciət deməkdir.

Təəssüf ki, müasir elm, mədəni irsin sosial dəyərinin, istər insan kapitalının inkişafına, istərsə də iqtisadi artıma və əhalinin rifahının artmasına kömək edən mühüm potensialının iqtisadi ölçülməsi ilə bağlı üçüncü problemi hələ də sərişteli şəkildə həll edə bilmir. Bu cür ölçülərə dair mövcud cəhdlər hələ də sırf təbliğat və ya siyasi xarakter daşıyır, halbuki onlar çox vaxt mədəni irsin həqiqi dəyərinin daha yaxşı başa düşülməsinə kömək edə və ona ictimai dəstəyin həcmini bir qədər də artıra bilər.

Bazardakı uğursuzluqlar və onlann aradan qaldınlması zərurəti mədəni irsin qorunması sahəsində dövlət dəstəyinin əsaslandınlmasmın başhca leytmotividir. Bazar uğursuzluqları, adətən bazar mexanizminin resursların rasional bölüşdürülməsini və istifadəsini təmin edə bilmədiyi vəziyyətlər kimi başa düşülür. Bazar uğursuzluqlarının aradan qaldırılmasına yönəlmiş dövlət fəaliyyəti, bu halda, müasir iqtisadiyyatın zəruri elementi sayılır. Burada, üç standart halın: ictimai sərvətlər, xarici təsirlər, informasiya asimmetriyasımn olması qəbul edilir[5, s.255].

Mədəni irsin qorunub saxlanması problemi minillikdən artıqdır İd, aktualdır və öz köklərini bəşəriyyətin tarixindən götürür. Hazırda mədəni irsin

əhəmiyyəti təkcə cəmiyyətin mədəni və estetik tələbatlannm ödənilməsi, mədəni dəyərlərin gələcək nəsillər üçün qorunub saxlanılması istəyi ilə məhdudlaşmır, həm də sosial-iqtisadi inkişaf üçün strateji resurs, insan həyatının keyfiyyətinin və bütövlükdə sosial təşkilat sisteminin yaxşılaşdınlmasının mühüm tərkib hissəsi ldmi daha geniş şəkildə şərh olunur.

Mədəni irsin istehlakı daha çox kollektiv xarakter daşımaqla ikili xarakterə malikdir, yəni istehlakı istisna edilməyən və rəqabətliyi olmayan ictimai sərvətlər kateqoriyasına aid edilir. İstisna edilməmək - heç kimin bu sərvətin istehlakından lcənarlaşdırıla bilməyəcəyini nəzərdə tutur, istehlakda rəqabətin olmaması isə - bu sərvətin eyni vaxtda çox sayda istehlakçı üçün əlçatan olması deməkdir[6, s.15]. Başqa sözlə, istənilən şəxs digər insanların oxşar ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən, mədəni irsdən və mədəniyyət abidələrinin gözəlliyindən həzz ala bilər.

Mədəni irsin qorunub saxlanması ənənəvi olaraq, iqtisadi nöqteyi-nəzərdən dövlət büdcəsinin yüklənməsi kimi şərh olunurdu. Ancaq indi inkişaf etmiş ölkələrdə bu sahə "müxtəlif ənənəvi və yeni sənayelərdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul" kimi qəbul edilir. Mədəni irsə milli identikliyi, sosial birliyi gücləndirən, vətəndaş şüurunu aktivləşdirən, müəyyən əraziyə, yerə aid olma hissini formalaşdıran amil kimi də mühüm rol verilir. Bu baxımdan, mədəni irs yerli özünüidarəetmə və ərazi inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir.

Ayn-ayrı ölkələrdə və beynəlxalq ictimaiyyətdə mədəni inkişaf səviyyəsinə xalqların sosial-iqtisadi inkişafım xarakterizə edən ən vacib sahələrdən biri kimi diqqət diqqət yetirilir. Mədəni irs innovasiyalar, sərvət yığımı və sosial dəyişikliklər üçün də hərəkətverici qüvvədir. Mədəniyyət sahələrinin roluna maraq göstərmək bir çox ölkələrdə inkişaf strategiyasının bir hissəsinə çevrilmişdir[3].

Zəngin mədəni irsə malik olmaqla yanaşı həmin irsin idarə edilməsində təzahür edən mədəniyyət siyasətinə və mədəni turizmə "insanların müəyyən zövqlərini və mədəni ehtiyaclarım təmin etmək qabiliyyətini dərk etməyə və dəstəkləməyə yönəlmiş fəaliyyət sahəsi" kimi də baxmaq olar[48, s.19].

Beynəlxalq təşkilatların ekspertlərinin fikrincə, mədəni irsə - tarixi, estetik, etnoloji və ya antropoloji baxımdan müstəsna ümumbəşəri dəyərə malik olan bütün memarlıq əsərləri, heykəltəraşlıq və rəsm əsərləri, kitabələr, tikili kompleksləri, insanın yaratdığı əsərlər və arxeoloji abidələr daxildir [5, s.1-15;25;44].

İqtisadi inkişaf bütövlükdə üç əsas istiqamətdə:

l) gəlirlərin dəyişməsi (yerli sakinlərin, yerli hakimiyyət orqanlarının və yerli sahibkarların gəlirləri);

1) iqtisadiyyatda struktur dəyişiklikləri,
2) həyat səviyyəsinin və keyfiyyətinin dəyişməsi, təbii resursların və mədəni mühitin keyfiyyətinin vəziyyəti, qorunması kimi təzahür edir.

Sosial-iqtisadi proses kimi inkişafa daha müasir və geniş baxış ondan irəli gəlir ki, istənilən məkan miqyasında baş verən dəyişikliklər, daha yüksək tələblərə keçid nəzərə alınmaqla, əsasən yerli icmanın tələbatının ödənilməsinə təsiri baxımından qiymətləndirilir. Dəyişikliklər - mənzil fondunun keyfiyyətini, sosial infrastrukturu, təhsil, istirahət və mədəniyyət imkanlarını, təhsil və mədəniyyət müəssisələrinin keyfiyyətini, ərazi idarəçiliyim və təbii mühiti, insanlar arasında təkcə iqtisadi inkişafdan asılı olmayan əlaqələrin və sosial münasibətlərin (sosial kapital) tipinə və sıxlığına uyğun "cəlbedici mühit"in yaradılmasım əhatə edir[7, s.113-133].

Mədəni irsin mahiyyəti və məzmunu

Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununda milli mədəni irs - "Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu" [1, maddə 1] kimi məyyən olunur.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa görə mədəni irs anlayışı mədəniyyət və tarix abidələri ilə sinonimdir. Qanunun 2-ci maddəsinə görə "Tarix və mədəniyyət abidələri (bundan sonra - abidələr) arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağh olan bina, xatirə yerləri, əşyalar xalqm dini əqidəsi ilə bağh dəyərlərdir [2, maddə 2]. Bu Qanunda tarix və mədəniyyət abidələri kimi: arxeoloji abidələr; memarlıq abidələri; tarix abidələri; sənədli abidələr; incəsənət abidələri; qoruqlar; adibələrin mühafizə zonası anlayışlarından istifadə edilir.

Müxtəlif mənbələrdə istifadə edilən mədəni irs, mədəni irs obyektləri, mədəni dəyər, tarixi və mədəni dəyərli obyektlər və s. mahiyyətcə oxşar, eyni prosesi əhatə edən anlayışlar kimi də qəbul etmək olar.

Mədəni irs obyektləri dedikdə, dövlətin iqtisadi və sosial vəzifələrindən irəli gələrək keçmişdə insan tərəfindən yaradılmış və ya onun məqsədyönlü təsirinə məruz qalmış daşınmaz mədəni sərvətlər başa düşülür və müvafiq dövlət və ya bələdiyyə orqanının normativ hüquqi aktı əsasında Azərbaycan xalqının mədəni irsi (tarix və mədəniyyət abidələri) dövlət reyestrinə daxil edilir. Abidələr dövlət və bələdiyyə mülkiyyətində, eləcə də xüsusi mülkiyyətdə ola bilər.

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli

mədəni və təbii irsə aid dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarhq abidəsi kimi qeydə alman yaşayış binalan, onlann ayn-ayrı hissələri və bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş özəlləşdirilməsinə yol verilən digər yerli əhəmiyyətli memarhq abidələri istisna olmaqla) yol verilmir. Mühəndis kommunikasiyaları, müdafiə obyektləri, şəhərsalma, dini və xatirə abidələri, hidrotexniki qurğular istisna ohnaqla, yerli əhəmiyyətli memarhq abidələri qanunvericiliyə uyğun olaraq özəlləşdirilə bilər. Özəlləşdirilmiş yerli əhəmiyyətli memarlıq abidələrinin görkəmini və daxili quruluşunu pozmaq, onların mədəni, tarixi dəyərinə xələl gətirə biləcək hər hansı hərəkət etmək qadağandır. Dövlət qeydiyyatından keçmiş və xüsusi mülkiyyətdə olan abidələr satıldıqda dövlət onları almaqda üstün hüquqa malikdir. Hər hansı bir ərazidə yeni abidə aşkar olunarsa, həmin ərazi tarixi-mədəni əhəmiyyətli zona elan olunur və onun yerləşdiyi torpaq sahəsi üzərindəki tikililərlə birlikdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət tərəfindən satın alına bilər[1, maddə 4].

Qlobal miqyasda mədəni irsin qorunmasında YUNESKO-nun fəaliyyəti

Mədəni irsin qorunması sahəsində ilk komissiyalar və müfəttişlər XIX əsrin ortalarında ayn-ayn ölkələr səviyyəsində yaradılsa da, dünya birliyi çərçivəsində bu məsələ ancaq Birinci Dünya Müharibəsi zamanı qaldırılıb və bu istiqamətində bəzi addımlar atılıb. İkinci Dünya Müharibəsi illərində Millətlər Liqasının bir çox komitələri fəaliyyətini dayandırdı və ya ləğv edildi. Onlardan bəziləri yeni yaradılmış Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (YUNESKO) səlahiyyətinə keçdi. Daha çox dövləti öz fəaliyyətinə cəlb etmək üçün YUNESKO uzun müddət yeni Konvensiya üzərində çalışsa da, birincisi gözlənilən nəticəni vermədiyindən, təxminən 9 il ərzində yeni konsepsiyalar işlənib hazırlanmışdı. Burada əks olunan ən vacib maddələr 1954-cü ildə "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" yeni Konvensiyada öz əksini tapdı. Sənəd imzalandığı yerə görə sonralar Haaqa Konvensiyası adlandırıldı.

Fərqləndirmə nişanı da təsdiqləndi, bundan sonra dünya birliyi tərəfindən əlavə qorunmaya ehtiyacı olan mədəni dəyərlərinin qeydiyyatı apanlmağa başlandı. Konvensiyanın ratifikasiyasından dərhal sonra məlum oldu ki, dünya, mədəni irsi təkcə müharibə dövründə deyil, həm də dinc vaxtlarda insanın zorakı fəaliyyətindən qorunmağa ehtiyac duyur.

Yeni qaydaların qəbulu üçün ilkin zəmin Misirdə Asuan bəndinin aktiv tikintisi olmuşdu, belə ki, tikintinin gedişində Nil çayının yuxan axanndakı Əbu Simbel məbədləri üçün təhlükə yaranmışdı. Bu abidələr tamamilə su altında qalmaq və sonradan məhv olmaq təhlükəsi ilə üzləşmişdi. 1959-cu ildə

Misir və Sudan hökumətləri YUNESKO-dan bu nadir qədim tikililərin qorunmasını xahiş etdilər.

YUNESKO dərhal güclü bir əməli fəaliyyətə başladı - məbədlər söküldü, yeni yerə daşındı və yenidən yığıldı. Bu hadisə, təşkilatın işində əlamətdar bir hadisə oldu, bundan sonra özünün əsas fəaliyyət istiqamətlərini, gələcək inkişaf konsepsiyasım və yeni dövlətlərin müttəfiqliyə cəlb edilməsi perspektivlərini müəyyən etməyə təkan verdi.

Təxirə salınmadan digər "xilasetmə" əməliyyatları da başladı: Venesiyanın və onun unikal laqonlarının; Pakistandakı Mahenco- Daro xarabalıqlarının; İndoneziyada Borobudur məbədi kompleksinin qorunması üzrə əhəmiyyətli tədbirlər görüldü. Qədim dəyərlərin bəziləri bərpa edildi, bəziləri indiki halında qorunub saxlanıldı, digərləri yeni yerə daşındı. Amma bu günə kimi onların hər birinə əlavə mühafizə və təşviq tədbirləri tətbiq edilir. Bu hadisələr Mədəni İrsin Qorunması üzrə yeni Konvensiyanın hazırlanmasına səbəb oldu. Bu, 1960-cı illərin əvvəllərində baş verdi.

YUNESKO-nun Ümumdünya İrs Siyahısının qlobal şəkildə rəsmiləşdirilməsi və təbliği məsələlərinin müzakirə olunduğu konqreslər və iclaslar müntəzəm olaraq keçirilməyə başladı. 1972-ci il noyabrın 16-da YUNESKO-nun Baş Konfransının 17-ci sessiyasında Mədəni və Təbii İrsin Mühafizəsi üzrə yeni Konvensiyanın iştirakçısı olan bütün ölkələr tərəfindən əsas müddəalar formalaşdırıldı və qəbul edildi. Bundan sonra YUNESKO-nun Ümumdünya İrs Siyahısının formalaşdınlmasına başlanıldı.

1976-cı ildə vahid Ümumdünya İrs Komitəsi yaradıldı. Onun əsas vəzifəsi Konvensiyanın müddəalarına əməl olunmasına nəzarət etmək, habelə konkret obyektin Siyahıya daxil edilməsi ilə bağlı yekun qərar qəbul etməkdir.

YUNESKO qlobal miqyasda mədəni və tarixi dəyərlərin qorunub saxlanmasında mühüm rol oynayır. Fəaliyyətin əsas strategiyası ölkələr arasında əməkdaşlıq təcrübəsi üçün vahid normativ hüquqi bazanın yaradılmasıdır. Bu cür tədbirlər təkcə milli səviyyədə deyil, həm də beynəlxalq səviyyədə mədəni prosesləri inteqrasiya etməyə imkan verir.

2013-cü ilin may ayında YUNESKO-nun Xançjouda keçirilən Beynəlxalq Konqresində qəbul edilmiş "Mədəniyyətin davamlı inkişaf siyasətinin mərkəzinə qoyulması"na dair Bəyannamədə və davamlı inkişafi təşviq edən "İnkişafdan qalmış millətlər" "Mədəniyyət və Davamlı İnkişaf" adlı Qətnamədə - mədəniyyətin, davamlı inkişafın təmin edilməsinə yönəlmiş strategiya və proqramların yerinə yetirilməsində hərəkətverici rolu və əhəmiyyəti etiraf edilmişdir [8, s.19, 44].

Beynəlxalq mədəniyyətə, elmə və təhsilə təsir edən real hadisələrin təh-

lili mütəmadi olaraq həyata keçirilir. YUNESKO təkcə analitik deyil, həm də nəşriyyat fəaliyyəti ilə məşğuldur. Təşkilatın qrifi ilə bölgənin, məhəllələrin və dünyanın mədəni irsinə aid müntəzəm olaraq çoxlu kitab, məqalə və nəşrlər buraxılır. Oxucular arasında populyar olan dövri nəşrlərin sayı son illərdə azalsa da, bu, Ümumdünya İnternet Şəbəkəsinin təsiri altında baş verib, çünki bütün məlumatlar ictimaiyyətə açıqdır. Bir çox dövri nəşrlər artıq rəqəmsallaşdınlıb, rəqəmsal kitabxanalara daxil edilib, ona görə də kağız nəşrlər unudulmağa başlayıb.

Standart iqtisadi nəzəriyyədə yanlış bir dilemma vardır. Əgər mədəni irs cəmiyyət üçün əhəmiyyətlidirsə, o zaman bu, istehlakçılardan gələn tələbdə əksini tapmalı, nəticədə, abidələrdən istifadəyə görə ödəniş onların istismarı ilə bağlı xərcləri ödəməlidir. Mədəni irsin qorunub saxlanması ənənəvi olaraq, iqtisadi nöqteyi-nəzərdən dövlət büdcəsinin yüklənməsi kimi şərh olunurdu. Ancaq indi inkişaf etmiş ölkələrdə bu sahə "müxtəlif ənənəvi və yeni sənayelərdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul" kimi qəbul edilir. Mədəni irsə milli identikliyi, sosial birliyi gücləndirən, vətəndaş şüurunu aktivləşdirən, müəyyən əraziyə, yerə aid olma hissini formalaşdıran amil kimi də mühüm rol verilir. Müxtəlif mənbələrdə istifadə edilən mədəni irs, mədəni irs obyektləri, mədəni dəyər, tarixi və mədəni dəyərli obyektlər və s. mahiyyətcə oxşar, eyni prosesi əhatə edən anlayışlar kimi də qəbul etmək olar.

ƏDƏBİYYAT

1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu: [elektron resurs]. - https://e-qanun.az/framework/25303

2. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında "Azərbaycan Respublikasının Qanunu, Bakı ş., 10 aprel 1998-ci il //470-IQ-Tarix və mədəniyyət abidələrinin qorunması haqqında: [elektron resurs]. - https://e-qanun.az

3. Алгафри М. А. Роль культурного наследия в местном экономическом развитии (на примере Сирии) // V Международная научно-практическая конференция «Развитие экономики и менеджмента в современном мире». – М., 2018. - с. 6-9.

4. Ассоциация сберегательных касс Италии (ACRI) //URL: http://www.acri.it/ Article/PublicArticle/387/3012/operating-and- financial-data

5. Ивашиненко Н.Н., Стрелков Д.Г. Историко-культурное наследие городов как фактор активизации гражданского самосознания // Вестник Нижегородского института управления. - 2013. - № 3:

[Электронный ресурс]- URL: http://niu.ranepa.ru/ nauka/?page_id=3941

6. Benhamou F. Heritage //A Handbook of Cultural Economics / Ed. by R. Towse. Cheltenham, UK; Northampton, MA, USA: Edward Elgar, 2010. - 255p.

7. Musgrave R.A. the Yheory of Public Finance. - New York: London, 1959.

8. UNESCO/UNDP (2013). Creative economy report 2013. Special edition: Widening local development pathways. New York: United Nations Development Programme/

9. https://hraniteli-nasledia.com/dose/biblioteka //Актуальные проблемы культурного наследия. - Москва , 2016.

10. https://www.hse.ru/data/2013/12/13/1339919549 // Флорида Р. Креативный класс: люди, которые меняют будущее.

11. https://secretmag.ru/enciklopediya/chto-takoe-kreativnye- industrii-htm

Tanriverdi Ahmed oglu Pasha
Institute of Economics of the Ministry Science and Education of Azerbaijan, leading researcher
E-mail: tpasha_50@mail.ru
https://orcid.org/ 009-0009-7221-3420

İMPORTANCE OF PRESERVATİON AND RESTORATİON OF CULTURAL HERİTAGE

***Annotation**. The article explains the role of cultural heritage in the sustainable socio-economic development of society and its potential spheres of influence, substantiates the need for state support and intervention in the conservation, restoration and use of cultural heritage, in modern conditions, the evaluation of the economic components of the cultural heritage, the management of the cultural heritage, the capitalization strategies of the cultural heritage objects at the level of various management institutions are investigated, based on world experience, the advantages and contribution that cultural heritage can give to the development of foreign and domestic tourism and the creation of a creative economy in the Republic of Azerbaijan are revealed. The article also provides information on the mechanisms of attracting financial sources to the preservation and restoration of cultural heritage objects,*

Танрыверди Ахмед оглы Паша
Институт Экономики Министерства Науки и Образования Азербайджана, ведущий научный сотрудник

ВАЖНОСТЬ СОХРАНЕНИЯ И ВОССТАНОВЛЕНИЯ КУЛЬТУРНОГО НАСЛЕДИЯ

Резюме: *В статье разъясняется роль культурного наследия в устойчивом социально-экономическом развитии общества и его потенциальных сфер влияния, обосновывается необходимость государственной поддержки и вмешательства в сохранение, реставрацию и использование культурного наследия, проводится оценка экономической составляющей культурное наследие в современных условиях, управление культурным наследием, исследуются стратегии культурной капитализации объектов наследия, польза и вклад, которые может дать культурное наследие в развитие иностранного и внутреннего туризма в Азербайджанской Республике, создание креативной экономики, раскрываются новые творческие возможности в контексте умного города и умной деревни на основе мирового опыта. Также в работе представлена информация о механизмах привлечения финансовых источников к сохранению и реставрации объектов культурного наследия, основанная на мировом опыте.*

Ключевые слова: *культурное наследие, культура, реставрация, экономика, мировой опыт, ЮНЕСКО.*



HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК
==========
UOT/UDC/УДК 069.1

Gülsəba Sahib qızı Həsənova
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Ədəbi salnamə, bədii-sənədli kino xronikalar şöbəsinin müdiri,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
E-mail: glsyba@bk.ru
https://orcid.org/ 0000-0003-0161-7670

AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIQ ABİDƏLƏRİNİN DÜNYAYA TƏQDİMİNDƏ MUZEYLƏRİN ROLU

Xülasə: *Məqalədə ölkə ərazisində və xaricində olan heykəltəraşlıq nümunələri və memorial komplekslərinin yaradılmasından bəhs edilir. Mədəniyyəti, zəngin ədəbi irsi təmsil etmək funksiyasını daşıyan bu abidələrin orijinal nüsxələri muzeylərin incəsənət bölməsində qorunur, daimi və müvəqqəti sərgilərində nümayiş etdirilir.*

Açar sözlər: *Muzey fondu, abidə, muzey ekspozisiyası, mədəniyyət*

Muzeylər tarix və mədəniyyət abidələrini qorumaqla yanaşı, onları dəyərli muzey eksponatlarına çevirərək keçmişlə müasirliyi kompleks halda tədqiq etməyə və öyrənməyə şərait yaradır. Muzeyşünaslıq elminin meydana gəlməsi və təşəkkülü də muzeylərin elmi-kütləvi, elmi-tədqiqat fəaliyyəti istiqamətində inkişafı sayəsində baş vermişdir. Muzeyşünaslığın obyekti, predmeti, strukturu muzey işinin xarakter və profil bölgüsü, muzeylərin cəmiyyətin sosial-mədəni həyatına inteqrasiyası ilə müəyyənləşir. Nəzəriyyəçilərin iki yerə ayırdıqları muzeyşünaslığın bir tipi də xüsusi muzeyşünaslıqdır ki, bu elmin qarşısında duran başlıca vəzifə hər hansı ixtisaslaşmış sahə, profil üzrə olan muzey obyektlərini öyrənməkdir. Eyni zamanda müxtəlif istiqamətli muzeylərin saxladığı və qoruduğu real həqiqəti özündə əks etdirən obyektlər özləri də fərqli qruplara bölünür.

Muzeylərin funksional fəaliyyətində mühüm istiqamətlərdən biri də incənəsətin təbliği və incəsənət vasitəsilə tərbiyə məsələsidir. Mədəniy-

yət və maarif işinə aid ədəbiyyatda bu istiqamət estetik tərbiyə işi adlandırılır [5, s.60].

Yetişməkdə olan gənc nəslin formalaşmasında, onların əxlaqi-tərbiyəvi, estetik hisslərinin inkişafında mühüm rol oynayan muzey eksponatlarından əsas yeri incəsənət əsərləri tutur. Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətinin təqdimi təsviri sənət əsərləri içərisində heykəltəraşlıq nümunələri vasitəsilə daha mükəmməl olur.

Bildiyimiz kimi tarixi dövrlərdə yaşayıb-yaradan ədəbi şəxsiyyətlərə və onların yaradıcılığına həsr edilmiş təsviri sənət əsərlərinə Azərbaycanda və ölkə xaricində müxtəlif parklarda, memarlıq abidələrinin, müxtəlif binaların qarşısında rast gəlinir.

Mənbələr sübut edir ki, XX əsrdə Azərbaycan heykəltəraşlığının sovet incəsənətinin tərkib hissəsi olduğunu nəzərə alsaq, milli maraqlara xidmət edən mövzuların bədiiləşdirilməsi ilkin dövrlərdə çox çətin idi.

1920-ci illərdən etibarən monumental heykəltəraşlıq sahəsində ilk addımlar atılmış və şəhər mühitində heykəl yerləşdirilməsi sahəsində təcrübələr aparılmışdır. Sevindirici haldır ki, sovet ideoloqları ictimai xadimlərə heykəl ucaltmağa qərar verərkən Mirzə Ələkbər Sabiri və Mirzə Fətəli Axundovu da unutmamışlar. Və şəhərdə qoyulan ilk heykəl də elə Mirzə Ələkbər Sabirin heykəli olmuşdur. Əsərin müəllifi rus heykəltəraşı Yakov Keylixisdir. Xalq Maarif Komissarlığının qərarı əsasında qoyulan abidənin açılışı 1922-ci ilin aprel ayında olmuşdur. Heykəlin qoyulmasının təşəbbüskarları Dadaş Bünyadzadə, Hənəfi Zeynallı, Mirzə Cəlil, Nəriman Nərimanov, Tağı Şahbazi idi [4, s.15].

Heykəltəraşlıq sahəsində atılan ilk addımlarda üzləşilən ən ciddi problem material çatışmazlığı idi. Heykəlin hansı məqsədə xidmət etməsindən və hazırlandığı materialın xassələrindən asılı olaraq onun plastik formaları da müxtəlif olur. Binanın daxilini bəzəyən dekorativ heykəllər forma cəhətdən bir qədər yüngül, yumşaq, axıcı səpkidə düzəldilir. Monumental heykəllər, abidələr isə sadə, əzəmətli, siluetinə görə dəqiq və anlaşıqlı, kompozisiya cəhətdən taraz və mütənasib həkk edilir. Eləcə də qranit formasının daha bütöv, sərt və lakonik işlənməsini tələb edir [3, s.45].

Sabirin heykəli sadalanan problemlər səbəbindən betondan hazırlanmışdır. Ona görə də əsərin ömrü qısa olmuş, 1958-ci ildə Cəlal Qaryağdının tuncdan hazırladığı möhtəşəm abidə ilə əvəz edilmişdir.

Belə abidələrin orijinal nüsxələrinin qorunduğu məkan muzeylərdir. Təsviri incəsənətin qollarından olan heykəltəraşlıq sahəsi təkcə zahiri oxşarlığı deyil, təsvir olunan obrazın fərdiliyini, daxili mahiyyətini, rəng

çalarlığını da açıb göstərir. Başqa mədəniyyət müəssisələrindən fərqli olaraq muzeylərin bu sahədə apardığı iş daha səmərəli və təsirlidir.

Ölkə xaricində qoyulan bir neçə abidələrə nəzər salsaq, bu əsərlərin Azərbaycan mədəniyyətinin inkişafındakı inkişafının şahidi olarıq. Həmin əsərlərin ilkin nüsxələrinin muzeylərdə nümayiş olunması muzey mühiti vasitəsilə yaradıcı idrakla tədris prosesi arasındakı qarışılıqlı əlaqəni izləmək baxımdan mühüm rol oynayır.

Belə ki, 2004-cü il mayın 18-də Belçikanın paytaxtı Brüsseldə Ümumdünya Gömrük Təşkilatının İqamətgahı qarşısında "Dədə Qorqud" abidəsinin ucaldılması bu fikirləri təsdiq edir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev abidənin açılış mərasimində iştirak etmiş, "Dədə-Qorqud" dastanını milli sərvət adlandırmış və bəşəriyyətə aparan yolun da məhz millidən başladığını bildirmişdir. Heykəltəraş Namiq Zeynalovun hazırladığı abidə Belçika Azərbaycan Evinin rəhbəri Büləndd Gurcanın təşəbbüsü ilə qoyulmuşdur[8].

Fiqurun portret cizgisinin əsas atributları sayılan saç və saqqal formaları Dədə Qorqudun xarakterik obrazını yaradır və fiqurun çöhrəsini nurlandırır. Obrazın xarakterik cizgiləri türk variantından götürülmüş portret əsasında işlənilmişdir. El ağsaqqalının əlində qopuz, əynində açıq yaxalıqlı uzun əba təsvir edilmişdir.

Hazırda Nizami muzeyinin "Kitabi-Dədə Qorqud" eposuna aid zalında həmin heykəlin müəllif tərəfindən hazırlanmış maketi tamaşaçılara təqdim olunur. 2005-ci ildə muzeyə daxil olan bu əsər zalın divarından asılmış Dədə Qorqudun portreti və digər heykəltəraşlıq nümunələri ilə xüsusi uyğunluq təşkil edir, ekspozisiyanın mövzusunu tamamlayır.

İstər dəyərli muzey əşyası, istərsə də muzeydənkənar abidənin maketini hazırlayarkən əsli ilə hazırlanma texnikası tam uyğun olmalı, orijinalı ilə eyni təsəvvürü yaratmalıdır[2, s.25]. Namiq Zeynalovun muzey üçün yaratdığı Dədə Qorqudun maketi kiçik olmasına baxmayaraq Azərbaycan xalqının əcdadı olan qədim oğuzların baş bilicisi, ozanı, müdrik el ağsaqqalı, hörmətli və nüfuzlu siması kimi təqdim etməyi bacarmışdır.

Xurşidbanu Natəvanın Evian şəhərində ucaldılan abidəsi də Azərbaycan mədəniyyət 2015-ci ildə Azərbaycanın İsmayıllı rayonu və Fransanın Evian şəhəri arasında dostluq və əməkdaşlıq Xartiyası bağlandıqdan sonra İsmayıllıda "Evian-le-Bən" parkı açılmış və muzeydə dost şəhərlə bağlı guşə fəaliyyətə başlamışdır. 3 iyul 2017-ci ildə isə Fransanın Evian-le-Bən şəhərində "Azərbaycan parkı"nın və oradakı heykəlin açılışı olmuşdur. Xurşidbanu Natəvanın heykəlinin müəllifləri Salhab Məmmədov və Əli İbadullayevdir. Dostluğun rəmzi olan "Azərbaycan par-

kı”nda azərbaycanlı şairənin abidəsinin ucaldılması iki ölkə arasında qarşılıqlı əməkdaşlığın, multikulturalizm və mədəniyyətlərarası dialoqun inkişafına töhfədir.

Azərbaycan dövləti ölkəsinin suverenliyi və ərazi bütövlüyü uğrunda xidməti olan dövlət qurucularının, canlarından keçən qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görümüşdür. Bu kimi addımları ölkə qanunvericiliyi ilə tənzimləyən Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2 aprel 2007-ci il tarixli “Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında” sərəncamı bu istiqamətdə fəaliyyətə geniş imkanlar açdı [1].

Tarixi dövrlərdə yaşayıb-yaradan ədəbi şəxsiyyətlərə və onların yaradıcılığına həsr edilmiş təsviri sənət əsərlərinin ölkə xaricində ucaldılmasının təşəbbüskarı olan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi həmçinin bir çox heykəltəraşlıq örnəklərinin bəzilərinin orjinalları, eyni kompozisiya əsasında hazırlanmış formalarını fondun incəsənət bölməsində qoruyur, daimi və müvəqqəti ekspozisiyasında nümayiş etdirir. Azərbaycanın zəngin ədəbi irsinin, qədim mədəniyyətinin təqdimi funksiyasını yerinə yetirən bu abidələr sərhədlər tanımayaraq vətəndən uzaqlara da gedib çıxmışlar.

Azərbaycan Xalq Cümhuriyyəti qurucularından olan Əlimərdan bəy Topçubaşovun məzar daşının ölkəyə gətirilməsi, qəbirüstü abidəsinin salınması Nizami muzeyi rəhbərliyinin ölkə xaricindəki memorialların yaradılmasında ən təqdirəlayiq xidmətlərindəndir. Bu xidmət insanların tarixi-mənəvi dəyərlərə hörmət və məhəbbət ruhunda tərbiyə olunmasında, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsində böyük rol oynayır.

Nizami muzeyi isə Topçubaşovun və ailəsinin xatirəsini, ruhunu özündə yaşadır. Vaxtilə Sen-Klu qəbirstanlığındakı Ə.Topçubaşova və onun ailəsinə qoyulan məzar daşı hal-hazırda muzeyin ekspozisiyasında nümayiş olunur. Muzeyin direktoru akademik Rafael Hüseynov məzarın üzərindəki köhnə, tarixi mənası olan həmin daşı Azər-baycana gətirməkdə köməklik göstərməsini Respublika prezidenti İlham Əliyevdən rica etmişdir. Məzar daşı vətənə gətirələrək Nizami muzeyinin ekspozisiyasında yerləşdirildi[6, s.128].

Nizami muzeyinin ölkə xaricində memorialların yaradılmasındakı fəaliyyətinə Mehdi Hüseynzadəyə həsr edilən ayrıca xatirə muzeyinin açılması da aiddir. Muzey 2011-ci ildə Sloveniyanın Novo-Qoritsa şəhərinin Şempats qəsəbəsində yaradılmışdır. Mehdi Hüseynzadəyə aid memorial muzeyin yaradılması həm Azərbaycan, həm də Sloveniya höku-

mətlərinin bu torpaqların faşizm təhlükəsindən azad olunması yolunda öz canından keçmiş qəhrəmanın xatirəsinə sayğının göstəricisidir. Muzeydə yaradılan ekspozisiyada Mehdi Hüseynzadənin həyat və fəaliyyətini əks etdirən fotoları, təsviri sənət əsərləri, qəhrəmanın xatirə əşyaları, ailə arxivindən indiyə qədər işıqlanmayan şeirləri və digər sənədləri toplanmışdır.

Yaddaşlarda əbədi qalacaq hadisələrin bədii ifadəsi olan, tarixi-psixoloji tutumlu mövzuların heykəltəraşlıq nümunələri vasitəsilə təqdimi tarixi janrın tarixi-bədii qaynaq kimi daim inkişafda olduğunu göstərir. Bir sözlə deyə bilərik ki, ədəbiyyat və mədəniyyət incilərinin abidələrinin ölkə xaricində ucaldılması, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin dünyada tanıdılması ilə yanaşı, heykəltəraşlıq sənətinin yüksək inkişafını, heykəltəraşların yeni forma-kompozisiya axtarışlarının uğurlu nəticəsini beynəlxalq arenada təqdim etmək cəhətdən də əhəmiyyətlidir. Sərhədlərdən uzaqlardakı abidələrin müəyyən qisminin muzeylərdə yerləşməsində məqsəd ekspozisiyanın təchizi zamanı tamaşaçıların sosial-demoqrafik tərkibi nəzərə alınmış, maraq və tədris üçün ekspozisiyanın qavranılmasına kömək göstərməkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 aprel 2007-ci il, № 2079) // Azərbaycan. - 2007.- 3 aprel. - N 68. - s.1.

2. Eyvazova Y.M. Muzey ekspozisiyası: dərslik. - Bakı: ADMİU, 2018.— 320 s.— şəkilli.

3. Həbibov N. Təsviri sənət haqqında / N.Həbibov. – Bakı: Gənclik, 1967. – 75s.

4. Məlikova-Qurbanova E. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası: dərslik / E.Məlikova-Qurbanova.— Bakı, 2017.— 239 s.

5. Hasanova G.S. Presentation of the personality and heritage of Nizami through the sculptural patterns of Nizami museum // Українська культура: минуле, сучасне, шляхи розвитку : наук. зб. Напрям: Культурологія. Вип. 29.— Рівне: РДГУ, 2018.— p.126-130.

6. Шмит Ф.И. Музейное дело. Вопросы экспозиции / Ф.И. Шмит.— Ленинград: Академия,1929.— 85 с.

7. https://president.az/

Gulsaba Sahib gizi Hasanova
National Azerbaijan Literature Museum
named after Nizami Ganjavi
PhD in art studies
E-mail: glsyba@bk.ru
https://orcid.org/ 0000-0003-0161-7670

THE ROLE OF MUSEUMS İN PRESENTİNG AZERBAİJANİ SCULPTURAL MONUMENTS TO THE WORLD

Annotation*. The article reports on the creation of memorial complexes and memorial museums through the activities of tha museums outside the country. These monuments, performing the function of representing the ancient culture, rich literary heritage are stored in the art department of the museum fund and are exhibited in its permanent and temporary exhibitions.*

Key words: *museum foundation, monument, exhposition of museum, culture.*

Гюльсаба Сахиб кызы Гасанова
Национальный музей Азербайджанской литературы
имени Низами Гянджеви,
доктор философии по искусствоведению

РОЛЬ МУЗЕЕВ В ПРЕДСТАВЛЕНИИ МИРУ АЗЕРБАЙДЖАНСКИХ СКУЛЬПТУРНЫХ ПАМЯТНИКОВ

Резюме: *В статье сообщается о создании мемориальных комплексов и музеев за счет деятельности музея Низами за пределами страны. Эти памятники, выполняющие функцию представления древней культуры, богатого литературного наследия хранятся в отделе искусства музейного фонда и выставляются в его постоянной и временной екпозициях.*

Ключевые слова: *музейный фонд, памятник, музейная экспозиция, культура.*



HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК
==========
UOT/UDC/УДК 81.34

Könül Sadiq qızı Həsənova
Bakı Xoreqrafiya Akademiyası, müəllim
E-mail: konul50@gmail.com
https://orcid.org/0009-0007-8329-9245

MÜASİR AZƏRBAYCAN DİLNİN FONETİKASI

Xülasə: *Məqalə Azərbaycan fonoloqlarının elmi araşdırmalarına həsr olunmuşdur. Məqalədə fonetikanın məqsəd və vəzifələri, növləri, əhəmiyyəti, Azərbaycan dilinin fonetik quruluşu və fonemlər sistemi, fonetik quruluşun özünəməxsus orijinal xüsusiyyətləri, Azərbaycan dilində fonetik hadisə və qanunlar kimi məsələlərdən də bəhs edilir.*

Açar sözlər: *fonetika, ədəbi dil, üsul, səs, quruluş, lüğət, tədqiqat.*

Ümumiyyətlə, dilçilik elminin belə bir sahəsi vardır ki, hər hansı bir dilin fonemlərini öyrənir. Dilçilikdə dilin səs və səs vahidlərini öyrənən sahə fonetika adlanır. Fonetika dilçiliyin ən çox işlənmiş sahələrindəndir. Fonetika termini yunan mənşəlidir. Yunan dilində fone (rhone - səs, tika- elm, səs haqqında təlim, elm) termini iki mənada işlədilir:

Bu sözdən yaranmış fonetika isə danışıq səsinə məxsus olan təlim anlayışını bildirir. Fonetikanın mövzusu danışıq səsləri olduğundan dilin səs sistemini müəyyənləşdirmək, fonem və fonem variantlarının akustik-fizioloji xüsusiyyətlərini öyrənib geniş fizioloji xarakteristikasını vermək, fonetik qanunların, hadisələrin mahiyyətini aydınlaşdırmaq onun başlıca vəzifəsidir.

Azərbaycanda fonetikanın tədqiqat üsulları

Azərbaycan dili fonemlər sisteminə, sintaqmatik fonetikasına görə dünyanın ən zəngin və inkişaf etmiş dillərindən biridir. Əsrlərlə formalaşan fonetik normalar Azərbaycan dilinin özəlliyini qoruyub saxlamış, onu yad dillərin təsirindən, hətta məhv olmaq təhlükəsindən xilas etmişdir. Əksinə, bəzən digər dillərə (ərəb, fars, rus və s.) təsir edərək, onlardan alınan sözlərin fonetik qiyafəsinin "milliləşməsinə", özləşməsinə təsir etmişdir. Fonetikanin yaranma və inkişaf tarixi çox qədimdir. Fonetika anlayışı hələ eradan əvvəl hind dilçiliyində təşşəkkül tapmışdır. Qədim hindlilər dini abidələrin

dilinə muraciət edərkən fonetika hadisələrinə biganə qalmamışlar. Fonetikanın dilçilikdə əhəmiyyəti böyükdür. Fonetika dilin tarixini öyrənməyə, ayrı-ayrı sözlərini etimologiyasını açmağa və aydınlaşdırmağa, dillərin qohumluğunu müəyyən etməyə kömək edir, alınma sözlərin söz alan dilin səs sisteminə uyğunlaşmasında mühüm rol oynayır. Fonetikanın əsaslı oyrənilməsi ana dilinin düzgün tələffüz qaydalarının mənimsənilməsinə kömək edir.

Müasir dilin fonetik sisteminin tədqiqində bir sıra üsullardan istifadə olunur: a) müşahidə üsulu; b) təcrübi üsul.

Fonemin necə səslənməsini subyektin özünü bilavasitə müşahidə etməsi nəticəsində tədqiqat aparmasına *müşahidə* üsulu deyilir. Bu üsul, eyni zamanda, subyektiv üsul da adlanır. Belə iş aparılarkən heç bir vasitədən istifadə olunmur; şəxs eşitmək və hiss etməklə bu və ya digər hadisəni şərh edir. Dildəki səslər ayrılıqda deyil, sözlər tərkibində tələffüz olunur. Belə bir vəziyyətdə bəzən müəyyən səs bu və ya digər səsə keçir. Bu incəliyi isə insan qulağı hər zaman tuta bilmir. Buna görə də subyektiv üsul bir o qədər də etibarlı deyildir.

b) Təcrübi üsul. Danışıq səslərinin müxtəlif cihazlarla, aparatlarla tədqiq olunmasına təcrübi üsul deyilir. Bu, eyni zamanda, obyektiv üsul da adlanır. Təcrübi üsul XIX əsrin ikinci yarısında meydana çıxmışdır. Bu üsulun yaranmasının xüsusi tarixi vardır. Tədqiqatçılar əvvəllər səsləri müəyyənləşdirmək üçün güzgü, şam və sair kimi ibtidai vasitələrdən istifadə etmişlər. Bunlardan sonra get-gedə cihazlardan istifadə etməyə başlanılmışdır. Hal-hazırda isə çox mürəkkəb aparatlardan istifadə olunur. Burada kimoqram, rentgenoqram və palatoqramlara geniş yer verilərək bütün səs incəlikləri aydın tədqiq edilir. Dilin səs sisteminin öyrənilməsində təcrübi üsul olduqca əhəmiyyətlidir. Bu üsul danışıq səslərinin dəqiq ölçülməsinə və düzgün xarakterizə edilməsinə imkan verir. Dilçilikdə bəzən təcrübi üsul təcrübi *(eksperimental)* fonetika adlandırılır. Eksperimental üsulla səslərin və səs hadisələrinin bütün əlamətləri ayırd edilir. Təcrübi üsul sayəsində fonetika elmi əsasda yüksək inkişaf səviyyəsinə qalxa bilmişdir. Azərbaycan dilçiliyində son zamanlar təcrübi fonetik tədqiqata xüsusi əhəmiyyət verilir. Dilimizin səs sistemi bu üsulla əsaslı surətdə öyrənilir.

Deməli, başqa dillər kimi, müasir Azərbaycan dilinin səs tərkibi də Azərbaycan dilində uzun müddətli tarixi inkişafın məhsuludur. Lakin qeyd etməmək olmaz ki, Azərbaycan dilində uzun müddətli tarixi inkişaf nəticəsində əmələ gəlmş dəyişikliklər heç də başqa dillərin, birinci növbədə, ərəb və fars dillərinin fonetik faktlarının dilimizə birbaşa daxil olmasından irəli gəlməmişdir. Əksinə başqa dillərin fonetik faktları dilimizə keçərkən ciddi dəyişikliklərə məruz, məhz Azərbaycan dilinin fonetik qanunları tərəfindən işləndikdən sonra fonematik vətəndaşlıq hüququ qazanmışdır.

Müasir Azərbaycan dilinin fonetik quruluşun ümumi xüsusiyyətləri

Azərbaycan dili zəngin fonetik vasitələrə malikdir. Bu, uzun tarixi inkişaf prosesində əmələ gəlmişdir. Dilimizin fonetik vasitələri digər qohum dillərlə əlaqədar şəkildə təşəkkül tapmış və get-gedə təkmilləşmişdir. Azərbaycan dilinin orijinal fonetik vasitələrini səslər sistemi, ahəng qanunu, fonetik hadisələr, heca, vurğu və s. təşkil edir. Bu fonetik vasitələrdən hər birinin müəyyən xüsusiyyətləri və vəzifələri vardır. Dilçilik elminin bir sərbəsi olan fonetika bütün səslərin yox, ancaq danışıq səslərini öyrənir. Dili danışıq sasləri olmadan təsəvvür etmək olmaz.

Hər bir dildə çoxlu səs olur. Azərbaycan dilində də bizim adi halda təsəvvür etdiyimizdən artıq miqdarda səslər vardır. "Lakin bu səslərin hamısı nitq üçün – dil üçün bərabər dərəcədə qiymətli deyildir". Məsələn, dilimizdəki qol, toqqa, maraq sözlərindəki [q] səslərinin tələffüzünə fikir versək, aydın olur ki, burada dörd [q] səsi vardır. Ancaq bu səslərin hamısı eyni keyfiyyətə malik deyildir. Belə ki, bunlar zəiflik və qüvvətlilik etibarı ilə bir-birindən fərqlidir. Dildəki səslərin bu cəhətini nəzərə alaraq onları iki tipə bölmək olur: sözü fərqləndirən səslər, sözü fərqləndirməyən səslər. Sözü fərqləndirən səslər. Dildə sözü fərqləndirən səslər fonem adlanır. Fonem nitqin əsas və qüvvətli səsləridir. Buna görə də dildəki hər bir leksik vahid real səslər olan fonemlərdən ibarətdir.

Dünyada mövcud olan bütün dillərin səs sistemi, təbii olaraq, bir-birinin eynini təşkil etmir. Burada ümumi cəhətlərlə yanaşı, hər bir dilin fonetik quruluşu başqasından bu və ya digər cəhətdən fərqlənir. Hətta qohum dillərin fonetik tərkibində də müəyyən yaxınlıq, oxşarlıq olsa da, bunların fərqli cəhətləri vardır. Belə bir cəhətə əsasən fonetikanın iki forması meydana çıxmışdır: ümumi fonetika, xüsusi fonetika.

Danışıq səsləri haqqında ümumi nəzəri məlumat verən fonetikaya *ümumi fonetika* deyilir. Burada danışıq səsini əmələ gətirən üzvlərdən, onların vəzifələrindən və digər məsələlərdən ümumi şəkildə bəhs olunur. Ümumi fonetika bütün dillərin fonetik materialları üzərində yaradılır. Buna görə də ayrı-ayrı dillərin fonetikası öyrənildikcə ümumi fonetikaya yeni-yeni faktlar daxil olur.

Xüsusi fonetika. Bu və ya digər bir dilin fonetik tərkibini tədqiq edən şöbəyə xüsusi fonetika deyilir. Xüsusi fonetika konkret bir dil üzərində yarandığı üçün həmin dilin adı ilə adlanır. Məsələn, Azərbaycan dilinin fonetikası, rus dilinin fonetikası, ingilis dilinin fonetikası, gürcü dilinin fonetikası və s.

Fonetikanın növləri

Dilin səs sistemi müxtəlif cəhətdən və müxtəlif məqsədlərlə bağlı olaraq öyrənilir. Tədqiqatın məqsədi bəzən dilin hazırkı vəziyyətini aşkar et-

məkdən, bəzən isə tarixi faktları müəyyənləşdirməkdən və sairdən ibarət olur. Buna əsasən fonetikanın üç növü əmələ gəlmişdir:

1) tarixi fonetika;

2) müqayisəli fonetika;

3) təsviri fonetika.

1. *Tarixi fonetika*. Dilin fonetik tərkibini tarixilik mövqeyindən tədqiq edən fonetikaya tarixi fonetika deyilir. Bu fonetikanın tədqiqat obyekti yazılı abidələrdir. Burada bu və ya başqa fonetik hadisə təhlil olunarkən dilin müasir səs sistemindən istifadə olunur. Buna görə də tarixi fonetikada müasir dilin səsləri də öyrənilir. Tarixi fonetikada hər hansı bir hadisənin təhlilində, əsasən, müqayisəli-tarixi metoddan istifadə olunur.

2. *Müqayisəli fonetika*. Bir dilin, yaxud müxtəlif dillərin səs sistemini müqayisəli şəkildə öyrənən fonetikaya müqayisəli fonetika deyilir. Müqayisəli fonetikada müqayisə üsulundan istifadə olunur. Fonetikanın bu növündə həm qohum, həm də qohum olmayan dillərdən birinin və ya bir neçəsinin səs sistemi müqayisə edilə bilir. Qohum dillərin, yaxud bir dilin ədəbi və danışıq qollarının səs sisteminin müqayisə olunması elmi məqsəd daşıyır. Lakin qohum olmayan dillərin səs sisteminin müqayisəsi, əsasən, praktiki əhəmiyyətə malikdir. Məsələn, Azərbaycan və rus dillərinin səslərinin müqayisə edilməsi tədrislə əlaqədar olub, hər iki dilin yaxşı mənimsənilməsinə kömək edir.

3. *Təsviri fonetika.* Dilin səs sisteminin müasir inkişaf vəziyyətini öyrənən fonetikaya təsviri fonetika deyilir. Burada ancaq müasir dilin materialları öyrənilir. Fonetikanın bu növünün özü də iki cür olur: a) akademik (nəzəri) təsviri fonetika, b) normatik təsviri fonetika. Akademik təsviri fonetikada dilin müasir səs sistemi bütün dərinliyi ilə əhatə olunur. Hər bir hadisə elmi aspektdə geniş şərh edilir. Lakin normatik təsviri fonetikada hər şeydən deyil, müəyyən norma dairəsində ən mühüm fonetik məsələlərdən bəhs edilir.

Müasir Azərbaycan ədəbi dilinin fonetik quruluşu uzun müddətli tarixi inkişafın məhsulu olub, özünəməxsus xüsusiyyətlərə malikdir. Azərbaycan dilinin əmələ gəlməsinin spesifikliyi bir çox başqa xalqın tarixində olmuş hadisə - yerli əhalinin dilinin kəlmələrin dili ilə əvəz olması Azərbaycanda da baş vermişdi[1, s.189] və öz inkişafında həmin dildə anışan xalqın geneoloji və morfoloji cəhətdə müxtəlif dillərdə danışan xalqlarla əlaqəsi Azərbaycan dilinin fonetik quruluşunda da müxtəlif izlər buraxmış, nəhayət, bugünkü Azərbaycan dilinin orijinal fonetik quruluşa və onu səciyyələndirən xüsusiyyətlərə malik olmasına səbəb olmuşdur.

Bütün bunlara baxmayaraq, Azərbaycan dilinin fonetik quruluşunda türk dilləri subsntatının fonetik xüsusiyyətlərui yaşamaqda və mürəkkəb

sövti hadisələr və xüsusiyyətlər qammasında aydın surətdə hiss edilməkdədir. Heç şübhəsiz ki, Azərbaycan dilinin fonemlərinin, fonem tərkibi və fonemsistemini tam elmi əsaslarla müəyyənləşdirmək üçün həmin xüsusiyyətlərin izah edilib, ümumiləşdirilməsi mühüm zəruriyyət təşkil edir.

Müasir Azərbaycan dilinin fonetik quruluşun özünəməxsus orijinal xüsusiyyətləru ilə fərqlənir. Türk dillərindən biri kimi Azərbaycan dilinin ümumi xüsusiyyətlərindən *birincisi ahəng qanunudur.*

Məlum olduğu üzrə ahəng qanunu türk dilləri üçün elə spesifik və mühüm cəhətdir ki, məhz onun köməyi ilə məşhur danimarkalı dilçi V.Tomsen Orxan çayının sahillərindən tapılmış və elm aləminə məlum olmayan bir əlifba ilə yazılmış qədim Gültəkin abidələrini oxumuşdur[3, s.36]. Ahəng qanunu və yaxud Avropa və rus dilçilərinin dediyi kimi, sinqarmonizm bəzən başqa dillərdə, məsələn, fin-uqor qrupundan olan dillərə də aid olmasına baxmayaraq, özünü türk dillərinddə göstərir.

Bu qanuna əsasən, ön sıra saitlərin iştirak edən heca ilə başlayan sözlərdən sonra gələn hecalar ön sıra saitlərindən, arxa sıra saitləri iştirak edən heca ilə başlayan sözlərdə isə sonra gələn hecalar da arxa saitlərindən ibarət olmalıdır. Saitlərin ahənginə (harmoniyasına) aid olan bu hadisə türk dillərindəki saitlər üçün əsas qanundur.

Qeyd etmək lazımdır ki, türkologiyada damaq ahəngi adı ilə verilən bu fonetik hadisə türk dilləri içərisində də özünü ən tam şəkildə Azərbaycan dilində göstərir. Ümumiyyətlə, damaq ahəngi türk dillərinin hamısı üçün mühüm qanun kimi mövcuddur. Məsələn, "Məhz türk dillərinin materiallarında fonetik axtarışları necə aparmaq lazım gəldiyini bizə göstərən, ümumiyyətlə, fonetika üzrə mütəxəssis V.A.Boqoroditskinin fikrincə, "müxtəliflik türk dialektlərində ahəng qanunu sahəsində müəyyən sabitliklə yanaşı, mühüm dərəcədə müxtəliflik də nəzərə çarpır; sabitlik damaqlılığa, müxtəliflik isə dodaqlığa aiddir." Görkəmli rus tarixçisinin bu fikri tamamilə doğrudur. Lakin qeyd etmək lazımdır ki, damaq ahənginin sabitliyi də türk dillərinin yeni inkişaf mərhələsində müəyyən dərəcədə müxtəlif vəziyyətdədir. Başqa sözlə bəzi türk dillərində bu qanun pozula da bilir. Məsələn, müasir uyğur dilində biz belə bir hadisənin şahidi oluruq. A.Samoyloviç damaq ahənginin pozulmasına aid müasir türk dilində elma-alma, hanqi-hansı kimi misallar göstərir. Belə hallar türkmən, tuvin dillərinə də aiddir.

Qeyd etmək lazımdır ki, bu hal Azərbaycan dilində yalnız kök və şəkilçilər arasında özünü göstərmir. Bu eyni zamanda müxtəlif miqdarda hecalardan təşkil olunmuş sözlərə də aiddir. Bu cəhətdən Azərbaycan dili üçün belə bir ümumi fonetik xüsusiyyət göstərmək olar: *eyni bir söz və ya söz-forma daxilində ön sıra saitləri o zaman və yalnız o zaman işlənə bilər ki, arxa*

sıra saitləri işlənməz; və yaxud eyni bir söz və ya söz forma daxilində arxa sıra saitləri o zaman və yalnız o zaman işlənə bilər ki, ön saitləri işlənməz [7, s.37].

Göründüyü kimi, Azərbaycan dili bu cəhətdən başqa türk dillərindən müəyyən dərəcədə fərqlənir. Belə ki, Azərbaycan dilində kök və şəkilçi arasında ahəng qanununun pozulması halı mövcud deyildir.

İkinci mühüm cəhət iki saitin yanaşı gəlməməsidir. Azərbaycan dilinin quruluşu sait+samit və yaxud samit+saitdən ibarətdir.

Üçüncü şərt söz əvvəlində iki kar samitin yanaşı gəlməməsidir. Bunlar Azərbaycan dili üçün ümumi fonetik xüsusiyyətdir.

Ümumi fonetika akustik-fizioloji və linqvitik aspektlərin birliyi kimi nitq səslərinin yaranmasının ümumi vəziyyətini araşdırır. Nitq səslərinin yaranmasının nəzəri məsələlərinin hazırlanması, samit və sait səslərin təbiəti, hecanın struktur imkanı və mümkün quruluşu, vurğunun müxtəlif tipləri haqqında nəzəri fikirlər söynəlinilir. Başqa sözlə, ümumi fonetika dilin səsləri haqqında biliyin nəzəri məsələlərinə toxunur.

Xüsusi fonetika ayrı-ayrı dillərin konkret sistemini öyrənir. Məsələn, azərbaycan dilinin fonetikası, ingilis dilinin fonetikası və s. Bu fonetika bir dilin səslərini sinxron və ya diaxron fonetikası və s. Hər dilin öz fonetik quruluşu var. Müxtəlif dillərin fonetik quruluşundakı fərqlər ümumi və xüsusi fonetikaların yaranmasına imkan yaradır. Təkcə müxtəlif dillərin yox, eyni zamanda fonetik quruluşları yaxın və oxşar olan qohum dillərin də bir-birindən fərqli cəhəti var. Müxtəlif dillərin sait və samitlərinin tərkibcə və keyfiyyətcə müqayisəsi xüsusi və ümumi fonetikaları bir-birindən ayırmağa imkan verir. İnkişaf etmiş canlı dillərdə sait və samitlərin təsnifatı əsasən, eynidir, lakin hər dildə sait və samitlərin tərkibi və kəmiyyəti müxtəlifdir. Azərbaycan dilində ə, ö, ü saitləri rus dilində yoxdur. Bunlar milli səciyyəvi saitlərdir.

Müasir Azərbaycan dilində fonetik hadisə və qanunlar

Azərbaycan dili Azərbaycanda və bir sıra qonşu ölkələrdə əsrlərdən bəri yaşayan azərbaycanlılara ünsiyyət vasitəsi kimi xidmət edən ana dilidir. Azərbaycan dili türk dilləri ailəsinin qərb qrupuna mənsub olmaqla bu qrup daxilində mərkəzi mövqe tutan və geniş nüfuz dairəsinə malik olan dildir. Həm də bu qrupa mənsub dillər arasında ən əvvəl, yəni təqribən VII-IX əsrlər arasında ümümxalq dili halında formalaşmışdır.

Ümumxalq dili kimi özünü ilk formalaşma dövründən başlayaraq, həm danışıq dili, həm də ədəbi dil qolları üzrə azərbaycanlılara xidmət etmiş olan Azərbaycan dili XIX əsrdən tamamilə milli dilə çevrilmiş və Azərbaycan milli mədəniyyətinin forması halında xeyli təkmilləşmişdir. Azərbaycan

ədəbi dilinin hər iki növü – şifahi və yazılı növü təqribən XI-XII əsrlərdən mövcuddur. Əlbəttə, şifahi ədəbi dil nisbətən daha əvəllər formalaşmışdır.Əlbəttə, ilk dövrlərdə şifahi ədəbi dilin işlənmə dairəsi daha geniş, yazılı ədəbi dilin işlənmə dairəsi isə nisbətən daha məhdud olmuşdur. Bu isə Azərbaycan ədəbi dilinin vahid milli dil halında formalaşmasının və ümumi normaların qanuniləşməsinin zəminini yaratmışdır.

Dil onu yaradan və yaşadanlara xidmət edən ünsiyyət vasitəsi olduğu üçün, onun qayda-qanunları da həmin dildə danışanların inkişafı ilə əlaqədar surətdə dəyişir və təkmilləşir.

Dilin başqa sahələrində olduğu kimi, fonetik quruluşunda da bir sıra hadisə və qanunlar mövcud ola bilir. Bunlardan ədəbi dildə sabitləşənlər qanun hesab edilir. Danışıq dilində işlənərək ədəbi dildə qanuniləşməyənlər isə hadisə adlanır. Dildəki fonetik hadisə və qanunlar hər bir dilin öz milli xüsusiyyətləri əsasında yaranır. Bu hadisə və qanunların dildə rolu çox böyükdür. Xüsusən başqa dillərdən alınma sözlərin ümumxalq dilinə uyğunlaşdırılmasında fonetik hadisə və qanunlar mühüm əhəmiyyət kəsb edir. Belə ki, bəzən alınma söz dilin tələblərinə uyğun gəlmədikdə ona yeni səs artırılır, yaxud əksinə, bu və ya digər səs ixtisar edilir, yaxud dəyişdirilir və s. Müasir Azərbaycan dilinin bir sıra fonetik hadisə və qanunları vardır. Bunlar qanunauyğun şəkildə, müxtəlif dövrlərdə və tədricən əmələ gəlmişdir. Müasir Azərbaycan dilindəki fonetik hadisə və qanunlar aşağıdakılardır: 1) assimilyasiya; 2) dissimilyasiya; 3) səsartımı; 4) səsdüşümü; 5) yerdəyişmə; 6) ahəng qanunu; 7) cingiltiləşmə qanunu

Assimilyasiya. Səslərin məxrəc və akustik cəhətdən bir-birinə yaxınlaşıb uyğunlaşmasına assimilyasiya deyilir. Məsələn, mən sözünü götürək. Bu sözə -dən şəkilçisi artırıldıqda sözün sonundakı [n] səsinin təsiri ilə şəkilçinin əvvəlindəki [d] səsi [n] səsinə çevrilir. Buna görə də həmin söz məndən əvəzinə mənnən şəklində tələffüz olunur. Assimilyasiya hadisəsi bir sıra səbəblərlə əlaqədar meydana çıxır. Bu hadisə "... səslərin formalaşmasında, xüsusilə fəal iştirak edən bu və ya digər üzvün bir vəziyyətdən başqa bir vəziyyətə keçməsilə yaranmış olur". Assimilyasiyanın əmələ gəlməsində dilin səs tellərinin və damaq pərdəsinin bir səsin tələffüzündə düşdüyü vəziyyətdən dəyişilə bilməsinin xüsusi rolu vardır. Belə ki, bunlardan, məsələn, dil (eləcə də adını çəkdiyimiz digər üzvlər) birinci səsin tələffüzündə düşdüyü vəziyyətdən dəyişilə bilməyəndə assimilyasiya hadisəsi törəyir. Ədəbi dilimizin orfoqrafiyasına dair normaların müəyyənləşdirilməsində assimilyasiyanın xüsusi rolu vardır. Lakin ədəbi dildəki assimilyasiya hadisəsi ilə danışıq dilinə məxsus assimilyasiyanı qarışdırmaq olmaz.

Assimilyasiyanın istiqaməti. Assimilyasiya istiqamətin görə iki cür olur: irəli assimilyasiya və geri assimiliyasiya. a) İrəli assimilyasiya. Birinci səsin

ikinci səsə təsiri nəticəsində yaranır: Səndən (n → d) sənnən Sərinlik (n → l) sərinniy b) Geri assimilyasiya.

İkinci səsin birinci səsə olan təsiri nəticəsində yaranır: dinməz (n←m) dimməz; Yavaşca (ş←c) yavacca Assimilyasiyanın keyfiyyəti: tam və natamam. a) tam assimilyasiya. Təsirə düşən səsin təsiredən səslə tamamilə həmcinsləşməsinə tam assimilyasiya deyilir.Məsələn: onlar (nl) →(nn) onnar; şorlu (rl) → (rr) şorru və s. b) Natamam assimilyasiya. Təsirə düşən səsin təsir edən səsi özünə yaxın səsə çevrilməsinə natamam, yaxud yarımçıq assimilyasiya deyilir. Məs.: atlar (tl) →(td) atdar; gözlük (zl) →(zd) gözdük.

Dissimilyasiya. Sözdəki eynicinsli səslərin birinin digərinə təsir edərək onu başqa səsə çevirməsinə dissimilyasiya deyilir. Məsələn, sararmaq və qararmaq sözlərinə nəzər yetirək.

Çəmənlər, bağçalar, bağlar sararsa,
Fəzalar dönərək sular qararsa,
Hər şeyi bir ölüm qorxusu sarsa
Əyilməm bir daha.... bir həvəs məni....

Səsartımı. Azərbaycan dilində görə sözdə iki sait, yaxud eyni hecada iki və daha artıq samit yanaşı işlənmir. Buna görə də sonu saitlə bitən sözlərə saitlə başlayan şəkilçi qoşulduqda iki sait arasına müəyyən bir samit artırılır ki, buna da səsartımı deyilir. Azərbaycan ədəbi dilində sözlərə artırılan samitlər bunlardır:

n, y, s [Y] səsinə aid: su + (y)u, işlə + (y)ən, gözlə + (y)ən və s. [S] səsinə aid: başçı + (s)ı, əmi +(s)i, nənə +(s)i və s. [N]səsinə aid: Əli +(n)i, Vəli + (n)i və s. Danışıq dilində sözlərə saitlərin də artırılması geniş yayılmışdır:

1) R səsi ilə başlanan sözlərdə. Məsələn: Rza əvəzinə İrza, rayon əvəzinə İrayon və s.

2) Qoşa kar samitlə başlanan sözlərdə. Məsələn: Şkaf əvəzinə İşkaf, stul əvəzinə ustul və s.

Səsdüşümü. Sözdən bu və ya digər səsin düşməsinə səs düşümü (elizi-ya) deyilir. Səs düşümü hadisəsi iki vəziyyətdə özünü göstərir:

1) sözlə şəkilçilərin birləşməsi;

2) sözlərin yanaşmasında.

Sözlə şəkilçilərin birləşməsi zamanı: fikir – fik(i)r + in – fikrin, sinif – sin(i)f + in – sinfin, əmir – əm(i)r + in – əmrin və s.; iki – iki(i)nci – ikinci, alti – altı(ı)ncı – altıncı və s.; yazma – yazm(a) + (y)ır – yazmır, bilmə – bilm(ə) + (y)ir – bilmir, gəlmə – gəlm(ə) + (y)ir – gəlmir və s.;

Fənn – fən(n) + lər – fənlər, xətt – xət(t) + lər – xətlər, sirr – sir(r) + lər – sirlər və s. Sözlərin yanaşması zamanı: Mirzə Əli – Mirzəli, Ağa Əli –

Ağəli, Əli Əsgər – Ələsgər, Əli İsa – Əlisa və s.; gəlmiş + idi – gəlmişdi, gəlib + imiş – gəlibmiş, görmüş + isə – görmüşsə və s.

Yerdəyişmə hadisəsi (metoteza). Sözün tərkibində səslərin bir-biri ilə yerini dəyişməsi. Məs.: Layihə – lahiyə – (yh – hy), torpaq – topraq – (rp – pr), Fərhad – Fəhrad – (rh – hr), məşhur – məhşur – (şh – hş) və s.

Ahəng qanunu. Sözdə eynicinsli səslərin bir-birini izləməsinə ahəng qanunu deyilir. quş +lar, gün + lər, üzüm+çü+lük, arı+çı+lıq və s. Ahəng qanununun üç növü olduğu müəyyənləş-dirilmişdir:

1.Saitlərin ahəngi;

2.Samitlərin ahəngi;

3.Saitlərdə samitlərin ahəngi.

Saitlərin ahəngi. Sözdə dilin və dodaqların vəziyyətinə görə saitlərin bir-birini izləməsinə saitlərin ahəngi deyilir. Məsələn: dilin vəziyyətinə görə. Dilönü-incə saitlərin ahəngi: iş + çi + lər, dilarxası-qalın saitlərin ahəngi: arı +çə +lıq + dan və s. ; Dodaqların vəziyyətinə görə. Dodaqlanan saitlərin ahəngi : üzüm +çü +lük, dodaqlanmayan saitlərin ahıngi: ipək +çi + lik və s.

Cingiltiləşmə qanunu. Müasir Azərbaycan ədəbi dilindəki fonetik qanunlardan biri də cingiltiləşmədir. Başqa fonetik hadisələrdən fərqli olaraq, ahəng qanunu kimi, cingiltiləşmə də dildə sabitləşdiyi üçün qanun şəklinə düşmüşdür. Sözdə kar samitin öz yerini cingiltili samitə güzəşt etməsinə cingiltiləşmə qanunu deyilir. Cingiltiləşmə sonu kar samitlə bitən bəzi sözlərə saitlə başlanan şəkilçi qoşulduqda baş verir. Məs.: K → y –inək → inəyi, kəpənək – kəpənəyi, qəpik – qəpiyi və s. T → d – get –ged +im – ged + ək, yarat – yaradım – yaradaq və s.

Bunların bəzisi bütövlükdə qanun kimi sabitləşmiş, bəzilərinin tərkibində isə hələ həm qanun, həm də hadisə xüsusiyyəti mövcuddur. Məsələn, səslərin ahəngi məsələsi tam qanun şəklini aldığı üçün ədəbi dildəki həmin məsələ ahəng qanunu adlanır. Lakin səsartımı məsələsində sözlərə bitişdirici səslərin (i, y, s) əlavə edilməsinin ədəbi dildə qanun kimi sabitləşməsinə baxmayaraq, məsələn, [r] səsi ilə başlayan sözlərin əvvəlinə samit artırılması (irayon, irast) hələ hadisədir. Deməli, səsartımında həm qanun, həm də hadisə vardır

Nəticə etbarı ilə qeyd etmək olar ki, başqa dilçilik fənləri kimi fonetika müstəqildir, özüün xüsusi tədqiqat obyekti mövcuddur. Fonetika ayrıca dilçilik sahəsi olsa da, başqa sahələrdən tamam təcrid olunmamışdır, onlarla qarşılıqlı əlaqədədir. O, orfoqrafiya, orfoepiya, leksika və qrammatika ilə daha sıx bağlıdır. Fonetika başqa dillərdən alınan sözləri mövcud dilə uyğunlaşdırmaqda xüsusi rol oynayır. Belə ki, başqa dillərdən alınan sözlər dilin fonetik sisteminin tələblərinə tabe edilir. Fonetikanın dərindən öyrənilməsi əsasında ana dilinin düzgün tələffüz qaydaları mənimsənilir.

Müasir Azərbaycan dilinin fonetikasının həm nəzəri, həm də əməli əhəmiyyəti vardır. Fonetikanı bilmədən dilin lüğət tərkibini, qrammatik quruluşunu istənilən şəkildə öyrənmək mümkün deyildir.

ƏDƏBİYYAT

1. *Axundov A. Azərbaycan dilinin fonetikası. - Bakı: Maarif,1984.- 392 s.*
2. *Axundov A. Azərbaycan dilinin fonemlər sistemi (Fizioloji, akustik, statistik, fizioloji tədqiqat təcrübəsi. - Bakı: Maarıf, 1973. – 304s.*
3. *Xəlilov B. Müasir Azərbaycan dili (fonetika, yazı, əlifba, qrafika,orfoqrafiya, orfoepiya). - Bakı, 2013. – 418s.*
4. *Əbdüləzəl D. Müasir Azərbaycan dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya. – Bakı. - "Şərq-Qərb", 2007. - 256 s.*
5. *Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya. – Bakı: "Şərq-Qərb", 2007. - 256 s.*
6. *Qurbanov A. Müasir Azərbaycan ədəbi dili : 2 cilddə. - Bakı, 2019. - C.1. - 464 s.*
7. *Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikasına aid materiallar(Fonetika-morfologiya). – Bakı : ADU, 1953. – 100s.*
8. *Yusifov M. Azərbaycan dili fonetikasının əsasları. - Bakı: "Elm və Təhsil", 2012. - 320 s.*
9. *https://www.azerbaijans.com/content_940_az.html- Azərbaycan dilinin fonetikası.*
10. *https://www.azerbaijans.com/content_936_az.html*

Konul Sadiq gizi Hasanova
Teacher of Baku Choreography Academy
E-mail: konul50@gmail.com
https://orcid.org/0009-0007-8329-9245

PHONETİCS OF THE MODERN AZERBAİJAN LANGUAGE

***Annotation**. The article is dedicated to the scientific research of Azerbaijani phonologists. In the article, the goals and tasks, types, importance of phonetics, the phonetic structure and phoneme system of the Azerbaijani language, unique original features of the phonetic structure, phonetic phenomena and laws in the Azerbaijani language are discussed.*

***Keywords:** phonetics, literary language, method, sound, structure, vocabulary, research.*

Конуль Садик кызы Гасанова
Бакинская Академия Хореографии, преподаватель

ФОНЕТИКА СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Резюме: *Статья посвящена научным исследованиям азербайджанских фонологов. В статье обсуждаются цели и задачи, виды, значение фонетики, фонетическая структура и система фонем азербайджанского языка, уникальные самобытные черты фонетической структуры, фонетические явления и законы в азербайджанском языке.*

Ключевые слова: *фонетика, литературный язык, метод, звук, структура, лексика, исследование.*



MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

"Kitabxana.az" jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin adı, müəllifin adı və soyadı, çalışdığı qurum, vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı və ORCID (2012-ci ildən bəri beynəlxalq elm aləmində qəbul edilmiş internetdə hərkəsə açıq olan Tədqiqatçı və İştirakçı Eyniləşdiricisi) göstərilməlidir.
2. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul olunur.
3. Məqalə 50 sözdən artıq olmayan xülasəyə, 4-dən az olmayan açar sözə malik olmalıdır.
4. Məqalə A4 formatında, Microsoft Word proqramında (şrift - Times New Roman – 12; interval - 1,5; səhifənin parametrləri: yuxarıdan – 2 sm, aşağıdan – 2 sm, soldan - 2,5 sm, sağdan – 2,5 sm) yığılmalıdır.
5. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məsələn, [1] və ya [1, s.15] kimi işarə olunmalıdır. Mətndə və ya başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
6. Ədəbiyyat siyahısında son 5-10 il ərzində nəşr olunmuş elmi əsərlərə istinad edilməsi tövsiyə olunur.
7. Jurnala təqdim olunan məqalələr:
   - əvəllər dərc olunmamalı;
   - heç bir digər jurnala dərc olunmaq üçün təqdim edilməməlidir.
8. Məqalənin dərc olunmaq üçün qəbul edilib-edilməməsi məsələsi redaksiya heyətinin müzakirəsindən sonra bəlli olur.
9. Əlyazmanın məzmunu və yazılışı üçün yalnız müəlliflər cavabdehlik daşıyırlar.
10. Müəlliflər məqalələri elektron şəkildə shafaq.ace@gmail.com ünvanına göndərə bilərlər.

ATTENTION TO AUTHORS!

Scientific articles submitted to the editorial office of the journal "Kitabxana.az" must be compiled taking into account the following rules:

1. It is necessary to indicate the title of the article, the first and last name of the author, institution, position, academic degree, e-mail address and ORCID.
2. The article is accepted in Azerbaijani, English and Russian.
3. The article should contain an abstract of no more than 50 words and no less than 4 keywords.
4. The article should be written in A4 format, in Microsoft Word (font - Times New Roman - 12; spacing - 1.5; page settings: top - 2 cm, bottom - 2 cm, left - 2.5 cm, right - 2.5 cm).
5. The article should contain links to scientific sources. For example, it should be marked as [1] or [1, p.15]. When repeated in the text or elsewhere, the cited literature should be cited with the previous number.
6. It is recommended to indicate scientific works published in the last 5-10 years in the list of references.
7. Articles submitted to the journal:
   - earlier should not be published anywhere;
   - should not be submitted for publication in any other journal.
8. The issue of accepting an article for publication becomes clear after discussion by the editorial board.
9. The authors are solely responsible for the content and writing of the manuscript.
10. Authors may submit articles electronically to shafaq.ace@gmail.com.

ВНИМАНИЕ АВТОРАМ!

Научные статьи, представляемые в редакцию журнала «Kitabxana.az», должны быть составлены с учетом следующих правил:

1. Необходимо указать название статьи, имя и фамилию автора, учреждение, должность, ученую степень, адрес электронной почты и ORCID (открытый для всех в интернете Идентификатор Исследователя и Участника, принятый в международном научном мире с 2012 г.).
2. Статья принимается на азербайджанском, английском и русском языках.
3. В статье должно быть резюме не более 50 слов и не менее 4 ключевых слов.
4. Статья должна быть написана в формате A4, в программе Microsoft Word (шрифт - Times New Roman - 12; интервал - 1,5; параметры страницы: сверху - 2 см, снизу - 2 см, слева - 2,5 см, справа - 2,5 см).
5. В статье должны быть ссылки на научные источники. Например, он должен быть помечен как [1] или [1, стр.15]. При повторении в тексте или в другом месте цитируемая литература должна быть указана с предыдущим номером.
6. Рекомендуется указывать в списке литературы научные работы, опубликованные за последние 5-10 лет.
7. Статьи, представленные в журнал:
   - ранее нигде не должны быть опубликованы;
   - не должны быть представлены для публикации в какой-либо другой журнал.
8. Вопрос о принятии статьи к публикации становится ясным после обсуждения на редколлегии.
9. Авторы несут полную ответственность за содержание и написание рукописи.
10. Авторы могут отправлять статьи в электронном виде по адресу shafaq.ace@gmail.com.

M Ü N D Ə R İ C A T

==========

KİTABŞÜNASLIQ VƏ NƏŞRİYYAT İŞİNİN TARİXİ

Knyaz ASLAN
Nizami Gəncəvi irsinin təbliğinə Heydər Əliyev töhfəsi 5
Sevda QULİYEVA
Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" əsərlər külliyatının nəşri və ictimai əhəmiyyəti 13

KİTABXANA İŞİNİN TARİXİ

Elçin ƏHMƏDOV
Kitabxanaşünaslığın funksional modeli 23
Azadə ORUCOVA
Azərbaycanda kitabxana işinin inkişafina Heydər Əliyev qayğısı 28
Orxan AĞAMİRZƏYEV
Kitabxanalarda innovasiya proseslərinin idarə edilməsi 35

İNFORMASİYA VƏ SƏNƏD MENECMENTİ

Azad QURBANOV
Smart kitabxanalarda tətbiq edilən yeni rəqəmsal texnologiyaların icmalı.....45
Ceyhun ŞİRİNOV
Chatgpt və onun elmi kitabxanalarda tətbiqi perspektivləri.....56
Aysel HƏSƏNOVA
Metaverilənlərin xüsusiyyətləri və funksiyaları 62

HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ

Tanrıverdi PAŞA
Mədəni irsin saxlanması və bərpasının əhəmiyyəti 73
Gülsəba HƏSƏNOVA
Azərbaycan heykəltəraşlıq abidələrinin dünyaya təqdimində muzeylərin rolu 83
Könül HƏSƏNOVA
Müasir azərbaycan dilnin fonetikası 89

C O N T E N T S

==========

HISTORY OF BIBLIOLOGY AND PUBLISHING

Knyaz ASLAN
Hayder Aliyev's contribution to the promotion of Nizami Ganjavi heritage.....5

Sevda GULIYEVA
Publication and socio-political significance of the anthology of Hayder Aliyev's works "our independence forever".....13

HISTORY OF LIBRARIANSHIP

Elchin AHMADOV
Functional model of library science…….23

Azade ORUJOVA
Heydar Aliev's care for the development of library business in Azerbaijan.....28

Orkhan AGAMIRZAYEV
Management of innovation processes in libraries.....35

INFORMATION AND DOCUMENT MANAGEMENT

Azad GURBANOV
Overview of new digital technologies applied in smart librarie…….....45

Ceyhun SHIRINOV
ChatGPT and its application prospects in scientific libraries 56

Aysel HASANOVA
Characteristics and functions of metadata 62

HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES

Tanriverdi PASH
Importance of preservation and restoration of cultural heritage 73

Gulsaba HASANOVA
The role of museums in presenting azerbaijani sculptural monuments to the world.....83

Konul HASANOVA
Phonetics of the modern Azerbaijan language 89

С О Д Е Р Ж А Н И Е

==========

ИСТОРИЯ КНИГОВЕДЕНИЯ И ИЗДАТЕЛЬСКОГО ДЕЛА

Князь АСЛАН
Вклад Гайдера Алиева в пропаганду наследия Низами Гянджеви 5
Севда Кулиева
Издание и социально-политическое значение антологии произведений Гайдера Алиева «Наша независимость навсегда» 13

ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА

Эльчин АХМЕДОВ
Функциональная модель библиотечного дела 23
Азаде ОРУДЖЕВА
Забота Гейдар Алиева о развитии библиотечного дела в Азербайджане ……28
Орхан АГАМИРЗОЕВ
Управление инновационными процессами в библиотеках.....35

ИНФОРМАЦИОННЫЙ И ДОКУМЕНТНЫЙ МЕНЕДЖМЕНТ

Азад КУРБАНОВ
Обзор новых цифровых технологий в smart библиотеках 45
Джейхун ШИРИНОВ
ChatGPT и перспективы его применения в научных библиотеках 56
Айсель ГАСАНОВА
Характеристики и функции метаданных.....62

ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК

Танрыверди ПАША
Важность сохранения и восстановления культурного наследия 73
Гюльсаба ГАСАНОВА.
Роль музеев в представлении миру азербайджанских скульптурных памятников 83
Конуль ГАСАНОВА
Фонетика современного азербайджанского языка ……...89

KİTABXANA.AZ

elmi-nəzəri və təcrübi jurnal

2023, Aprel, №1(38)

*** * ***

VÖEN: 1600740921

Təsisçi və baş redaktor: İslamova Şəfəq İsrafil qızı

Redaktor: Məmmədov Eldəniz Elman oğlu

Redaksiyanın ünvanı: AZ1096, Bakı ş., K.Balakişiyev küç. 161/15

Tiraj: 200 nüsxə

Qiyməti: Pulsuz

*** * ***

Jurnal ***"Füyuzat MMC" Nəşriyyat və Poliqrafiya Mərkəzində*** nəşr olunur. *Əlaqə telefonu:* (+994 55) 850 98 69

Çapa imzalanıb: 20.04.2023
Format: 70x100 1/8
Qarnitur: Times New Roman
Həcmi: 15 ç.v.
Sifariş № 678